# BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI VƏ AZƏRBAYCAN ARASINDA DAYANIQLI İNKİŞAF ÜZRƏ ƏMƏKDAŞLIĞA DAİR ÇƏRÇİVƏ SƏNƏDİ

**2021-2025**

# MÜNDƏRİCAT

**ÖN SÖZ** 5

**İMZA SƏHİFƏSİ** 7

**XÜLASƏ** 10

**ÖHDƏLİK BƏYANATI** 14

**BÖLMƏ 1: 2030-CU İL GÜNDƏLİYİNİN İCRASINDA ÖLKƏNİN ƏLDƏ ETDİYİ İRƏLİLƏYİŞ** 15

1.1. ÖLKƏ KONTEKSTİ 17

1.2. DAYANIQLI İNKİŞAFA DAİR MİLLİ GƏLƏCƏYƏ BAXIŞ 19

1.2.1. "AZƏRBAYCAN 2020: GƏLƏCƏYƏ BAXIŞ" İNKİŞAF KONSEPSİYASI ÇƏRÇİVƏSİNDƏ İNVESTİSİYA YÖNÜMLÜ PRİORİTETLƏR 19

1.2.2. TENDENSİYALAR, ÇAĞIRIŞLAR VƏ GƏLƏCƏK PRİORİTETLƏR 20

1.3. DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNƏ NAİLOLMA İSTİQAMƏTİNDƏ İRƏLİLƏYİŞ 32

1.4. BOŞLUQLAR VƏ ÇƏTİNLİKLƏR 35

**BÖLMƏ 2: BMT İNKİŞAF SİSTEMİNİN 2030-CU İL GÜNDƏLİYİNƏ DƏSTƏYİ** 37

2.1. DƏYİŞİKLİK NƏZƏRİYYƏSİ 38

2.2. STRATEJİ PRİORİTETLƏR 42

2.3. PLANLAŞDIRILAN İNKİŞAF NƏTİCƏLƏRİ 45

2.4. ƏMƏKDAŞLIQ ÇƏRÇİVƏSİNİN NƏTİCƏLƏRİ VƏ TƏRƏFDAŞLIQLAR 46

1-Cİ PRİORİTET SAHƏ: HƏSSASLIĞI AZALDAN VƏ DAYANIQLILIĞI TƏMİN EDƏN İNKLÜZİV ARTIM 47

2-Cİ PRİORİTET SAHƏ: DÖVLƏT VƏ SOSİAL XİDMƏTLƏRİN DAHA YAXŞI GÖSTƏRİLMƏSİ ÜÇÜN DAHA GÜCLÜ İNSTİTUTLAR 50

3-CÜ PRİORİTET SAHƏ: ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ İQLİM DƏYİŞİKLİYİ İLƏ MÜBARİZƏ 54

4-CÜ PRİORİTET SAHƏ: QADIN VƏ QIZLARIN SƏLAHİYYƏTLƏRİNİ ARTIRAN VƏ GENDER BƏRABƏRLİYİNƏ ƏSASLANAN CƏMİYYƏT 57

2.5. ƏMƏKDAŞLIQ ÇƏRÇİVƏSİNİN NƏTİCƏLƏRİ ARASINDA SİNERGİYALAR 59

2.6. DAYANIQLILIQ 59

2.7. BMT-NİN ÖLKƏ ÜZRƏ İDARƏ HEYƏTİNİN FƏALİYYƏTİNİN TƏŞKİLİ 60

**BÖLMƏ 3: ƏMƏKDAŞLIQ ÇƏRÇİVƏSİNİN İCRA PLANI** 61

3.1. İCRA STRATEGİYASI VƏ STRATEJI TƏRƏFDAŞLIQLAR 62

3.2. İDARƏÇİLİK 62

3.3. MÜŞTƏRƏK İŞ PLANLARI 63

3.4. DİGƏR 63

**BÖLMƏ 4: MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ PLANI** 64

4.1. MONİTORİNQ PLANI 65

4.1.1. RİSKLƏR VƏ FÜRSƏTLƏR 66

4.1.2. ƏMƏKDAŞLIQ ÇƏRÇİVƏSİNƏ BAXIŞ VƏ HESABATVERMƏ 67

4.2. QİYMƏTLƏNDİRMƏ PLANI 68

**ƏLAVƏ 1:** NƏTİCƏLƏR CƏDVƏLİ 69

**ƏLAVƏ 2:** HÜQUQİ QOŞMA 93

# İXTİSARLAR

| | |
|---|---|
| **AİB** | Asiya İnkişaf Bankı |
| **ÖÜT** | Ölkə üzrə Ümumi Təhlil |
| **QQAK** | "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiya |
| **YYMQ** | Yoxsullara Yardım üzrə Məşvərətçi Qrup |
| **UHK** | "Uşaq hüquqları haqqında" Konvensiya |
| **ƏŞHK** | "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiya |
| **FRA** | Fəlakət riskinin azaldılması |
| **FAO** | Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **İİİ** | İnsan İnkişafı İndeksi |
| **İHƏY** | İnsan Hüquqlarına Əsaslanan Yanaşma |
| **ƏİBK** | Əhali və İnkişaf üzrə Beynəlxalq Konfrans |
| **MK** | Məcburi köçkün |
| **İFAD** | Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond |
| **BƏT** | Beynəlxalq Əmək Təşkilatı |
| **BVF** | Beynəlxalq Valyuta Fondu |
| **BMqT** | Beynəlxalq Miqrasiya Təşkilatı |
| **M&Q** | Monitorinq və Qiymətləndirmə |
| **MİM-lər** | Minilliyin İnkişaf Məqsədləri |
| **ETSN** | Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| **XİN** | Xarici İşlər Nazirliyi |
| **DİN** | Daxili İşlər Nazirliyi |
| **KTN** | Kənd Təsərrüfatı Nazirliyi |
| **İN** | İqtisadiyyat Nazirliyi |
| **EN** | Energetika Nazirliyi |
| **FHN** | Fövqəladə Hallar Nazirliyi |
| **SN** | Səhiyyə Nazirliyi |
| **NRYTN** | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi |
| **AMİ** | Aralıq Müddət İcmalı |
| **DİMƏŞ** | Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası |
| **QİX** | Qeyri-infeksion xəstəlik |
| **QHT** | Qeyri-hökumət təşkilatı |
| **HMƏİ** | Humanitar Məsələlər üzrə Əlaqələndirmə İdarəsi |
| **BMT İHAK** | Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı |
| **EXÖ** | Ekosistem Xidmətləri üçün Ödəniş |
| **PİQ** | Proqram İdarəetmə Qrupu |
| **DƏSİ** | Dördillik Əhatəli Siyasi İcmal |
| **NƏİ** | Nəticələrə əsaslanan idarəçilik |
| **MƏİ** | Məktəb əsaslı idarəçilik |
| **DİM-lər** | Dayanıqlı İnkişaf Məqsədləri |
| **UNAPF** | BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi sənədi |
| **BMTÖİH** | Birləşmiş Millətlər Təşkilatının Ölkə üzrə İdarə Heyəti |
| **BMTTİK** | Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf üzrə Konfransı |
| **BMTİYÇ** | Birləşmiş Millətlər Təşkilatının İnkişafa Yardım üzrə Çərçivə Sənədi |
| **BMTİP** | Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı |
| **UNECE** | Birləşmiş Millətlər Təşkilatının Avropa üzrə İqtisadi Komissiyası |
| **UNEP** | Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı |
| **UNESCAP** | Birləşmiş Millətlər Təşkilatının Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyası |
| **UNESCO** | Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Təşkilatı |
| **UNFPA** | Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu |
| **UN-Habitat** | Birləşmiş Millətlər Təşkilatının Yaşayış Məntəqələri üzrə Proqramı |
| **BMTQAK** | Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı |
| **UNİCEF** | Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu |
| **UNİDO** | Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı |
| **UNODC** | Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi |
| **UNOPS** | Birləşmiş Millətlər Təşkilatının Layihə Xidmətləri İdarəsi |
| **BMTDİƏÇ** | BMT-nin Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi |
| **UNV** | BMT-nin Könüllülər Proqramı |
| **BMTGBQSQ** | Birləşmiş Millətlər Təşkilatının Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Artırılması Qurumu |
| **UDİ** | Universal Dövri İcmal |
| **DB** | Dünya Bankı |
| **ÜƏP** | Ümumdünya Ərzaq Proqramı |
| **ÜST** | Ümumdünya Səhiyyə Təşkilatı |
| **ÜTT** | Ümumdünya Ticarət Təşkilatı |

# ÖN SÖZ





Azərbaycan Hökuməti və BMT-nin Azərbaycandakı Ölkə üzrə İdarə Heyəti (BMTÖİH) adından, BMT-nin Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədini (BMTDİƏÇ) təqdim etməkdən məmnunluq hissi duyuruq. Sənəd Hökumətin 2021-2025-ci illər üzrə müəyyən edilmiş strateji inkişaf prioritetləri ilə uzlaşır və 2030-cu il Gündəliyinin icrasına dəstək olaraq Dayanıqlı İnkişaf Məqsədlərinə və onların müvafiq hədəflərinə nail olma ilə birbaşa əlaqəlidir.

BMTDİƏÇ sənədi iqtisadiyyat naziri və BMT-nin rezident əlaqələndiricisinin rəhbərlik etdiyi inklüziv və birgə iştirak prosesi və aydın müəyyənləşdirilmiş yol xəritəsindən istifadə etməklə hazırlanmışdır. Bu proses daha əvvəlki "2016-2020-ci illər üçün BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi" sənədi (BMTATÇ) üzrə qiymətləndirmə və BMT tərəfindən Ölkə üzrə Ümumi Təhlilin (ÖÜT) həyata keçirilməsi, həmçinin Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədləri (DİM) və digər beynəlxalq öhdəliklərə nail olma istiqamətində əldə etdiyi irəliləyişin qiymətləndirilməsi ilə başlamışdır. 2020-ci ilin yanvar ayında Bakı şəhərində Hökumət və BMT tərəfindən BMT-nin rezident və qeyri-rezident təşkilatları, Hökumət, vətəndaş cəmiyyəti, özəl sektor, akademik dairələr və beynəlxalq inkişaf tərəfdaşlarının iştirakı ilə Strateji Prioritetləşdirmə Seminarının (SPS) keçirilməsi bu prosesin zirvə nöqtəsini təşkil etmişdir. Seminarda aparılmış məsləhətləşmələr BMT-nin Ölkə üzrə İdarə Heyətinin müqayisəli üstünlüklərinin müəyyən edilməsinə və yüksək prioritet daşıyan sahə və nəticələrin seçilməsinə yönəlmişdir. BMTATÇ sənədi (2016-2020) üzrə qiymətləndirmənin, Ölkə üzrə Ümumi Təhlilin nəticələrindən xəbərdar olaraq və bir neçə ilkin vəziyyət göstəricilərinə, o cümlədən Azərbaycanın insan hüquqları ilə bağlı öhdəliklərinə və milliləşdirilmiş DİM hədəflərinə əsaslanaraq bu inkişaf strategiyası ərsəyə gətirilmişdir.

İnsanlara, davamlı həll yollarına və cəmiyyətin ən həssas qruplarının ehtiyaclarını qarşılayan institutlara investisiya bu strategiyanın dayaq sütununu təşkil edir. Sənədin hazırlanmasında tətbiq edilmiş yanaşmanın təməl prinsiplərini heç kəsin kənarda qalmaması və insan hüquqlarına əsaslanan inkişaf yanaşmasının tətbiqi təşkil edir. Bu isə insan kapitalının inkişafına əsaslanan gündəliyin formalaşdırılması ilə bağlı öhdəliyimizi əks etdirir. Bununla yanaşı, inklüziv artıma və təkmilləşdirilmiş dövlət xidmətlərinin təmin edilməsinə investisiyadan əlavə, BMTDİƏÇ əsasən çoxsahəli hesab edilən gender bərabərliyi, ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizə məsələlərini bu investisiyanın diqqət mərkəzinə çevirir.

Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi zərurətini nəzərə aldıqda, yalnız insan potensialını üzə çıxaran və həqiqətən də bərabərliyə əsaslanan bir proses iqtisadi keçidin başa çatmasına imkan verə bilər. Bundan əlavə, iqlim dəyişikliyi və ətraf mühitə qarşı təhdidlər ekosistemə zərbə vurmaq və cəmiyyətin təməl quruluşuna mənfi təsir göstərmək riski daşıdığından, iqlim və ətraf mühitin mühafizəsi BMTDİƏÇ-in diqqət mərkəzində dayanır.

Gender bərabərliyi, inklüziv artım, keyfiyyətli təhsil, ictimai səhiyyə və ədliyyə sistemləri, ətraf mühitin mühafizəsi və insan kapitalının inkişafının sürətləndirilməsinə investisiyalar Ölkə üzrə Ümumi Təhlilin müəyyən etdiyi məhdudiyyətlərin aradan qaldırılması üçün başlıca vasitələrdir. Bu çərçivənin əsasında Azərbaycanın qoşulduğu sazişlərə əsasən üzərinə götürdüyü beynəlxalq öhdəliklərdən irəli gələn ilkin vəziyyət göstəriciləri dayanır. Bu ilkin vəziyyət göstəriciləri təsirlərin qiymətləndirilməsini də ehtiva edən monitorinq və qiymətləndirmə sisteminin köməyi ilə, məhsul və nəticələrin əldə olunmasındakı irəliləyişi ölçməyə kömək edəcək.

Növbəti beş il ərzində BMT sistemi sosial-iqtisadi və səhiyyə ilə bağlı sarsıntıların idarə edilməsi və yumşaldılması üçün transformasiyanı sürətləndirmək məqsədilə, Hökumət və digər maraqlı tərəflərlə yaxından əməkdaşlıq edəcək. Bu baxımdan, birbaşa koronavirus (COVID-19) pandemiyasına yönələn davamlı makroiqtisadi, tibbi və sosial-iqtisadi qiymətləndirmə BMTDİƏÇ üçün mühüm istinad nöqtəsini təmin edir.

Bu çərçivə sənədi Azərbaycandakı BMT sisteminin hazırladığı beşinci əməkdaşlıq çərçivəsini təşkil etdiyindən, əvvəlki proqramlar və icra fəaliyyətlərindən çıxarılmış əsas nəticə və dərslər bu sənəddə nəzərə alınmışdır. Bu baxımdan, proqram yanaşması əsasında vahid BMT ailəsi kimi fəaliyyət, daha az prioritetin ön plana çəkilməsi və BMT-nin mübahisəsiz müqayisəli üstünlüklərinin olduğu sahələrdəki praktiki həll yollarına istiqamətlənmə xüsusi qeyd edilməlidir. Bundan əlavə, əməkdaşlıq çərçivəsinin icrası zamanı BMT sisteminin birgə və kompleks proqramlaşdırması və inkişaf nəticələrinin əldə olunmasında tam hesabatlılıq və şəffaflığın qəbuluna əsaslanan BMT inkişaf sisteminin islahatı rəhbər tutulacaq.

Hökumət və Azərbaycandakı BMT sistemi, bununla Azərbaycanda, regionda və qlobal səviyyədə dayanıqlı insan inkişafının təşviqini öhdəsinə götürən və cavabdehliyin, inklüzivliyin, hesabatlılığın və şəffaflığın təşviqini davam etdirməyə hazır olan bütün milli və beynəlxalq maraqlı tərəflərlə əməkdaşlıq şəraitində və birlikdə hərəkət edir. Bu çərçivə gələcəyi doğru şəkildə maliyyələşdirmək və 2030-cu ilədək növbəti beş il üçün təməl yaratmaq üçün əlverişli fürsət yaradır.

Biz BMTDİƏÇ sənədinin yalnız dayanıqlı inkişaf sahəsində yeni tərəfdaşlıqların qurulmasına töhfə verməsini deyil, həm də gələcək sosial-iqtisadi uğurların tramplini və yenilikçiliyin mühərriki kimi, insan kapitalının daha böyük potensialından yararlanmasını təmin etmək öhdəliyinə sadiq qalırıq. Bu nəticələrə nail olunduqda, onlar Azərbaycanın milli, regional və qlobal tərəqqiyə bərabər səviyyədə töhfə verə biləcək daha inklüziv və bərabərliyə əsaslan cəmiyyət qurmaq məqsədinə təkan verəcək.

# İMZA SƏHİFƏSİ

2021-2025-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi (BMTDİƏÇ) Hökumət, Azərbaycan Respublikasında Birləşmiş Millətlər Təşkilatının İnkişaf Sisteminin inkişaf məsələləri ilə məşğul olan tərəfdaşları və digər həmkarlar, o cümlədən qeyri-rezident qurumlarla geniş və əhatəli məsləhətləşmələr əsasında hazırlanmışdır.

Bu sənədi imzalamaqla iştirakçı tərəflər BMTDİƏÇ-ni təsdiqləyirlər.

**Azərbaycan Respublikasının Hökuməti**

**Mikayıl Cabbarov**

Azərbaycan Respublikasının
iqtisadiyyat naziri

**Birləşmiş Millətlər Təşkilatının Ölkə üzrə İdarə Heyəti**

**Qulam M. İshaqzai**

BMT-nin Azərbaycan Respublikasındakı
rezident əlaqələndiricisi

Aşağıdakı BMT qurumları öz imzaları ilə 2021-2025-ci illər üçün "Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi"nin prioritetlərinə və əməkdaşlıq nəticələrinə ortaq öhdəliklərini ifadə edirlər.

**FAO**
**Mələk Çakmak**
Ofisin rəhbəri

---

**BƏT**
**Olqa Koulayeva**
Direktor

---

**BMqT**
**Vladimir Georgiyev**
Missiya rəhbəri

---

**BMT İHAK**
**Jose Mariya Aranaz**
Amerika, Avropa və Mərkəzi Asiya üzrə regional şöbənin rəhbəri

---

**BMTİP**
**Alessandro Frakassetti**
Rezident Nümayəndə

---

**FRA**
**Oktaviyan Bivol**
Avropa üzrə regional ofisin rəhbəri

---

**UNECE**
**Nikolas Das-Baron**
Layihənin idarə olunması üzrə məsul şəxs

---

**UNESCO**
**Krista Pikkat**
Almatı ofisinin rəhbəri

| | | |
|---|---|---|
| UNFPA | UNFPA<br>**Fərid Babayev**<br>Ofisin rəhbəri | |
| UN-HABITAT FOR A BETTER URBAN FUTURE | UN-Habitat<br>**Rafael Tuts**<br>Qlobal həll şöbəsinin rəhbəri | |
| UNHCR The UN Refugee Agency | BMTQAK<br>**Quido Ambroso**<br>Nümayəndə | |
| unicef | UNICEF<br>**Edvard Karvardin**<br>Nümayəndə | |
| UNIDO UNITED NATIONS INDUSTRIAL DEVELOPMENT ORGANIZATION | UNIDO<br>**Ciyonq Zu**<br>İdarəetmə direktoru | |
| UNODC | UNODC<br>**Aşita Mital**<br>Mərkəzi Asiya regionu üzrə ofisin nümayəndəsi | |
| UNOPS | UNOPS<br>**Moin Karim**<br>Avropa və Mərkəzi Asiya üzrə regional direktor | |
| UN VOLUNTEERS | UNV<br>**Alessandro Frakassetti**<br>BMTİP-in rezident nümayəndəsi | |
| UN WOMEN United Nations Entity for Gender Equality and the Empowerment of Women | UN Women<br>**Alia El-Yassir**<br>Avropa və Mərkəzi Asiya üzrə regional direktor | |
| World Health Organization | ÜST<br>**Handə Harmancı**<br>Ölkə ofisinin rəhbəri | |




# XÜLASƏ

BMT-nin Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi (BMTDİƏÇ) Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyinin (2030-cu il Gündəliyi) icrasına dəstək olaraq BMT-nin Azərbaycandakı inkişaf fəaliyyətlərinin planlaşdırılması və icrası üçün ən önəmli alət hesab olunur.

BMTDİƏÇ, BMT-nin Ölkə üzrə İdarə Heyətinin (BMTÖİH) və Azərbaycan Hökuməti ilə 2021-2025-ci illər üçün gələcəyə strateji baxış və əməkdaşlıq istiqamətini müəyyən edir. O, Hökumət, BMTÖİH və onun milli və beynəlxalq tərəfdaşları arasında məsləhətləşmə prosesinin nəticəsidir. Dayanıqlı İnkişaf Məqsədləri (DİM-lər) kontekstində BMTDİƏÇ, BMT sisteminin müqayisəli üstünlüklərindən milli prioritetlərə ən yaxşı şəkildə dəstək üçün istifadə yollarını və BMT-nin fəaliyyətlərinin ölkənin strateji baxışına uyğunlaşdırılmasını nəzərdən keçirir. BMTDİƏÇ həm də BMTÖİH-nin bütün tərəfdaşları üçün mühüm istinad mənbəyi kimi, prioritet fəaliyyət sahələrinin, müvafiq dəyişiklik nəzəriyyələrinin və BMT sisteminin iştirakının gözlənilən nəticələrinin aydın təsvirini təmin edir.

İnkişaf planlaşdırması qarşısında duran hazırkı çağırışlar, o cümlədən COVID-19 virusunun qlobal təhdidə çevrilməsi və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində bərpa ehtiyacları kontekstində, BMTDİƏÇ məqsədli şəkildə gələcəyə yönəlir.

2016-2020-ci illər üçün BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (BMTATÇ) sənədinin rəhbər tutduğu "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının başa çatmasının ardınca, BMTDİƏÇ sənədi milli iqtisadiyyat üzrə yeni – 2030-cu ilədək dövrü əhatə edən gələcəyə baxış və dayanıqlı inkişaf üzrə 2030-cu il Gündəliyinə uyğunlaşmaq və onlara töhfə vermək üçün Hökumət və tərəfdaşlarla yaxından əməkdaşlıq şəraitində tərtib olunmuşdur. Bu, hədəf DİM-lərə nail olunmasında BMT sisteminin rolunu müəyyən edir və vəsaitlərin ayrılmasından maliyyələşdirməyə keçid prinsipinə uyğun şəkildə fəaliyyət göstərməyin yeni üsullarını təqdim edir. Başlıcası, bu sənəd Ölkə üzrə Ümumi Təhlilin (ÖÜT) nəticələrini əsas götürür. Belə ki, ÖÜT cəmiyyətdə ən həssas qrupların müdafiəsi və onların insan hüquqlarının həyata keçirilməsi yolu ilə, inkişaf sahəsində əməkdaşlığın iqtisadi sarsıntılara qarşı dayanıqlılığı gücləndirməsini təmin etmək zərurətini vurğulayır. Beləliklə, BMTDİƏÇ Azərbaycanın sektoryönümlü deyil, insanyönümlü yanaşmadan istifadə edərək 2030-cu il Gündəliyinin icrasının planauyğun surətdə həyata keçirilməsi üçün yol xəritəsini təklif edir.

Bu yanaşma BMT sisteminin həm rezident, həm də qeyri-rezident təşkilatların Hökumət və milli tərəfdaşlarla iş tərzində əsaslı dəyişikliyi ehtiva edir. 2030-cu il Gündəliyinin məqsədini və icrasının təcili xarakterini nəzərə alaraq, BMTDİƏÇ ən çox diqqət yönəldilməli sahələri müəyyən edir və BMT-nin təsirini maksimuma çatdıra biləcək az sayda prioritetləri ön plana çəkir. O, bütün proqram dövrünü istiqamətləndirir, habelə 2030-cu il Gündəliyinə nail olmaq üçün BMT-nin ümumi dəstəyinin gələcək planlaşdırılması, monitorinqi, hesabatı və qiymətləndirilməsini tənzimləyir. O, həm BMT sisteminin töhfələrini müəyyənləşdirir və əks etdirir, həm də aşağıdakı dörd strateji prioritet sahəni əhatə etmək üçün tələb olunan BMT aktivlərinin təşkilini formalaşdırır:

**1-Cİ PRİORİTET SAHƏ:** HƏSSASLIĞI AZALDAN VƏ DAYANIQLILIĞI TƏMİN EDƏN İNKLÜZİV ARTIM;

**2-Cİ PRİORİTET SAHƏ:** DÖVLƏT VƏ SOSİAL XİDMƏTLƏRİN DAHA YAXŞI GÖSTƏRİLMƏSİ ÜÇÜN DAHA GÜCLÜ İNSTİTUTLAR;

**3-CÜ PRİORİTET SAHƏ:** ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ İQLİM DƏYİŞİKLİYİ İLƏ MÜBARİZƏ; VƏ

**4-CÜ PRİORİTET SAHƏ:** QADIN VƏ QIZLARIN SƏLAHİYYƏTLƏRİNİ ARTIRAN VƏ GENDER BƏRABƏRLİYİNƏ ƏSASLANAN CƏMİYYƏT

Bu prioritet sahələrin hər birində “Heç kəsi kənarda qoymamaq” və “İnsan hüquqlarına əsaslanan yanaşma” prinsipləri diqqət mərkəzindədir. Məqsəd kənarda qalanların və ya belə bir risklə üzləşənlərin səlahiyyətlərini artırmaq, inklüziv və proqressiv DİM siyasətləri qəbul etməkdir. Çərçivə sənədi həssas əhali qruplarının ayrı-seçkiliyə məruz qalmasının səbəblərini müəyyənləşdirməklə, fəaliyyətini “Heç kimi kənarda qoymamaq” və “İnsan hüquqlarına əsaslanan yanaşma” prinsipləri üzərində qurur. Ayrı-seçkilik səbəbləri Ölkə üzrə Ümumi Təhlil (ÖÜT) əsasında təsbit edilib və əhalinin yaşayış yeri, sosial-iqtisadi vəziyyəti, idarəçilik sisteminə çıxışı və sarsıntılara dözümlülüyü kimi faktorlardan asılıdır. COVID-19 pandemiyasının uzunmüddətli mənfi təsirlərini və Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun ətrafında baş vermiş münaqişənin dağıdıcı nəticələrini nəzərə alaraq davamlılığa və təkmilləşdirilmiş xidmət təminatı modellərinin qurulmasına (məsələn, daha güclü birbaşa xidmətlər, elektronlaşma və müalicəvi xidmətdən profilaktik xidmətə keçid) xüsusi diqqət yetirilir.

Ölkənin bu hadisələrdən sonra dirçəldiyi bir vaxtda stabil makroiqtisadi artımın qorunub saxlanılmasının vacibliyini nəzərə alaraq Hökumət e-idarəçilik, telekommunikasiya və aqrobiznes kimi sektorlar üzrə şaxələndirmə vasitəsilə neftdən asılılığı azaltmaqda qətiyyətlidir və buna görə də özəl sektoru gələcək artımın mühərriki kimi görür. BMTÖİH bu şaxələndirmə gündəliyini dəstəkləyir, lakin inklüziv artımın təmin edilməsi üçün innovativ siyasətlərin tətbiqinin, o cümlədən dövlət siyasətlərinin və bazar qüvvələrinin təcrid olunmuş fərd və qruplara hansı səbəbdən tam dəstək göstərə bilməməsi ehtimalını da dərindən öyrənməyin vacibliyindən xəbərdardır.

**1-ci prioritet sahə** əsas diqqəti həssaslığı azaltmaq və daha möhkəm bazarlar, icmalar və ev təsərrüfatları formalaşdırmaq üçün inklüziv artım gündəliyinin gücləndirilməsinə yetirir. 2025-ci ilədək, kənarda qalan şəxslər əmək bazarının gələcək yönümlü transformasiyasını və layiqli əməyə çıxış imkanını əhatə edən şaxələndirilmiş və innovativ iqtisadiyyatda iştirak edəcək və ondan yararlanacaq. Burada məqsəd iqtisadi iştirak və işləmək hüququnu həyata keçirmək üçün bərabər imkanları artırmaqdır - bu proses cəmiyyətin hər bir təbəqəsi üçün faydalı nəticələr verəcək. Bu prioritet sahəyə investisiya artımın makroiqtisadi və mikroiqtisadi müəyyənedici faktorlarına istinad etməklə, kənd təsərrüfatı və digər dəyər zəncirləri boyunca mikro, kiçik və orta müəssisələrə (MKOM) xüsusi diqqət yetirilməsini, eləcə də bərabərliyə əsaslanan əmək bazarları üçün şəraitin yaxşılaşdırılmasını nəzərdə tutur.

**2-ci prioritet sahənin** məqsədi hökumətə dövlət və sosial xidmətlər (o cümlədən təhsil, səhiyyə, informasiya və ədalət mühakiməsinə çıxış) sahəsində daha güclü institutların qurulmasına dəstək göstərməkdir. 2025-ci ilədək, kənarda qalan şəxslər gücləndirilmiş milli potensial və idarəçilik strukturlarından, bu sahələrdə xidmətlərin əlçatanlığının və keyfiyyətinin artırılmasından faydalanacaqlar. Azərbaycanın insan hüquqları ilə bağlı beynəlxalq öhdəliklərinə əsaslanaraq birbaşa xidmətləri yaxşılaşdıran, coğrafi (şəhər/kənd) və gender əsaslı bərabərsizlikləri aradan qaldıran, rəqəmsallaşmanı dəstəkləyən, mərkəzləşdirilməmiş xidmət təminatını ön plana çəkən və vətəndaş cəmiyyətini cəlb edən siyasət dəyişikliyinə nail olmaq üçün yollar tədqiq olunur. Bu siyasət dəyişikliklərinin heç kəsin kənarda qalmadığına dair dəlillərlə dəstəkləndiyindən əmin olmaq üçün, bu prioritet sahə cəmiyyətin ən həssas qruplarının aşkar edilib hədəf alınması üçün milli potensialın gücləndirilməsinə ehtiyac olduğunu vurğulayır. Beləliklə, 2025-ci ilədək, heç kəsi kənarda qoymayan qərarların qəbulu və siyasətlərin hazırlanmasında istifadə üçün keyfiyyətli, dezaqreqasiya olunmuş və vaxtında verilən məlumatlar mövcud olacaq və onlardan səmərəli istifadə ediləcək.

**3-cü prioritet sahə** enerji keçidini enerji təhlükəsizliyi, iqtisadi inkişaf və ətraf mühitin mühafizəsi arasında tarazlıq yaradan bir alət kimi qəbul edərək ətraf mühit amillərini nəzərə alan iqtisadi dirçəlişi təşviq edir. İqlim dəyişikliyinin su mənbələrinə təsiri daha qabarıq müşahidə edildiyi üçün ətraf mühitin, xüsusilə su mənbələrinin mühafizəsi, əhalinin içməli su təchizatının yaxşılaşdırılması və tullantı sularının idarə olunması istiqamətlərində dayanıqlılığın təmin edilməsi qida və sağlamlıq sahələrində əsas müddəa olaraq nəzərə alınır.

COVID-19 pandemiyası və 2020-ci ildəki hərbi əməliyyatların başlanmasına qədər ətraf mühitin çirklənməsi və iqlim dəyişikliyinin təsiri artıq su, enerji, ərzaq və səhiyyə sahələrinə dərindən təsir göstərmiş, dayanıqlılığı zəiflətmiş və sarsıntılara qarşı həssaslığı artırmışdı. Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizəyə dair hədəflərinə çatmasını təmin etmək üçün bu böhranlardan fürsət kimi istifadə edərək həll yolu kimi, iqlim dəyişikliyinin mənfi təsirlərindən ən çox zərər çəkən şəxslərə fayda verəcək "yaşıl bərpa" və daha yaxşı yenidənqurma təklif olunur. Uzunmüddətli hədəf 2030-cu ilədək, elektrik enerjisinin qoyuluş gücündə bərpa olunan enerjinin payını 30%-ə çatdırmaqdır. Ortamüddətli perspektivdə isə, 2025-ci ilədək, bütün şəxslərin, xüsusilə ən kənarda qalanların təbii sərvətlərin dayanıqlı şəkildə idarə olunmasını, yaşayış üçün vasitələrin qorunmasını və dayanıqlılığın artırılmasını təmin edən iqlim strategiyaları və ətraf mühitin mühafizəsi üzrə siyasətlərdən faydalanacağı nəzərdə tutulur.

**4-cü prioritet sahə** siyasi, iqtisadi və sosial sahələrdə qadın və qızların səlahiyyətlərini artıran və gender bərabərliyinə əsaslanan cəmiyyətə yönəlir. Bütün prioritet sahələrdə gender aspektləri nəzərə alınsa da, BMTDİƏÇ təklif edir ki, bərabərsizliyin təməl səbəblərini aradan qaldırmaq, qadın və qızların onların həyatlarına təsir edən qərarların qəbulunda iştirakını yaxşılaşdırmaq üçün siyasətlərdə və praktikada konkret dəyişikliklərə səy göstərilməlidir. Bununla yanaşı, bütün DİM-lərə nail olmaq üçün gender zorakılığının aradan qaldırılmasının ilkin şərt kimi qəbul edilməsinə səy göstərilməlidir. Çünki bu, dayanıqlı inkişafla bağlı təməl münasibətlərə, qərarlara və təcrübələrə təsir göstərir. 2025-ci ilədək, qadın və qızlar onların ayrı-seçkilik və zorakılıqdan qorunmasını təmin edən və həyatın bütün sahələrində iştirak üçün səlahiyyətlərini artıran gücləndirilmiş milli mexanizmlərdən faydalanacaq.

Bu prioritet nəticələrə nail olmaq məqsədilə və BMT-nin potensialın inkişaf etdirilməsindən ibarət əsas mandatına uyğun olaraq, bütün prioritet sahələr aşağıdakı ilkin şərtləri tələb edir: 1) dəlillərə əsaslanan dövlət qərarlarının qəbuluna investisiya; 2)daha məsuliyyətli dövlət siyasəti dialoqu; 3) birbaşa xidmətlərə investisiyanın sürətləndirilməsi; 4) özəl sektorla əlaqələrin təkmilləşdirilməsi; 5) milli inkişaf strategiyalarına dəstək göstərən kompleks milli maliyyələşdirmə çərçivələri; 6) əlçatanlığı və səmərəliliyi yaxşılaşdırmaq üçün rəqəmsallaşma və avtomatlaşdırma; 7) başqa vasitələrlə yanaşı, qadınlar, gənclər, əlilliyi olan şəxslər və münaqişələr nəticəsində məcburi köçkünə çevrilmiş şəxsləri diqqət mərkəzində saxlamaqla mədəniyyətlərarası dialoq vasitəsilə, sosial inklüzivliyi təmin etməyə yönələn səylər.

"Vahid BMT qismində icra" öhdəliyi bu çərçivənin dayaq sütunudur. Onun əsasında, səlahiyyətləri artırılmış rezident əlaqələndirici və BMTÖİH milli innovasiya və adaptasiya strategiyalarına tam uyğun olan yeni iş metodlarından istifadə edəcəklər. İnsanyönümlü yanaşma nəticələrin və icra göstəricilərinin hər hansı təşkilat və ya mandat üzrə deyil, insan rifahını artıran və iqtisadi miqyas effekti yaradan müştərək nailiyyətlər olmasını təmin edir. Nəticələr bu qrupların münaqişənin şiddətlənə biləcəyi dövrlərdə çətinliklərin öhdəsindən daha yaxşı gəlməsinə kömək edən sosial və iqtisadi vasitələrlə gücləndirilməsi məqsədi ilə də hazırlanır. Buna görə də, BMTÖİH üzvləri birgə proqramlaşdırma və qurumlararası əməkdaşlığın artırılması yolu ilə səmərəli dəstək göstərmək üçün proqram əsaslı əməkdaşlıq edəcəklər. Pandemiya və ya digər fövqəladə hadisələrdən qaynaqlanan gələcək iqtisadi sarsıntıları nəzərə alaraq strategiya həm də xərc-keyfiyyət əlaqəsi baxımından əsaslı investisiya və qabaqcıl təcrübə modelləri təqdim etməklə, Azərbaycana yalnız 2020-ci ilin maliyyə böhranından dirçəlmək deyil, həm də böhrandan irəli gələn yeni islahat imkanlarını təsbit edərək irəli addımlar atmağa imkan vermək məqsədini daşıyır.

# ÖHDƏLİK BƏYANATI

Azərbaycan Respublikasında inklüziv, bərabər və dayanıqlı inkişafa dəstək olaraq Hökumət və BMT-nin Ölkə üzrə İdarə Heyəti (BMTÖİH) Dayanıqlı İnkişaf Məqsədlərinin icrasına dəstək üçün birlikdə yaxından əməkdaşlıq etməyi öhdəsinə götürür. Dörd prioritet sahə üzrə beş nəticəyə nail olmaq məqsədilə, bu çərçivə sənədinin tərəfləri milli tərəfdaşlar, beynəlxalq inkişaf tərəfdaşları, vətəndaş cəmiyyəti, özəl sektor, beynəlxalq maliyyə institutları, akademik dairələr və digər maraqlı tərəflərlə əməkdaşlıq edəcək. Bu çərçivə əsasında, BMT-nin Azərbaycan Respublikasının bütün rayon və ərazilərindəki bütün fəaliyyət, proqram və layihələri BMT sisteminin Azərbaycandakı nümayəndəlikləri tərəfindən Azərbaycan Hökumətini təmsil edən müvafiq tərəfdaş qurumlarla tam şəkildə əlaqələndiriləcək, razılaşdırılacaq və icra ediləcək. Onlar Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində onun suverenliyinə, ərazi bütövlüyünə və müstəqilliyinə tam hörmət şəraitində və BMT-nin Nizamnaməsinə, BMT-nin Təhlükəsizlik Şurasının və Baş Assambleyasının bütün müvafiq qətnamələrinə uyğun olaraq həyata keçiriləcək.

Tərəflər milli prioritetlərə nail olunmasına dəstək üçün, yeni iş üsullarının sürətləndirilməsinə, proqramların tərtibində uzlaşmanın və dəlillərin artırılmasına, milli və müstəqil monitorinq və qiymətləndirmə sistemləri vasitəsilə nəticələrin izlənilməsinin təkmilləşdirilməsinə imkan verən daha yaxın münasibətlər saxlamağı qəbul edir. Bizim heç kəsi kənarda qoymamaq öhdəliyimiz inklüziv artım və bərabər çıxış imkanlarının təmin edilməsi zərurətini nəzərə alaraq dəstəyin nəzərdən keçirildiyi və hədəfləndiyi dəyərlər sisteminin əsasını təşkil edir. Bütün şəxslərin, o cümlədən çoxsaylı həssas əhali qruplarının, qaçqın və məcburi köçkünlərin, qız və oğlanların, qadın və kişilərin həyat keyfiyyətinin yüksəldilməsi, eləcə də həyatı yaxşılaşdıran təməl ekosistem bu çərçivənin mərkəzində yer alır.

DİM-lərin iddialı, çoxsahəli və daha geniş miqyasa malik olduğunu və 2030-cu il Gündəliyinin maliyyələşdirilməsinə kompleks yanaşma sərgiləməyə çağıran Əddis-Əbəbə Fəaliyyət Gündəliyini nəzərə alaraq vəsaitlərin ayrılmasından maliyyələşdirməyə keçid yeni iş üsulunun mərkəzi elementinə çevrilir. BMT-nin Ölkə üzrə İdarə Heyəti Azərbaycanda 2030-cu il Gündəliyinin icrasında öz funksiyasını icra etmək üçün ardıcıl, vahid, səmərəli, effektiv, məsuliyyətli, şəffaf və nəticəyönümlü yanaşma əsasında fəaliyyət göstərməyi öhdəsinə götürür.

Bu müqavilənin tərəfləri 2025-ci ilədək nəticələr üzrə hədəfləri reallaşdırmaq məqsədilə, resursların cəlb olunma bazasının şaxələndirilməsi ilə bağlı ənənəvi və innovativ yanaşmalara xüsusi diqqət yetirilməsini ehtiva edən adekvat və proqnozlaşdırıla bilən maliyyələşdirmə tətbiq etməyə razılaşır. Nəticədə, prioritet sahələr üzrə xərc bölgüsünə dövlət və özəl maliyyələşmə mənbələri daxil olacaq və geniş spektrli potensial əsas investorları (məsələn, hökumət, beynəlxalq maliyyə institutları, institusional investorlar, xeyriyyə təşkilatları və özəl kapital) əhatə edəcək. Biz beynəlxalq tərəfdaşlıq müqavilələrini və qanunları, o cümlədən Səmərəli İnkişaf Əməkdaşlığı naminə Busan Tərəfdaşlığı və BMT-nin Qlobal Sazişini rəhbər tutacağıq. Biz, həmçinin, BMT prinsiplərinə və ideallarına, o cümlədən BMT-nin qlobal islahat gündəliyində əksini tapan, təşkilatın ən çox ehtiyacı olanlar üçün səmərəli və təsirli şəkildə nəticələr əldə etmək, daha az resursla daha çox şey əldə etmək və özünün çevikliyini və hesabatlılığını artırmaq qabiliyyətinin gücləndirilməsini dəstəkləyən prinsip və ideallara əməl edəcək və sadiq qalacağıq.



# **BÖLMƏ 1:** 2030-CU İL GÜNDƏLİYİNİN İCRASINDA ÖLKƏNİN ƏLDƏ ETDİYİ İRƏLİLƏYİŞ

**Fotolar :** BMT Azərbaycan Arxivləri

Bu sənəd 2021-2025-ci illər üçün BMT və Azərbaycan Respublikasının Hökuməti arasında BMT-nin Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə (BMTDİƏÇ) Sənədi kimi çıxış edir. Sənəddə Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyinin məqsədlərinə nail olunmasına, insan hüquqlarının müdafiəsinə və heç kəsin kənarda qalmamasına birbaşa diqqət yetirilməklə, BMT-nin ixtisaslaşmış təşkilatları arasında daha dərin əməkdaşlığa və onların fəaliyyət səmərəliliyinin artmasına zəmin yaradılır. Bu sənəd, həmçinin Hökumətin bərabərsizliklərin aradan qaldırılması, ayrı-seçkiliklə mübarizə və kənarda qalan insanlar üçün irəliləyişin sürətləndirilməsi istiqamətində göstərdiyi səylərə töhfə vermək üçün birbaşa tədbirlər nəzərdə tutur.

Bu çərçivə sənədi Hökumətin 2030-cu ilədək dövrü əhatə edən yeni milli inkişaf mərhələsinə qədəm qoymağa hazırlaşdığı, eyni zamanda koronavirus (COVID-19) pandemiyasının mənfi sosial-iqtisadi təsirlərini və Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun ətrafında baş vermiş münaqişənin dağıdıcı nəticələrini aradan qaldırmaq üçün tədbirlər gördüyü həlledici bir vaxtda ərsəyə gəlir. Beləliklə, çərçivə sənədi bu təlatümlü kontekstdə DİM-lərə nail olmağa yönələn əsas milli prioritetlərə və çağırışlara köklənir. Bu məqsədlə sənəddə BMT-nin inkişaf, insan hüquqları, humanitar yardım, sülh və təhlükəsizlik sahələrindəki müxtəlif təşkilatlarının təlimat v ə baxışlarının sintezindən istifadə edilir. Tədbirlərin prioritetləşdirilməsi və dəyişiklik nəzəriyyəsi Ölkə üzrə Ümumi Təhlil (ÖÜT) vasitəsilə əldə olunan dəlillər əsasında formalaşdırılmışdır. Strateji prioritetlər 16-17 yanvar 2020-ci il tarixlərində Bakıda keçirilən milli Strateji Prioritetləşdirmə Seminarında müəyyən edilmişdir. Bu proses DİM-lərə nail olma ilə bağlı prioritetləri, problemləri və boşluqları müəyyənləşdirməyə kömək etmişdir. Çərçivə BMT-nin bütün qurumlarının, Azərbaycan Hökumətinin, inkişafı maliyyələşdirən təşkilatların, institusional investorların, özəl sektorun və vətəndaş cəmiyyətinin müqayisəli üstünlüklərini bir araya gətirməklə bu boşluqların aradan qaldırılmasını nəzərdə tutur.

Azərbaycanın 2030-cu il Gündəliyi və Dayanıqlı İnkişaf Məqsədlərinə nailolma istiqamətində nəzərəçarpan irəliləyişə nail olması gözlənilsə də, inkişafla bağlı çətinliklər hələ də qalır. Bura, maliyyə resursları və ixrac baxımından neftdən asılılıq, regionlar, şəhər və kənd icmaları arasında gender, sosial-iqtisadi və coğrafi baxımdan bərabərsizliklərin qalması, kənd təsərrüfatı, təhsil, səhiyyə və ədliyyə sahələrində keyfiyyətli xidmətlərə çıxış baxımından çətinliklərin mövcudluğu, demoqrafik çətinliklər, əmək bazarı ilə bağlı çətinliklər, ətraf mühit və ekosistemin mühafizəsinə qarşı təhdidlər daxildir. Qarşıdakı onilliyin eyni dərəcədə həm ümid, həm də qeyri-müəyyənliklə dolu olduğunu nəzərə alaraq, Əməkdaşlıq Çərçivəsi dəlillər və ehtimallar təqdim etməklə yanaşı, həm də tarazlığı müsbət nəticələrin xeyrinə pozmaq üçün zəruri olan risk idarəetməsi, eləcə də monitorinq və qiymətləndirmə tədbirlərini əks etdirir.

Bu konteksti nəzərə alaraq və ənənəvi iş tərzindən uzaqlaşmağa dəstək göstərmək üçün, BMT-nin Ölkə üzrə İdarə Heyəti yeni inkişaf maliyyələşdirməsi modelləri ilə yanaşı, əməkdaşlıq yönümlü iş üsullarını, məsələn dövlət-özəl tərəfdaşlığını təşviq edir. Hazırda DİM-lərin maliyyələşdirilməsinə ən böyük töhfəni Hökumət verir. Belə ki, DİM-lər üçün mövcud maliyyələşdirmənin 56%-i Hökumətin, 38%-i isə birbaşa xarici investisiyalar və özəl sektorun payına düşür.[1] Dövlət büdcəsindən əlavə, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) ətraf mühit gündəliyini proaktiv surətdə təşviqetmə öhdəliyi çərçivəsində DİM-lərə dolayı dəstək göstərir. Ötən illər ərzində, Hökumət ənənəvi sektorları müasirləşdirmək, "yaşıl" artımı təşviq etmək və dövlət maliyyələşməsinin dayanıqlılığını yaxşılaşdırmaq üçün bir sıra addımlar atmışdır. Belə ki, Əddis-Əbəbə Fəaliyyət Gündəliyinə uyğun olaraq müxtəlif maliyyə mənbələri və qeyri-maliyyə vasitələrini əhatə edən, ölkəyə məxsus maliyyələşmə çərçivələri stimullaşdırılacaq. Qrant əsaslı maliyyələşdirmədən "Maliyyə vəsaitlərinin ayrılmasından maliyyə vəsaitlərinin cəlb edilməsinə keçid" (F2F) yanaşmasına keçid də qəbul edilir, çünki bu, qısamüddətli düşünmə tərzindən uzaqlaşmağa kömək edəcək və özəl sektorla daha güclü ittifaqlara gətirib çıxaracaq.

[1] https://www.slideshare.net/undpeuropeandcis/drr-workshop-session-61-ben-slay

## 1.1. Ölkə Konteksti

Azərbaycan siyasi cəhətdən sabit, unitar dövlətdir. Əhalisinin sayı təqribən 10 milyon nəfərdir və hər il təxminən 100 000 nəfər artır. Azərbaycan yuxarı orta gəlirli ölkələr qrupuna daxildir. Ölkədə adambaşına düşən ÜDM 4742 ABŞ dollarıdır, insan inkişafı indeksinə görə isə dünyada 88-ci yerdədir. 2020-ci ildə qlobal neft qiymətlərinin kəskin aşağı düşməsinə baxmayaraq, Azərbaycan iqtisadiyyatının neft gəlirlərindən asılılığı yüksək səviyyədə qalır. Hökumət gəlirləri şaxələndirməklə yanaşı, dövlət xərclərinin səmərəliliyinin artırılmasını qarşısına məqsəd qoymuşdur. 2020-ci ildə COVID-19 pandemiyası nəticəsində iqtisadiyyatın qapanması iqtisadi artımı sarsıtdı, maliyyə resurslarını azaltdı, işsizlik səviyyəsini artırdı, əsas dövlət və sosial xidmətlərin davamlılığına zərbə vurdu. Bununla yanaşı, Hökumətin tətbiq etdiyi nəzarət tədbirləri və yoluxma qorxusu xüsusilə turizm, ictimai iaşə və pərakəndə satış sektorlarında istehlakçıların tələbatını azaltdı. 2020-ci ilin aprel ayında 304 min nəfər muzdlu işçinin əmək haqqına dəstək, 292 min mikrosahibkarlıq subyektinə maliyyə yardımı və müxtəlif nağd pul yardımları ilə əlaqədar olaraq dövlət xərclərinin 2 milyard dollara yaxın (ÜDM-in 3%-dən yuxarı) artdığı elan edildi. Əhaliyə və sahibkarlara dəstək proqramının ikinci mərhələsi çərçivəsində 2020-ci ilin avqust ayında 234 minə yaxın işçini əhatə edən 23 min vergi ödəyicisinə 52 milyon manat vəsait ödənildi. Bundan başqa, 50 minə yaxın fərdi (mikro) sahibkara 12,5 milyon manat birdəfəlik maliyyə dəstəyi göstərilmişdir.

Sosial göstəricilərin yaxşılaşdırılması səylərinə baxmayaraq bərabərsizliklər qalır və qadınlar, gənclər, uşaqlar, əlilliyi olan şəxslər, ahıllar, qaçqınlar, məcburi köçkün icmaları, qeyri-rəsmi işçilər və kənd yerlərində yaşayan əhali bəzi sosial xidmətlərə çıxış baxımından kənarda qalmaqda davam edir. Məsələn, Gender Bərabərsizliyi İndeksi 2019-cu ildə 0,323 olmaqla, nisbətən yüksək idi. Parlamentdə qadınların xüsusi çəkisi isə aşağıdır – 16,8%.[2] Ölkə üzrə Ümumi Təhlil (ÖÜT) göstərir ki, ölkənin COVID-19 böhranının uzunmüddətli fəsadlarını aradan qaldırmağa səy göstərdiyi bir vaxtda, bu bərabərsizliklərin artması riski mövcuddur. Məsələn, karantin dövrləri qaçqınların ərzaq və gündəlik tələbat mallarına çıxış imkanını çətinləşdirir. Qeyri-rəsmi sektorda çalışan işçilər rəsmi iş yerlərində çalışanlarla müqayisədə yaşayış vasitələrinin daimi itirilməsi riski ilə daha çox üzləşir. Gender əsaslı zorakılıq mühüm narahatlıq doğuran məsələ olaraq qalır: qadın və qızların karantin müddətində təhlükəsiz yardım xidmətlərinə çıxış imkanını itirməsi riski artır. Qadın və kişilərin fərqli ehtiyaclarını, imkanlarını və mübarizə strategiyalarını müəyyənləşdirmək üçün aparılan ən yeni qiymətləndirmədə respondentlərin 10%-ə yaxını karantin zamanı qadınlara qarşı məişət zorakılığının yayılma səviyyəsində artım olduğunu bildirib. Nəticələr onu da göstərir ki, məhdudiyyət tədbirləri qadınların çiyninə düşən ödənişsiz ev işi yükünü də artırıb.[3]

Böhran başlayandan, Hökumət bilik və təcrübələrin mübadiləsi, COVID-19 testi üçün təyin olunmuş laboratoriyaların qiymətləndirilməsi kimi fəaliyyətlər çərçivəsində ÜST-ün rəhbərliyi altında BMT-nin Ölkə üzrə İdarə Heyətinin üzvləri ilə yaxından əməkdaşlıq edib. Bu, yoluxmanı nəzarət altına almaq üçün sərhəddə nəzarət tədbirləri, səyahət məhdudiyyətləri, xəstəxanaların COVID-19 xəstələrinin müalicəsi üçün ayrılması kimi sürətli və təsirli tədbirlərin həyata keçirilməsinə kömək edib. Eyni zamanda, əsas səhiyyə xidmətlərinin davam etdirilməsini, səhiyyə müəssisələrinin prioritetləşdirilməsini təmin etmək və böhranın digər xəstəliklərin idarə edilməsinə dolayı təsirinin qarşısını almaq üçün tədbirlər görülüb. Təşviqat və texniki dəstək tədbirləri əsas səhiyyə xidmətlərinin davam etdirilməsini və pandemiyanın ictimai səhiyyəyə uzunmüddətli təsirinin idarə edilməsini təmin edəcək.

[2] İnsan İnkişafı Hesabatı 2020
[3] BMTGBQSQ /UNFPA Azərbaycan (2020)

COVID-19 pandemiyası təhsil sisteminin fəaliyyətinə ağır zərbə vurub. 2020-ci ilin əksər hissəsi üçün ibtidai təhsildən ali təhsilə qədər bütün təhsil müəssisələri bağlanmışdır. Təhsil Nazirliyi təhsilin davamlılığını və dayanıqlılığını təmin etmək üçün BMT-nin ixtisaslaşmış təşkilatları və digər inkişaf tərəfdaşları ilə əməkdaşlıq şəraitində bir sıra təşəbbüslər həyata keçirdi. Bura ümumi təhsil səviyyəsində televiziya dərsləri, ölkənin ən böyük milli onlayn platforması "Virtual məktəb"in istifadəyə verilməsi, onlayn peşə təhsilinin təşkili və ali məktəblərdə "MS Teams" platformasına pulsuz çıxış imkanının yaradılması daxildir. Bu tədbirlər tələbələrin əksəriyyətinin öz təhsilini müxtəlif formatlarda davam etdirməsinə imkan verib. Buna baxmayaraq rəqəmsal fərq texnologiyaya çıxışı olmayan tələbələr üçün öyrənmə prosesinin effektivliyini azaldıb. 2020-ci il ərzində uşaqların təhsilə çıxışının qiymətləndirilməsi üçün aparılmış həftəlik monitorinq göstərir ki, sorğuya cəlb olunmuş ailələrin maksimum 70%-nin distant təhsilə davamlı çıxışı olub.

Azərbaycan son illərdə ətraf mühitin mühafizəsi sahəsində əhəmiyyətli işlər görmüşdür. Buna baxmayaraq, ekoloji tarazlığın qorunması üçün inteqrasiyalı fəaliyyət tələb olunur. COVID-19 ilə bağlı karantin dövründə böyük şəhərlərdə havanın çirklənməsində müvəqqəti azalma olsa da, yumşaltma tədbirləri sənayenin səbəb olduğu çirklənmənin davam etməsinə imkan verdi. Əsasən Volqa çayının axımının azalması nəticəsində Xəzər dənizinin səviyyəsi aşağı düşmüş, həmçinin balıq ovunun həcmi artmışdır. Azərbaycanın su ehtiyatlarının əksər hissəsi ölkədən kənarda formalaşır. İqlim dəyişmələri son illərdə su ehtiyatlarının azalmasına gətirib çıxarmışdır. Su ehtiyatlarının səmərəli idarə olunması üçün Hökumət tərəfindən təxirəsalınmaz tədbirlərin görülməsinə başlanmışdır.

Azərbaycan Respublikası eyni zamanda özünün Dağlıq Qarabağ regionu daxilində və ətrafında on illərlə davam etmiş, kütləvi məcburi köçkünlük və böyük həcmli zərərlərə səbəb olmuş münaqişənin təsirlərini aradan qaldırmaq üçün tədbirlər görməli olmuşdur. 10 noyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Rusiya Federasiyasının rəhbərləri tərəfindən bəyanat imzalandı. Bundan sonra isə Hökumət 652 mindən çox məcburi köçkünün qayıdışına hazırlıq çərçivəsində Dağlıq Qarabağ regionu və onun ətrafında münaqişədən zərər çəkmiş ərazilərin bərpası və yenidən qurulması niyyətini bəyan etdi.

Məcburi köçkünlərin ehtiyaclarını qarşılamaq, dayanıqlı yaşayış vasitələri və özünütəminetmə üçün şərait yaratmaq əsas milli prioritetlərdən biridir. Əvvəlki dövrlərdə Azərbaycan Hökuməti hərtərəfli və yetərli resurslarla təmin olunmuş yardım proqramları vasitəsilə, məcburi köçkünlərin qorunması və dəstəklənməsi məsələsi ilə bağlı tədbirlər görmüşdür. Bura qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı 34 qanunun, 118 prezident fərmanının və 416 qərarın qəbulu daxildir. Bundan əlavə, Hökumət 110 yeni qəsəbədə 315,000 məcburi köçkünün yerli inteqrasiyasına dəstək göstərmiş və bu qrupların ümumi yaşayış şəraitini və müdafiəsini yaxşılaşdırmaq üçün müxtəlif sərmayələrin qoyulmasını təşviq etmişdir.

BMTÖİH məcburi köçkünlərin öz evlərinə könüllü, təhlükəsiz və ləyaqətli şəkildə qayıdışı üçün bərpa ehtiyaclarının və şərtlərin qiymətləndirilməsində Azərbaycana dəstək göstərəcək. Qısamüddətli perspektivdə, bu icmaların çətinliklərini yüngülləşdirmək üçün BMT sistemi ilə əlaqələndirilmiş şəkildə müxtəlif humanitar yardım tədbirləri artıq həyata keçirilmişdir. Sığınacaq, su və sanitariya, ilkin səhiyyə, psixo-sosial dəstək və digər həyati əhəmiyyətli sahələrdə təxirəsalınmaz yardım tədbirləri görülmüşdür. BMTÖİH milli cavab tədbirlərini dəstəkləməyə davam edəcək. BMTÖİH həmçinin, bütün tədbirlərin digər həssas qruplarla yanaşı, məcburi köçkünlərin sosial-iqtisadi inteqrasiyasını dəstəkləməsini təmin etmək üçün bu Əməkdaşlıq Çərçivəsi sənədində və eləcə də ayrı-ayrı təşkilatlara məxsus digər proqram sənədlərində inkişaf planlaşdırmasını nəzərdən keçirmişdir.

## 1.2. Dayanıqlı İnkişafa dair Milli Gələcəyə Baxış

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası 2020-ci ilin sonunda başa çatsa da, Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi özünün 2025-ci ilədək uzunmüddətli baxışı ilə aktuallığını saxlayır. 2030-cu ilədək müddəti əhatə edən yeni gələcəyə baxış strategiyasının hazırlanması nəzərdən keçirilir. Hökumət bu niyyətini 2019-cu ildə keçirilmiş Yüksək Səviyyəli Siyasi Forumda təqdim edilmiş 2-ci Könüllü Milli Hesabatda bildirib. İqtisadiyyatın şaxələndirilməsinin ön plana çəkilməsi, məhsul istehsalında məhsuldarlığın artırılması, ev təsərrüfatlarının/milli dayanıqlılığın yaxşılaşdırılması, xidmətlərin yaxşılaşdırılması və sosial müdafiənin və ətraf mühitin mühafizəsinin gücləndirilməsi vasitəsilə, yeni gələcəyə baxışın DİM-lərə nailolmanı sürətləndirməsi gözlənilir. Hökumətin 2030-cu ilədək gələcəyə baxışında Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun ətrafında baş vermiş münaqişənin irimiqyaslı təsirlərinin aradan qaldırılmasının və inklüziv və davamlı artımın sürətləndirilməsinin də diqqət mərkəzində olacağı gözlənilir.

### 1.2.1. "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası Çərçivəsində İnvestisiya yönümlü Prioritetlər

Hökumət 2020-ci ilədək gələcəyə baxış strategiyasında aşağıda sadalanan strateji prioritetlərin yerinə yetirilməsində xeyli məsafə qət edib:

- **Yüksək rəqabətqabiliyyətli iqtisadiyyata doğru;**
- **Nəqliyyat, tranzit və logistika infrastrukturunun təkmilləşdirilməsi;**
- **Regionların tarazlı inkişafı;**
- **İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə keçidin təmin edilməsi;**
- **İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması və əmək bazarı institutları;**
- **Qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi;**
- **Vətəndaş cəmiyyətinin inkişafı;**
- **Mədəni irsin qorunması və səmərəli idarə edilməsi;**
- **Ətraf mühitin qorunması və ekologiya məsələləri.**

Eyni zamanda, iqtisadiyyatın 11 vacib sektoru üzrə strategiya təqdim edən Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi özünün 2016-2020-ci illəri əhatə edən ilk mərhələsini başa vurub və hazırda makroiqtisadi sabitliyin təmin edilməsi, biznes mühitinin yaxşılaşdırılması və özəl sektora daxilolmaların artmasına yönələn 2025-ci ilədək uzunmüddətli baxışa keçməkdədir. 2020-ci ildə böhranın nəticələri ilə mübarizədə əhaliyə dəstək üçün COVID-19 üzrə tədbirlər planı elan edildi. Plan 4,8 milyon benefisiarı əhatə edib, 600 min nəfərdən yuxarı şəxs pul köçürmələri şəklində yardım alıb. Planda, eyni zamanda, iqtisadi model üzərində yenidən düşünmək, özəl sektorun rəhbərliyi altında innovasiyanı təşviq etmək və rəqəmsal iqtisadiyyatı stimullaşdırmaq üçün müddəalar da yer alır. Bu plan qısamüddətli cavab tədbiri olsa da, gələcəkdə insanların bu miqyasdakı potensial iqtisadi sarsıntılara qarşı dayanıqlılığının təmin edilməsinin yollarına dair strateji gələcəyə baxış üçün zəmin yaradır.

## 1.2.2. Tendensiyalar, Çağırışlar və Gələcək Prioritetlər

Tamamilə DİM-lərə söykənən milli inkişaf planının və 2030-cu ilədək gələcəyə baxışın olmadığını nəzərə alaraq və Əməkdaşlıq Çərçivəsinin hazırlanması prosesinin bir hissəsi kimi, BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi və BMTÖİH milli prioritetləri müəyyən etmək məqsədilə məsləhətləşmələr aparıb. Prezident Aparatı, Nazirlər Kabinetinin aparatı, nazirliklər, Dövlət Statistika Komitəsi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, habelə vətəndaş cəmiyyətinin liderləri, beynəlxalq inkişaf təşkilatlarının və beynəlxalq maliyyə institutlarının rəhbərləri, akademik dairələr və həssas icmaların nümayəndələri ilə görüşlər keçirilib. Məsləhətləşmə prosesi vasitəsilə, Hökuməti təmsil edən tərəfdaşlar BMTÖİH-nin prioritetləşdirmə prosesinin uyğunlaşdırılmalı olduğu aşağıdakı strateji istiqamətləri müəyyən edib:

- iqtisadiyyatın şaxələndirilməsi;
- özəl sektorun inkişafı;
- gender əsaslı zorakılıq və ayrı-seçkiliklə mübarizə;
- sosial təcridetmə ilə mübarizə;
- uşaqlara qarşı zorakılıq və uşaq əməyindən istifadə hallarının aradan qaldırılması üçün tədbirlərin gücləndirilməsi
- regional və qlobal iqtisadi inteqrasiya;
- regionlar arasında coğrafi bərabərsizliklərin azaldılması;
- erkən uşaqlıq dövründə təhsil və ibtidai təhsilin, texniki və peşə təhsilinin gücləndirilməsi;
- sosial və məşğulluq xidmətlərinin gücləndirilməsi;
- ilkin səhiyyə xidmətinin təmin edilməsi və profilaktik xidmətin gücləndirilməsi;
- ədliyyə sisteminin gücləndirilməsi;
- kənd təsərrüfatı üzrə informasiya-məsləhət xidmətinin əhatə dairəsinin gücləndirilməsi;
- insan kapitalı və bacarıqların inkişafının gücləndirilməsi;
- vacib xidmətlərin müasirləşdirilməsi və rəqəmsallaşdırılması;
- dövlət səmərəliliyini artırmaq üçün dövlət maliyyəsinin idarəolunması sahəsində islahatlar;
- milli turizmin inkişafı;
- DİM-lərin əsas sektorlar üzrə, büdcə ilə əlaqələndirilmiş fəaliyyət göstəriciləri kimi güclü inteqrasiyası;
- su ehtiyatları üzrə idarəetmənin, ətraf mühitin mühafizəsinin və iqlim dəyişikliklərinə uyğunlaşma və onların təsirlərinin azaldılmasının təkmilləşdirilməsi;
- milli statistikanın inkişafı vasitəsilə dəlillərə əsaslanan idarəçiliyin gücləndirilməsi.

2019-cu ilin sonunda islahat yönümlü kabinetin təyin olunması ilə, bu sahələrdə dəyişikliklərin sürətləndirilməsi istəyinin artdığı görünür.[4] Əksər Dayanıqlı İnkişaf Məqsədləri üzrə irəliləyiş planauyğun surətdə davam etsə də, gender, təhsil, səhiyyə və ətraf mühitlə əlaqəli hədəflər daha böyük diqqət tələb edir. Bununla yanaşı, ölkənin dayanıqlı inkişaf gündəliyi və onun insan hüquqları üzrə öhdəlikləri, o cümlədən Universal Dövri İcmalın 2018-ci il buraxılışında təsdiq olunan tövsiyələr və “Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt”, “İqtisadi, sosial və mədəni hüquqları haqqında Beynəlxalq Pakt”, “Uşaq hüquqları haqqında” Konvensiya və “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” Konvensiya kimi müqavilə orqanlarının icmallarının yekun rəyləri arasında əlaqələr yoxdur. İqtisadi siyasətə gəldikdə şaxələndirmə əsas strateji məqsəd olaraq qalır və özəl sektoru sıxışdırmağa və mikro, kiçik və orta müəssisələrin potensialını sarsıtmağa davam edən dövlət inhisarlarının azaldılması üçün tədbirlər görülüb. Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun ətrafında baş vermiş münaqişənin ardınca bərpa ehtiyaclarının qarşılanması üçün görülən tədbirlər dövlət xidmətləri və büdcəsi üzərində təzyiq yaradır.

Bu kontekstdə, bu bölmə Hökumətin strategiyasında vurğulanan əsas milli inkişaf prioritetlərini və ehtiyaclarını və onların DİM-lərlə nə dərəcədə əlaqəli olduğunu qiymətləndirir.

**Makroiqtisadiyyat sarsıntılara davamlı deyil:** Azərbaycan yalnız COVID-19 pandemiyasının nəticələri ilə deyil, həm də 2014-cü ildə neft qiymətlərinin aşağı düşməsinin mənfi təsirləri ilə mübarizə aparır. Neft qiymətlərinin aşağı düşməsi dərin maliyyə böhranı, büdcə kəsirləri və valyutanın devalvasiyası ilə nəticələndi ki, bu da inflyasiyanın artmasına, ərzaq qiymətlərinin və yoxsulluq səviyyəsinin yüksəlməsinə, maliyyə sektorunun kiçilməsinə səbəb oldu və biznesin artımına təsir etdi. Ölkədə makroiqtisadi və maliyyə sabitliyinin möhkəmləndirilməsi, onların dayanıqlığının təmin edilməsi, bu sahədə əlaqələndirilmiş siyasətin həyata keçirilməsi məqsədilə hökumət bir sıra addımlar atdı. Bu baxımdan, 2016-cı ildə Maliyyə Sabitliyi Şurasının yaradılması, Milli iqtisadiyyat üzrə strateji yol xəritələrinin qəbul edilməsi, fiskal və monetar siyasətin daha diqqətli şəkildə uzlaşdırılması kimi mühüm qərarları qeyd etmək olar. Neft qiymətlərindəki korreksiya, eləcə də yuxarıda sadalanan iqtisadi islahatlar nəticəsində iqtisadi artım 2019-cu ilin birinci yarısında yenidən 2,4%-ə qalxıb.

Bu proseslərə baxmayaraq əmək haqları minimum yaşayış həddi ilə ayaqlaşa bilməyib. Nəticədə, Hökumət həm minimum pensiyaların, həm də minimum əmək haqlarının nəzərəçarpan dərəcədə (illik büdcənin 12%-i) artmasını təmin edən iri sosial müdafiə proqramını həyata keçirməyə başladı. 2015-ci il böhranı struktur yönümlü islahatlara təkan verdi ki, bu da, idxal-ixrac əməliyyatları üçün bəzi vergi və rüsumların aradan qaldırılmasına və bir sıra bizneslər üçün lisenziyaların sadələşdirilməsinə imkan yaratdı. Vergi və gömrük orqanlarının da şəffaflığı artırılıb və nəticədə “Heritage Foundation” təşkilatı tərəfindən hazırlanan İqtisadi Azadlıq İndeksində Azərbaycan 16 pillə irəliləyərək 186 ölkə arasında iqtisadiyyatı ən azad olan 44-cü ölkə olub. Ölkənin bir çox digər qlobal qiymətləndirmə indekslərindəki (“Doing Business”, Qlobal Rəqabətlilik İndeksi və digərləri) mövqeyi də yaxşılaşıb ki, bu da son islahatları əks etdirir. Bu irəliləyişə baxmayaraq struktur yönümlü önəmli əngəllər qeyri-neft əsaslı iqtisadiyyata keçidin qarşısını alır. Həm real, həm də maliyyə sektorlarında zəif rəqabət və inhisarçı davranış əsas maneələrdən biri olaraq qalır. Daxili maliyyə sistemlərində bir neçə kommersiya bankı hökmranlıq edir və bank sektorunun ümumi aktivlər bazasının 60%-ə yaxını ölkənin ən iri üç bankının payına düşür. Kredit üçün yüksək girov tələbi də kreditlərə çıxış imkanına əngəl olan daha bir önəmli maneədir ki, bu da KOM-ların və kiçik təsərrüfatların maliyyəyə çıxış imkanını məhdudlaşdırır. Maliyyə resurslarına daha yaxşı çıxış imkanlarının olması və biznes mühitinin yaxşılaşdırılması özəl sektorun artımına, iş yerlərinin yaradılmasına və şaxələnməyə təkan verə bilər. Hazırda Azərbaycan neft qiymətlərinə həssas qalmağa davam edir. 2020-ci ilin birinci yarısında neft qiymətləri son 20 ildəki ən aşağı həddinə çatdı və dövlət büdcəsində orta hesabla müəyyən edilmiş 55 ABŞ dolları həddindən xeyli aşağı düşdü. Dövri iqtisadiyyatın dəstəklənməsinə keçid heç vaxt bu qədər zəruri olmamışdı.

[4] Qeyd edilməlidir ki, bu istək əsasən özəlləşmə, dövlət qulluğunda islahatlar və mərkəzsizləşdirmə kimi ümumi dövlət islahatlarından daha çox, nümunəvi mərkəzlərin yaradılmasına yönəlir.

**İnsan kapitalı çatışmazlığı:** İnsan kapitalının inkişafında kəskin sıçrayış olmadan iqtisadiyyatı şaxələndirmək və qeyri-neft sektorunda artımı gücləndirmək çətindir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", eləcə də "Azərbaycan Respublikasında milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" insan kapitalına investisiyanın zəruriliyini vurğulayır. Ölkə "ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi və təmayülləşmənin inkişaf etdirilməsi" və "insan kapitalının inkişafında iştirak edən fiziki və texnoloji infrastrukturun təkmilləşdirilməsi" kimi strateji hədəflərin müəyyənləşdirilməsində ciddi irəliləyiş əldə edib. Azərbaycan, həmçinin beynəlxalq əməkdaşlığı stimullaşdırıb ki, bu da müəyyən sahələrdə qabaqcıl texniki təcrübənin idxalına kömək edib.

Milli işçi qüvvəsində bacarıqların çatışmazlığı inkişafa mənfi təsir göstərməyə davam edir. 2019-cu il büdcəsində təhsil və səhiyyə sahələrinə ayırmalarda artım olsa da (müvafiq olaraq 11,6 faiz və 23,1 faiz), bu sektorlar üzrə ümumi xərcləmələr digər ölkələrlə müqayisədə aşağı olaraq qalır. İnsan Kapitalı İndeksində Azərbaycan 157 ölkə arasında 69-cudur. Qlobal səviyyədə, bu gün doğulan bütün uşaqların 56%-i böyüyəndə malik ola biləcəkləri məhsuldarlığın ən yaxşı halda yarısına malik olacaq; 92%-i isə böyüyəndə malik ola biləcəkləri məhsuldarlığın ən yaxşı halda 75%-nə malik ola biləcək. Bu gün Azərbaycanda doğulan uşaq böyüyəndə tam təhsil və tam sağlamlığa malik olacaqları halda sahib ola biləcəyi məhsuldarlığın 60%-nə malik olacaq.[5] Hökumət və özəl sektor insan kapitalının çatışmazlığını zəif iqtisadi göstəricilərin başlıca səbəblərindən biri olduğunu qeyd edib və buna görə də bazarın ehtiyacları ilə əmək bacarıqları arasında daha böyük əlaqələndirmə tələb olunur. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə əsas strateji hədəflər arasında insan kapitalının inkişaf etdirilməsi yer alsa da, bütövlükdə milli strategiyalarda, o cümlədən Strateji Yol Xəritələrində insan kapitalı, təhsil, ətraf mühit və səhiyyə sahələrinə daha az diqqət yetirilir. Lakin bunlar 2030-cu ilədək DİM-lərə nail olmaq üçün əsas elementlərdən biridir. Bu boşluqların aradan qaldırılması, eləcə də biznes mühitini gücləndirən siyasət islahatlarının aparılması özəl kapitalı cəlb edə və innovasiyalara və bilik əsaslı iqtisadiyyata keçidə təkan verə bilər.

**Təhsil üzrə dövlət xərcləri, 2018. ÜDM-in %-i**




**Səhiyyə üzrə dövlət xərcləri, ÜDM-in %-i**




[5] Dünya Bankının İnsan Kapitalı İndeksi, 2018: https://databank.worldbank.org/data/download/hci/HCI_2pager_AZE.pdf

**Səhiyyə (3-cü DİM):** güclü səhiyyə sistemi Azərbaycanda dayanıqlı inkişafın əsas dayaq sütunlarından biri olaraq qalır. Hazırda tibb məntəqələrində tibbi xidmətlər pulsuz təqdim olunur. Siyasi və normativ nəzarətə rəhbərlik edən Səhiyyə Nazirliyi müalicəvi xidmətdən profilaktik xidmətə keçid zərurətini təsdiq edir. Bu keçid ÜST-ün dəstəkləyə biləcəyi, gələcəyə yönələn bir modeldə sağlamlığın daha böyük təşviqi və xəstəliklərin qarşısının alınmasını ehtiva edir. Bu, məsələn, yeni yaradılmış Qida Təhlükəsizliyi Agentliyi vasitəsilə artıq həyata keçirilməkdədir.[6] Şəxsi vəsait hesabına qarşılanan xərclərin artmasını nəzərə alaraq, 2016-cı ildə hökumət vətəndaşları daha yaxşı maddi müdafiə ilə təmin etmək üçün İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyini (İTSDA) yaratdı. 2018-ci ildə ölkədə icbari tibbi sığortanın icrasını təmin etmək üçün Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) yaradıldı. ÜST müxtəlif maarifləndirmə kampaniyaları, təlim proqramları vasitəsilə və onlayn konfrans və rəqəmsal aplikasiyalar kimi rəqəmsal alətlər vasitəsilə profilaktik xidmətə keçidi dəstəkləməyə davam edir.

O, bu sahələrdə, o cümlədən ilkin səhiyyə xidmətinin müyəssərliyinin genişləndirilməsinin təşviqində Səhiyyə Nazirliyi, İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM), TƏBİB və İTSDA ilə tərəfdaşlığı genişləndirib. Sistemin yenidən qurulmasında əsas problemlər ümumilikdə səhiyyəyə (xüsusən də ilkin və psixi sağlamlığa) ayrılan dövlət xərclərinin az olması, körpə və ana ölümü səviyyələrinin yüksək qalması (son dövrlərdəki üzüaşağı meylə baxmayaraq) və kənd yerlərində xidmətlərin zəif olmasıdır. COVID-19 pandemiyası və 2020-ci ildə Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun ətrafında aparılmış hərbi əməliyyatlar müddətində milli səhiyyə sisteminin üzərindəki təzyiq pandemiya risklərinin öhdəsindən gəlmək və ən həssas qruplara, o cümlədən kənd yerlərində yaşayan əhaliyə, məcburi köçkünlərə və müalicə üçün evdən çıxa bilməyən ahıl və ya əlilliyi olan şəxslərə xidmət göstərmək üçün tibbi heyətin və xəstəxanaların yaxşı təchiz olunmasını təmin etmək zərurətini üzə çıxardı. Bu məsələləri qısa müddətdə həll etmək məqsədilə, Azərbaycan Hökuməti bir çox mühüm addımlar atdı. Modul tipli xəstəxanaların tikilməsi, yeni tibbi avadanlıqların əldə edilməsi, bu sahələrdə beynəlxalq inkişaf tərəfdaşlıqları ilə əməkdaşlıq kimi addımları qeyd etmək mümkündür.

**Təhsil (4-cü DİM):** Hökumətin Təhsilin inkişafı üzrə Dövlət Strategiyası (2013 - 2025) hər kəsin təhsilə çıxış imkanına təminat verir və həyat boyu öyrənmə prinsipini dəstəkləyir. İbtidai və orta təhsildə qeydiyyat əmsalları yüksək qalmaqda davam etsə də, məktəbəqədər təhsildə ümumi iştirak səviyyəsi nisbətən aşağıdır (2014 - 2016-cı ildə 25%). Məktəbəhazırlıq Təhsil Nazirliyi üçün prioritetlərdən biri olmuşdur. 2016-ci ildən bəri UNİCEF-lə əməkdaşlıq şəraitində, ümumi təhsil müəssisələrində dövlət büdcəsi hesabına 5 yaşlı uşaqların məktəbəhazırlıq təhsili 2013-cü ildəki 24 faizdən 2019-cu ildə 80 faizə çatdırılmışdır. Həyata keçirilən bir sıra tədbirlər nəticəsində, keçmişdə məktəbəqədər təhsil müəssisələrinin olmadığı yaşayış məntəqələrində, ucqar kəndlərdə də məktəbəhazırlıq təmin edilmişdir. 2020-2021-ci tədris ilində koronavirus pandemiyası səbəbilə, valideynlərin şəxsi qərarları səbəbindən məktəbəhazırlığa qəbul göstəricisinin 90%-ə çatdırılması mümkün olmamışdır. 3-4 yaşlı uşaqlar üçün erkən təhsilə çıxış imkanlarını artırmaq məqsədilə, icma əsaslı erkən təlim mərkəzlərinin inkişaf etdirilməsi ilə bağlı pilot proqramlar da həyata keçirilir. Məqsəd qarşıdakı 3-5 il ərzində uşaqların bütün yaş qrupları üzrə məktəbəqədər təhsillə əhatə səviyyəsinin tədricən 50%-ə çatmasına nail olmaqdır.

[6] Diabet, hipertoniya, piylənmə və digər qeyri-infeksion xəstəliklərin artması isə bunun konkret dəlilləri arasındadır. Qeyri-infeksion xəstəliklərin qarşısının alınması ilə bağlı gələcəyə baxış iki strateji sənəddə əks olunmuşdur: Səhiyyə Nazirliyinin 2017-2021-ci illər üçün Fəaliyyət Planı və Qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya



İbtidai və orta təhsil səviyyələrində təhsilin keyfiyyəti və təhsil müəssisələrinin paylanması, habelə sağlamlıq imkanları məhdud uşaqlar və yeniyetmə qızlar kimi qrupların təhsilə çıxış imkanları ilə bağlı çətinliklər mövcuddur. Təhsilin keyfiyyəti baxımından coğrafi bərabərsizliklər urbanizasiya səbəbindən daha da intensivləşib. İnsan resursları ilə bağlı çətinliklər isə bütövlükdə sektor üçün aktualdır və təhsil səviyyəsinə təsir edir. COVID-19 böhranı müddətində müşahidə olunan rəqəmsal fərq xüsusilə onlayn təlimə tələbin artması ilə, şəhər və kənd yerlərindəki məktəblər arasındakı bərabərsizlikləri üzə çıxardı. 2020-ci ildəki hərbi əməliyyatların başlanması məcburi köçkün icmalarında yaşayan uşaqların məktəbə getmək imkanlarına ciddi zərbə vurdu. Köhnəlmiş məktəb əsaslı idarəçilik sistemləri də yenilənməlidir. Bundan başqa, peşə təhsilinin ölkənin iqtisadi inkişafında və qeyri-neft sektorunda rəqabətliliyin artırılmasında rolunu və insan kapitalının formalaşmasına müsbət təsirini nəzərə alaraq bu sahəyə xüsusi diqqət yetirilməsinə ehtiyac var.

Rəqəmsal transformasiya (9-cu DİM): son illərdə Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının (İKT) əhatə dairəsi genişlənib. 2020-ci ildə Azərbaycanın məskunlaşmış ərazilərinin 97,6%-i 3G, 93,0%-i isə 4G şəbəkəsi ilə əhatə edilib və əhalinin 81,01%-i internetdən istifadə edir (2020-ci ilin əvvəlinə). Birləşmiş Millətlər Təşkilatının "2020-ci il üzrə Elektron Hökumət Tədqiqatı"nda (hər iki ildən bir dərc olunur) Azərbaycan "Elektron Hökumətin İnkişaf İndeksi"nə görə 193 ölkə arasında 70-ci yerdə, "Elektron İştirak İndeksi"nə görə isə 73-cü yerdədir. Kornell Universiteti, "İNSEAD" biznes məktəbi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) tərəfindən hazırlanan "2019-cu il üzrə Qlobal İnnovasiya İndeksi"ndə Azərbaycanın innovasiya ekosisteminin inkişafının nəticələrinə görə 129 ölkə arasında 84-cü yerdə qərar tutub. 9.5 saylı DİM hədəfinə gəldikdə, Azərbaycanda elmi-tədqiqat və təcrübə xərclərinin ÜDM-də payı aşağı səviyyədə qalır - 0,2%. "Qlobal Rəqabətlilik İndeksi"ndə Azərbaycan "əhalinin rəqəmsal bacarıqları" göstəricisi üzrə 141 ölkə arasında 19-cu yerdədir. Bununla belə, COVID-19 virusunun alovlanması və məsafədən işə və təhsilə keçid internetə çıxışdakı boşluqları aşkarladı və ölkədə İKT infrastrukturundan istifadənin təkmilləşdirilməsi zərurətinin miqyasını ortaya çıxardı. Bundan əlavə, böhran elektron idarəetmə, rəqəmsal iqtisadiyyat, elektron kənd təsərrüfatı, elektron səhiyyə, elektron təhsil və digər sahələrə çoxşaxəli təsirləri sürətləndirmək üçün uyğunlaşdırıla biləcək bir mühit yaratdı. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq, yaxın gələcəkdə "Ağıllı şəhər" üzrə pilot layihə (2020-2021) icra ediləcək. Bu, Azərbaycanın bütün regionlarında yüksək texnoloji həllərin tətbiqini sürətləndirəcək və innovativ həllərin tətbiqini stimullaşdıracaq. Bu həmçinin dövlət sektoru ilə birgə özəl sektorun iştirakını təmin edəcək, sosial-iqtisadi sektorlar üzrə müsbət nəticələrin əldə olunmasına təsir göstərəcək.

**Kənd təsərrüfatı (6-cı və 15-ci DİM-lər):** kənd təsərrüfatı güclü artım sütunu olaraq qalır və 2013-2017-ci illər arasında ÜDM-in 5,6%-i, məşğul əhalinin isə 36%-i bu sektorun payına düşüb.[7] Bütün istehsalın 80 faizi kiçik torpaq mülkiyyətçilərinin payına düşür. Müəyyən ixrac məhsulları üzrə müqayisəli üstünlükləri, məşğulluğun elastik xarakterini nəzərə aldıqda, maliyyələşmə və bazara çıxış imkanı ilə bağlı maneələrin aradan qaldırılması və MKOM-lara investisiya edilməsi sektorda əlavə dəyərin yaranmasını əsaslı dərəcədə artıra bilər. Kənd təsərrüfatı sektorunun regionlarda iqtisadi artımın əsas təkanverici qüvvəsi kimi əhəmiyyəti artacaq. Hökumət səmərəli idarəçilik, fermerlərə yaxınlıq, innovasiya və rəqəmsallaşma (elektron kənd təsərrüfatı konsepsiyalarının və "ağıllı" kəndlərin təşviqi), dəyər zəncirinin inkişafı və ixracın təşviqi məsələlərinə xüsusi diqqət yetirərək kənd təsərrüfatının istiqamətləndirdiyi sənayeləşmə siyasətinə keçir. Kənd Təsərrüfatı Nazirliyinin uzunmüddətli strategiyası beş komponent üzərində qurulmuşdur: təhlil aparmaq, həll yolları tapmaq, bilik və potensialları artırmaq, yardım göstərmək və ticarətə imkan yaratmaq. Kənd yerlərində yerləşən təşkilatlarda qadınların iştirakının artırılması və qadın sahibkarlara kömək də dəstəklənir və bu, 5-ci DİM-lə güclü əlaqələrə malikdir.

**Məşğulluq və sosial müdafiə:** Prezidentin 9 avqust 2018-ci il tarixli fərmanı sosial müdafiə sahəsində dərin dəyişikliklərlə nəticələndi. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bütövlükdə minimum əmək haqqı, pensiya və əlillik sisteminin (2020-ci ilin əvvəllərinə dövlət büdcəsinin 12%-ə yaxınını təşkil edirdi) yenidən qurulmasına başlayıb.

[7] https://www.adb.org/sites/default/files/institutional-document/510266/cps-aze-2019-2023.pdf

Məsələn, 2019-cu ilin sentyabr ayında respublika üzrə minimum əmək haqqı 40% artırılaraq 250 manata çatdırılıb. Bu artım dövlət sektorunda çalışan 450 min nəfər də daxil olmaqla, 600 minə yaxın işçini əhatə edib. "2019-cu ildə bütün növ pensiyalar üzrə orta aylıq məbləğ 264 manat və yaşa görə pensiya üzrə orta aylıq məbləğ 292 manat (hər iki göstəricidə müvafiq olaraq 19% və 17% artım) təşkil edib. 2019-cu ilin oktyabr ayında minimum pensiyanın məbləği artırılaraq 160 manatdan 200 manata çatdırılıb (25% artım). Bu artım 600 min nəfəri əhatə edib. Yaşa və əlilliyə görə verilən pensiyaların avtomatlaşdırılması həyata keçirilib.

Hökumət, həmçinin, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (ASAN Xidmət daxil olmaqla[8]), Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi və "ABAD" (Ailə Biznesinə ASAN Dəstək) publik hüquqi şəxsin təşkili vasitəsilə dövlət sektorunda xidmətlərin kompaktlaşdırılmasına start verib. 2015-ci ildə "BMT-nin dövlət xidmətləri mükafatı"na layiq görülmüş ASAN Xidmət texnoloji yeniliklərdən istifadə vasitəsilə dövlət xidmətlərinin şəffaf, əlçatan və innovativ qaydada çatdırılmasında dünya miqyasında nümunəvi təcrübələrdən hesab edilir.

Bu siyasətlər hökumətin bürokratiyanı əhəmiyyətli dərəcədə aşağı salmaqda qətiyyətli olduğunu göstərir. Belə ki, ƏƏSMN-ın fəaliyyət istiqamətləri üzrə bir çox xidmət artıq tam elektronlaşdırılmışdır. Nazirliyin tabeliyindəki DOST Agentliyində məşğulluq, əmək münasibətləri, sosial müdafiə, sosial sığorta və s. kimi sahələri əhatə edən xidmətlərin göstərilməsi "bir pəncərə" prinsipinə əsaslanır.

650 min nəfərdən artıq keçmiş məcburi köçkünün iqtisadi həyata yenidən inteqrasiyası da sosial müdafiə sahəsində prioritet olaraq qalır. 2020-ci ilin ortalarında COVID-19 ilə bağlı elan edilmiş yardım zərfi iş yerini itirmiş (qeyri-rəsmi sektorda çalışanlar daxil olmaqla) şəxslərin yaşayış minimumu miqdarında birdəfəlik ödəmənin verilməsi üçün onlayn şəkildə qeydiyyatdan keçməyə dəvət olunub. Bu, hökumətin hər kəsin sosial müdafiəyə çıxış imkanını ehtiva edən gələcəyə baxışını əks etdirir.

**Gender bərabərliyi (5-ci DİM):** Hökumətlə aparılan məsləhətləşmələr göstərdi ki, gender bərabərliyi sahəsində irəliləyişin sürətlənməsi heç kəsin inkişafdan kənarda qalmaması üçün vacib faktor olaraq qalır. Belə ki, iqtisadi, ictimai və siyasi həyatda iştirakın olmaması 2017-ci ildə gender fərqinin 0,676 bal olmasına gətirib çıxarıb ki, bu da Şərqi Avropa və Mərkəzi Asiyada ikinci ən aşağı göstəricidir.[9] Ümumdünya İqtisadi Forumunun 144 ölkəni gender pariteti üzrə sıralayan Qlobal Gender Fərqi İndeksinə əsasən, Azərbaycan dörd aspekt üzrə 2016-cı yerdəki 86-cı yerdən 2017-ci ildə 98-ci yerə düşüb (iqtisadi iştirak üzrə 38-dən 45-ə, təhsil səviyyəsi üzrə 83-dən 91-ə, sağlamlıq və sağqalma üzrə 138-dən 142-ə, siyasi səlahiyyətləndirmə üzrə 124-dən 131-ə).

[8] Azərbaycan Respublikasının Prezidentinin yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına əsasən yaradılmışdır. 2012-ci il 29 dekabr tarixində ilk "ASAN xidmət" mərkəzinin açılışı baş tutmuş və 2012-ci il 15 yanvar tarixindən etibarən fəaliyyətə başlamışdır.

[9] Ümumdünya İqtisadi Forumu. 2017. Qlobal Gender Fərqi Hesabatı, 2017. Cenevrə

Azərbaycan eyni zamanda doğulan uşaqların cinsə görə nisbətinin ən çox pozulduğu ölkələrdən biridir (2014–2017-ci illərdə hər 100 qıza 116 oğlandan 114-ə düşüb). 15-49 yaşlı Azərbaycanlı qadınların təxminən 14%-i həyatlarında ən az bir dəfə intim partnyor zorakılığına (fiziki və/yaxud cinsi) məruz qalır.[10] Dəlillər həmçinin göstərir ki, kişilərin 33%-i öz partnyoruna qarşı zorakılıq etdiyini, qadınların 32%-i isə fiziki zorakılığa məruz qaldığını bildirir. Partnyor tərəfindən törədilən zorakılığın məqbul olduğunu hesab edən qadınların sayı yüksəkdir. Onların 11-59%-i müxtəlif spesifik halların partnyorun qadına qarşı zorakılıq tətbiq etməsinə əsas verdiyini hesab edir.[11] Hökumətin statistikasına görə, qadınların məşğulluqda payı 48,1%, kişilərin payı isə 51,9%-dir. Qadınların işsizlik səviyyəsi 5,9% olmaqla, kişilərlə (4,1%) müqayisədə daha yüksəkdir. Demokratiya Monitoru təşkilatına əsasən, qadınlar əsasən az maaşlı sektorlarda cəmləşir və qadınların 73,8%-nin təhsil sahəsində, 76,5%-nin səhiyyə və sosial xidmət sahələrində işləməsi peşələrdə yüksək dərəcədə gender seqreqasiyasının olduğuna dəlalət edir. Son zamanlar aparılmış əməkhaqqı islahatları nəticəsində təhsil sahəsində orta əməkhaqqının ölkə üzrə orta əməkhaqqına yaxınlaşmasına baxmayaraq ümumilikdə qadınlar kişilərin əmək bazarında qazandığının cəmi 50,6%-ni qazanır. Ümumilikdə, sahibkarlar arasında qadınların xüsusi çəkisi azdır. Qeydə alınmış sahibkarlıq subyektlərinin cəmi 21,5%-i qadınlar tərəfindən idarə olunur. 2020-ci ilin yanvarın 1-nə olan məlumata əsasən, Azərbaycanda qadın fərdi sahibkarların sayı 198,305 nəfərdir.

Qadınlar dövlət qulluğu sektorunda çalışsa da, onlar bütün səviyyələrdə, xüsusilə rəhbər səviyyələrdə və hakim vəzifələrində daha az iştirak edirlər. 2020-ci ilin yanvarın 1-nə olan məlumata əsasən, kişilərin 83,9 %-i, qadınların isə 78,4 %-i internetdən istifadə edir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bu fərqləri aradan qaldırmaq üçün tədbirlər görmək əzmindədir. BMT-nin dəstəyi ilə hazırlanmış "Qız övladın dəyərinin təbliği üzrə Milli Fəaliyyət Planı (2020-2025)" 2020-ci ilin fevral ayında təsdiq edilib. Dörd milli fəaliyyət planı Nazirlər Kabinetinin təsdiqini gözləyir: "Gender bərabərliyi (2019-2024)", "Gender əsaslı zorakılığın qarşısının alınması və onunla mübarizə (2019-2023)", "Qadınlar və sülh və təhlükəsizlik (2019-2023) haqqında qətnamənin (S/RES/1325) icrası" və "Qadın məşğulluğunun təmin edilməsinə dair Fəaliyyət Planı".

Hökumətin gələcək prioritetlərinə aşağıdakılar daxildir: 1) gender bərabərliyi ilə bağlı qanunların yenilənməsi; 2) qadın hüquqları haqqında məlumatlılığın artırılması; 3) gender əsaslı zorakılıqla mübarizə; 4) qadın sahibkarlara dəstəyin artırılması; 5) cinsi və reproduktiv sağlamlıq və ailə planlaşdırması. Bundan əlavə, komitə tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 24 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"nın icrası ilə əlaqəli maarifləndirmə tədbirləri keçirilir. Bu tədbirlər risk qrupuna daxil olan ailələrin reproduktiv davranış sahəsində bilik səviyyəsinin artırılması, gənc və yeniyetmələrin cinsi mədəniyyət sahəsində maarifləndirilməsinin gücləndirilməsi, arzuolunmaz hamiləliklərin, abortların artmasının, doğulacaq uşağın cinsinin seçilməsinin qarşısının alınmasına yönəlir.

[10] BMTGBQSQ. 2010. Qadınlara qarşı zorakılıq üzrə Qlobal Məlumatlar bazası. http://evaw-global-database.unwomen.org/en/countries/asia/azerbaijan (baxılıb: 15 oktyabr 2019).

[11] UNFPA/AQUPDK (2018) Azərbaycanda gender bərabərliyi və gender münasibətləri: cari tendensiyalar və imkanlar. Kişilər və Gender Bərabərliyi üzrə Beynəlxalq Sorğu (IMAGES). Bakı, Azərbaycan

**Ətraf Mühit və İqlim Dəyişikliyi (13-cü və 15-ci DİM-lər):** iqlim dəyişmələri artıq Azərbaycana mənfi təsir göstərmişdir. Ən çox təsirə məruz qalan sektorlardan biri də su sektorudur. Son illərdə quraqlıq və su ehtiyatlarının azalması müşahidə olunur. Eyni zamanda, dəniz səviyyəsindən aşağı bir çox sahələrdə subasma baş verir ki, bu da kənd təsərrüfatının məhsuldarlığını aşağı salır. Ekoturizm nəzərəçarpan potensiala malikdir və milli park statusuna malik 10 mühafizə olunan təbiət ərazisi var. Bu ərazilərin UNESCO əhəmiyyətli ərazilərə, xüsusən də Qlobal Coğrafi Parklar Şəbəkəsinə və Ümumdünya Biosfer Qoruqları Şəbəkəsinə daxil olmaq üçün böyük potensialı mövcuddur. Belə ki, coğrafi parkların yaradılması və biosfer qoruqlarının irəli sürülməsi ölkədə təbiətə əsaslanan turizmin inkişafına əlavə təkan verə bilər. Azərbaycan İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına və onun Kioto protokoluna qoşulub, Senday Çərçivəsini təsdiqləyib və alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin artırılmasını hədəfləyir. Azərbaycan, həmçinin Paris İqlim Sazişi çərçivəsində 2030-cu ilədək istixana qazı tullantılarını 35% azaltmaq məqsədi güdür.



**Su (6-cı DİM):** Azərbaycanın su ehtiyatlarının əsas hissəsi ölkədən kənarda formalaşır. İqlim dəyişmələri son illərdə su ehtiyatlarının azalmasına gətirib çıxarmışdır. Su ehtiyatlarının səmərəli idarə olunması üçün Hökumət tərəfindən təxirəsalınmaz tədbirlərin görülür. Ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə komissiya yaradılmışdır. "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı" Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmişdir. Azərbaycan 2000-ci ildə UNECE-nin Su Konvensiyasına qoşulsa da, qonşu ölkələrin bunu etməməsi, transsərhəd əməkdaşlıq və su ehtiyatlarının idarə edilməsi üçün hüquqi zəminin olmaması su təhlükəsizliyi təşəbbüslərinə mənfi təsir göstərir. 2020-ci ilin sonunadək, əhalinin yalnız yarısı mərkəzləşdirilmiş içməli su təchizatı şəbəkəsinə qoşulub. Suyun paylanma sistemində də böyük itkilər meydana çıxır, təchiz olunan suyun 50%-ə qədəri son təyinat nöqtəsinə çatmır. Azərbaycanda uzunmüddətli orta illik su istismarı indeksi 30,5%-dən yuxarıdır və su stressi ilə əlaqədar, bəzi rayonlarda su çatışmazlığı baş verir. Su stressi 2019-cu ildə artaraq 78%-ə çatmışdır.[12] Su çatışmazlığı torpaqların məhsuldarlığına mənfi təsir edir və daha geniş miqyasda kiçik fermerlərin və kənd əhalisinin yaşayış vasitələrinə qarşı təhdid yaradır. Sudan istifadənin səmərəliliyi aşağıdır: 1 vahid məhsul buraxılışı üçün 0,230 $m^3$ su istifadə olunur ki, bu da regional orta göstəricidən (0,111 $m^3$) çoxdur.[13] Milli siyasət hazırda suyun təmizlənməsi, itkilərin azaldılması, alternativ su mənbələrinin yaradılması, suyun təkrar dövriyyəsinin, keyfiyyətinin və tullantı sularının idarə edilməsinin yaxşılaşdırılmasına yönəlmişdir.

**Regional əməkdaşlıq və inteqrasiya:** əlverişli geostrateji mövqedə yerləşən Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində bir sıra irimiqyaslı layihələr həyata keçirilib. Hökumət Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin infrastrukturuna investisiya qoyur, ticarətin uyğunlaşdırılması, logistikası və sadələşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirir. Sözügedən layihələr sırasında Bakı-Tbilisi-Qars dəmir yolunu və Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisini qeyd etmək olar. Həmçinin həmin dəhlizlərin üzərində yerləşən dəmir yolu infrastrukturu yenilənmiş, bütün yollar birinci texniki dərəcəyə çatdırılmışdır. Ölkənin mövcud nəqliyyat potensialının artırılması və yeni imkanların yaradılması, bununla da Azərbaycanın mühüm ticarət və logistika qovşağına çevrilməsi və rəqəmsal nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində müvafiq işlər başlayıb. Azərbaycan regionda infrastrukturun və bağlantıların inkişafı, qlobal iqtisadiyyata inteqrasiyaya, təhlükəsizlik və sabitliyin təminatına yönəlmiş siyasət yürüdür. Bu siyasət bütün qonşularla əməkdaşlıq şəraitində həyata keçirilir. Regional əhəmiyyətə malik xüsusi ərazi olan Ələt Azad İqtisadi Zonasının yaradılması ölkəyə daxil olan və çıxan yük axınlarının artırılmasında, iş yerlərinin yaradılmasında mühüm rol oynamaqla bərabər, regional iqtisadi əməkdaşlığa və inteqrasiyaya dəstək göstərir. Həmçinin qeyd olunmalıdır ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı 2019-cu ildə Avropa Dəniz Limanları təşkilatının "PERS-EkoPorts" sertifikatına layiq görülmüşdur. Sözügedən sertifikat xüsusilə enerji istifadəsi, tullantıların idarə olunması, havanın keyfiyyəti, rəqəmsallaşdırma və avtomatlaşdırma sahələrində qabaqcıl texnologiyaların tətbiqini təşviq edir.

[12] Su stressi göstəricisi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 3 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Su təsərrüfatı balanslarının respublika, su hövzələri və inzibati ərazi vahidləri üzrə tərtib edilməsi qaydası"na uyğun olaraq su təsərrüfatı balansı müşahidəsi aparılan hidroloji məntəqələrin məlumatları əsasında yenidən qiymətləndirilmişdir.

[13] https://sdghelpdesk.unescap.org/re/azerbaijan.html

artmasına dəstək göstərir. Bu platformalar inklüziv iqtisadi artım, yoxsulluğun azaldılması və dayanıqlı inkişaf üçün ilkin şərtlərin təmin edilməsi məqsədilə ölkənin iqtisadi artımını stimullaşdırmağa, məhsulların rəqabət qabiliyyətini artırmağa kömək edə və regional inkişafı sürətləndirə bilər. Bundan əlavə, Azərbaycan Qoşulmama Hərəkatına, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına və Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilata (GUAM) sədrliyi vasitəsilə regional sabitliyin saxlanmasında getdikcə daha mühüm rol oynayır və COVID-19 ilə mübarizədə regional və qlobal həmrəyliyin təşviqində mühüm səylər göstərib. Azərbaycan Avropa Qonşuluq Siyasəti və onun şərqi regional qolu olan Şərq Tərəfdaşlığı çərçivəsində Avropa İttifaqı ilə yaxından əməkdaşlıq edir. Aİ-Azərbaycan Tərəfdaşlıq Prioritetləri Sənədinin bir neçə prioritet sahələri (Daha güclü iqtisadiyyat, Daha güclü idarəçilik, Daha güclü əlaqəlilik və Daha güclü cəmiyyət) BMTDİƏÇ-in prioritetləri ilə uzlaşır və siyasətlər vasitəsilə həyat keyfiyyətinin yaxşılaşdırılması məqsədini daşıyır. Tərəfdaşlıq, həmçinin, 2030-cu il Gündəliyində və Paris İqlim Sazişində nəzərdə tutulan qlobal siyasət məqsədlərinin icrasını dəstəkləyir. Digər tərəfdən, Azərbaycan ATƏT-lə də sıx əməkdaşlıq edir. Bu baxımdan, ATƏT xətti ilə həyata keçirilən "Xəzər regionunda əlaqəliliyin və yaşıl limanların təşviqi" layihəsinin icrası Bakı, Aktau, Kurık, Türkmənbaşı dəniz limanlarının tranzit və ticarət əməliyyatlarının rəqəmsallaşdırılması ilə yanaşı, onların səmərəliliyini və rəqabətə dözümlülüyünü, həmçinin Trans-Xəzər nəqliyyat dəhlizinin cəlbediciliyini artıracaq. Azərbaycan həm də Avropa Şurasının "Yaxşı idarəçilik naminə tərəfdaşlıq" (PGG) proqramının üzvüdür. Proqram ölkəyə insan hüquqları, qanunun aliliyi və demokratiya sahələrində milli qanunvericiliyi və təcrübələri ümumi beynəlxalq hüquqla təsbit olunmuş normalara yaxınlaşdırmaqda dəstək göstərir. Tərəfdaşlığın ikinci mərhələsi 2019-2021-ci illəri əhatə edir və digər sahələrlə yanaşı, kiber-dayanıqlılıq, qadınlar və ayrı-seçkilik qurbanlarının ədliyyə xidmətlərinə çıxışı və uşaq istismarı və zorakılığına son qoyulmasına yönəlir. Bu sahələrin hamısı BMTDİƏÇ sənədində əhatə edilir. Azərbaycan həm də regiondakı altı ölkəyə su idarəçiliyi sahəsində qanunvericiliyi təkmilləşdirməkdə və trans-sərhəd çay hövzələrinin idarə edilməsini təkmilləşdirməkdə kömək edən Aİ-nin "Su Təşəbbüsü" regional proqramının (EUWI+) üzvüdür.[14] Əməkdaşlıq Çərçivəsinin icrası ölkənin BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üzrə Xüsusi Proqramında (UN SPECA) iştirakının su, enerji, ətraf mühit, dayanıqlı nəqliyyat, tranzit və əlaqəlilik, ticarət, statistika, biliklərə əsaslanan inkişaf və gender kimi sahələrdəki faydalarına söykənəcək və zərurət yarandıqda subregional siyasətlərin təhlili, məlumat və məsləhət xidmətləri üçün BMT-nin regional iqtisadi komissiyalarından (BMT-nin Avropa üzrə İqtisadi Komissiyası və Asiya və Sakit Okean Regionu üzrə Sosial və İqtisadi Komissiyası) yararlanacaq.

**Effektiv institutlar, o cümlədən ədliyyə institutları (16-cı DİM):** məsləhətləşmələr göstərdi ki, dövlət qurumlarının hesabatlılığını və şəffaflığını artırmaq, qanunun aliliyini təşviq etmək və vətəndaş cəmiyyəti subyektlərini institusional nəzarətə daha çox cəlb etmək üçün səylər göstərilməlidir. Cinayət ədliyyəsi və hüquqi sistemin, xüsusilə Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Ədliyyə Nazirliyi və Baş Prokurorluğun ümumi beynəlxalq hüquqa uyğun potensiallarının gücləndirilməsi insan hüquqlarının müdafiəsi və investorların cəlb edilməsi baxımından mühüm prioritet olaraq qalır. Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında 2019-cu il 3 aprel tarixli Prezident fərmanının uğurlu icrası məhkəmə sisteminə ictimai inamın artması və əlverişli biznes mühitinin yaradılması üçün son dərəcə vacibdir. Bu fərman məhkəmə xidmətlərinin əlçatanlığını, şəffaflığını və səmərəliliyini yaxşılaşdırmağa yönələn "yol xəritəsi" kimi çıxış edir. İnsan alveri və məişət zorakılığı qurbanları kimi cəmiyyətdə gözə görünməyən şəxslər üçün ədliyyə xidmətlərinə çıxış imkanı da daha böyük diqqət tələb edir.

[14] https://unece.org/speca

**Münaqişədən sonrakı bərpa:** münaqişədən zərər çəkmiş bütün ərazilərin bərpası, məcburi köçkünlərin təhlükəsiz və ləyaqətli şəkildə qayıdışı və reinteqrasiyası, eləcə də münaqişədən zərər çəkmiş bütün ərazilərdə əhalinin reinteqrasiyası Azərbaycan üçün münaqişədən sonrakı dövrdə əsas bərpa məqsədlərindəndir.

**Statistika sahəsində vəziyyət:** Hökumət effektiv siyasətlərin hazırlanmasında dəlillərin həlledici rol oynadığını qəbul edir. Azərbaycan Avropa Statistika Standartlarına (ASS) uyğunlaşmağı hədəfləyir. 2019-cu ildə Dövlət Statistika Komitəsi və BMTİP birlikdə Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli Məlumatlandırma Portalı yaradıb. Dövlət Statistika Komitəsi həmçinin DİM-lər üzrə hesabat verməyə başlayaraq, 86 göstərici üzrə statistik məlumatları təqdim edib. Milli statistik məlumatlar bazası UNFPA-nın dəstəyi ilə bir sıra sektorlarda cins üzrə dezaqreqasiya olunmuş yeni göstəricilər üzrə mütəmadi olaraq yenilənir. Bir çox sahələrdə məlumat problemləri mövcuddur və bu problemlər məlumat sistemlərinin gücləndirilməsində BMTÖİH-nin oynaya biləcəyi aparıcı rolun göstəricisidir. 2020-ci ilin əvvəllərində DİM-lərin monitorinqi və hesabatvermə üzrə məlumat çərçivəsini gücləndirmək üçün BMTÖİH və DSK tərəfindən birgə işçi qrupu yaradılıb. UNİCEF-in dəstəyi ilə milli Çoxgöstəricili Klaster Sorğusunun (MİCS) icrası da gözlənilir.

**Milli büdcə ayırmaları və DİM-lər:** milli büdcə DİM-lərin icrası ilə birbaşa əlaqəli deyil. 2020-ci ildə büdcə kəsirinin olacağı - xərclərin 16,58 milyard ABŞ dolları, gəlirlərin isə 16,23 milyard ABŞ dolları olacağı gözlənilir.[15] 2020-ci ilin sonunadək, Bakıdan başqa digər şəhər və rayonlardan daxil olan gəlirlər 494 milyon ABŞ dolları olacaq. Bu, 2019-cu illə müqayisədə 28,6% artım deməkdir. Dövlət Neft Fondundan büdcəyə transferlər 2016-cı ildəki 7,6 milyard manatdan 2020-ci ildə 11,3 milyard manata qalxıb.[16] 2020-ci ilin büdcəsinin əsas xüsusiyyətlərindən biri sosial xərclərin 9,9% artaraq ümumi büdcənin təqribən 40,7%-nə çatmasıdır. Qeyri-neft gəlirlərinin artırılmasına səy göstərilməsinə baxmayaraq dövlət xərcləri maliyyə resurslarından daha yüksək templə artmağa davam edir. Ölkə COVID-19 pandemiyasının sosial-iqtisadi təsirlərini və Azərbaycanın Dağlıq Qarabağ regionu və onun ətrafında baş vermiş münaqişənin mənfi təsirlərini aradan qaldırmaq üçün səhiyyə və sosial xidmətlərə daha çox resurslar ayırdığından, bu tendensiya gələcəkdə də davam edəcək. Nəticədə maliyyə kəsirinin büdcə sənədlərində proqnozlaşdırıldığından daha çox olacağı gözlənilir. Qarşıdakı illərdə sosial və ətraf mühit xidmətlərinə tələbatın artacağını nəzərə alaraq dövlət-özəl sektor tərəfdaşlıqları vasitəsilə dövlət-özəl sektor dialoqunun yaxşılaşdırılması daha böyük kapital cəlb etmək üçün istifadə edilə bilər.

[15] 2020-ci ildə neft qiymətlərinin aşağı düşməsi və COVID-19 böhranı nəticəsində vergi daxilolmalarının azalması ilə əlaqədar olaraq gəlirlərin kəskin dərəcədə aşağı düşməsi gözlənilir.

[16] https://www.oilfund.az/report-and-statistics/budget-information/4
https://www.oilfund.az/report-and-statistics/budget-information/41

## 1.3. Dayanıqlı İnkişaf Məqsədlərinə Nailolma İstiqamətində İrəliləyiş

Bəzi hədəflərə çatmağın qeyri-mümkünlüyü riski olsa da, Azərbaycan 2030-cu il Gündəliyinə nail olma istiqamətində nəzərəçarpan irəliləyiş əldə etmək əzmindədir. Ölkə 17 DİM-i, onların müvafiq 88 hədəfini və 119 göstəricisini prioritetləşdirib. Göstəricilər və hədəflər milli prioritetlər, strategiyalar və ölkənin inkişaf ehtiyacları əsasında seçilib. DİM təşəbbüsü təqdim ediləndən bir il sonra 2016-cı ildə Hökumət Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasını (DİMƏŞ) yaratdı. Yüksək səviyyəli dövlət qurumu olan DİMƏŞ-in funksiyası DİM hədəflərinin dövlət strategiyalarına, planlarına və proqramlarına inteqrasiyasını əlaqələndirmək və ölkənin 2030-cu il Gündəliyinin icrası istiqamətində irəliləyişinə nəzarət etməkdir. Şuranın katibliyi İqtisadiyyat Nazirliyində yerləşir və baş nazirin müavininin sədrlik etdiyi Şuraya hesabat verir. Bu günədək iki Könüllü Milli Hesabat hazırlanıb və DİM-lər üzrə Milli Məlumatlandırma Portalı istifadəyə verilib. Bu tədbirlər birgə tərəfdaşlıq prioritetlərinin əlaqələndirilməsinə və izlənilməsinə imkan verən aydın çərçivə təmin edib.

**DİM-lər üzrə Könüllü Milli Hesabat:**
2019-cu ilin Könüllü Milli Hesabatında 4-cü, 8-ci, 10-cu, 13-cü, 16-cı, 17-ci DİM-in icrasında əldə olunan nailiyyətlər, öyrənilmiş dərslər və davam edən çətinliklər vurğulanıb. Əsas çətinliklər aşağıdakılar olub:

- Statistik çərçivənin kifayət qədər inkişaf etməməsi və uyğunlaşdırılmaması, statistik çərçivə və hədəflərin prioritetləşdirilməsi üçün istifadə edilə biləcək hərtərəfli və keyfiyyətli məlumatların olmaması; [17]

- Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun ətrafındakı ərazilərdə davam edən münaqişə və uzunmüddətli siyasi həllin tapılmaması DİM-lərə nail olunmasına maneçilik törətməkdə davam edir;

- Ətraf mühitə təsirlər barədə məlumatlılığın məhdudluğu iqlim dəyişikliyi ilə mübarizəyə mənfi təsir edir, resursların səmərəli və məsuliyyətli şəkildə istehlakını, əsas sənaye sahələrində tullantıların idarə edilməsini və dövri iqtisadiyyata keçidi şərtləndirir.

Öyrənilmiş dərslərə özəl sektorun iştirakının və DİM-lərin maliyyələşdirilməsinin artırılması, habelə digər dövlət planlaşdırma sənədləri ilə yanaşı dövlət büdcəsinin tərtibi proseslərinə milliləşdirilmiş DİM hədəfləri və göstəricilərinin inteqrasiya edilməsi və xərclərin göstərilməsi daxildir.

**Ölkə üzrə Ümumi Təhlilin nəticələri**

Ölkə üzrə Ümumi Təhlil (ÖÜT) DİM-lərə nail olmaq üçün səylərin artırılmalı olduğu altı əsas sahəni müəyyənləşdirir: 1) gənclərin və digər qrupların, məsələn, iqtisadi sarsıntılara həssas olan qadınlar və kiçik fermerlərin gəlir qazanma qabiliyyəti; 2) cəmiyyətdə ən həssas qruplara xüsusilə təhsil, səhiyyə və ədliyyə sahələrində göstərilən dövlət xidmətlərinin keyfiyyəti və əlçatanlığı; 3) ətraf mühitin çirklənməsi və deqradasiya; 4) coğrafi və gender əsaslı bərabərsizliklər; 5) dəlillərə əsaslanan inkişaf siyasətlərini hazırlamaq üçün institusional potensial; 6) Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun ətrafında baş vermiş münaqişənin uzunmüddətli nəticələri. Təhlil müəyyən etmişdir ki, bəzi qruplar 2015-ci ildəki valyuta devalvasiyası ilə bağlı böhran, eləcə də COVID-19 pandemiyası və 2020-ci ildə hərbi əməliyyatların alovlanmasının nəticələrindən digərləri ilə müqayisədə

[17] Ölkə üzrə Ümumi Təhlilin nəticələri aşağıdakıları göstərir: 1) əsas məsələlərlə bağlı məlumatların azlığı; 2) məlumatların dezaqreqasiya edilməməsi; 3) məlumatların etibarlığı ilə bağlı narahatlıqlar; və 4) birbaşa məlumat boşluqları - bütün DİM göstəricilərinin yalnız 35 faizi üzrə məlumatların mövcudluğu.

daha çox zərər çəkib, bu da ölkəni həmin sarsıntılara qarşı uzunmüddətli dayanıqlılığı təmin edən yeni siyasətlər qəbul etməyə sövq edir. Buna görə də ÖÜT inkişaf çağırışlarının həssas qruplara spesifik təsirini təsdiq edən və insan hüquq və azadlıqlarından istifadə və rifah səviyyəsində konkret dəyişikliklərə yönələn insan yönümlü yanaşma tövsiyə edir.

Bu çətinliklər həssaslığı müəyyən edən faktorlara münasibətdə qiymətləndirildikdə, aşağıdakı üç qrupun kənarda qaldığı vurğulandı:

- **Uşaqlar:** xüsusilə iri ev təsərrüfatlarında, məcburi köçkün icmalarında, küçədə və ya uşaq müəssisələrində yaşayan uşaqlar. Sağlamlıq imkanları məhdud olan uşaqların və qızların da daha çox zəifliklərə sahib olduğu müəyyən edildi.
- **Qadınlar:** xüsusilə köçkünlük şəraitində yaşayanlar, habelə tək analar, kənd yerlərində yaşayan yeniyetmə qızlar, gender zorakılığı qurbanları və çətin həyat şəraitində yaşayan hamilə qadınlar; və
- **Digər qruplar:** əlilliyi olan şəxslər, kənd yerlərində yaşayan məcburi köçkünlər, kiçik fermerlər, narkotik və psixotrop maddələrdən sui-istifadə edən insanlar, yaşlı kişilər və qadınlar, qaraçılar, qaçqın və vətəndaşlığı olmayan şəxslər, miqrantlar, LGBTI şəxsləri və insan alveri qurbanları. Bundan əlavə, gənclər gələcək əmək bazarlarının tələblərinə uyğun bacarıqlarla təchiz olunmadıqları üçün inkişafdan tam yararlana bilməyib.

ÖÜT dayanıqlı inkişaf sahəsində müəyyən edilmiş beş çətinliyin davamlı olması səbəbindən təcridolunmanın təməl səbəblərini aradan qaldırmaq üçün COVID-19 və 2020-ci ildə hərbi əməliyyatların başlanmasından sonrakı bərpa mərhələsindən siyasətlərin katalizatoru kimi istifadə olunmasını təklif edir.

Məsələn, qadınlar və kişilər arasında əmək haqqı və mülkiyyət əldə etmək imkanının qeyri-bərabərliyi ev təsərrüfatlarının yaşayış üçün vasitələrini saxlamaq və yoxsulluqdan yayınmaq imkanlarını məhdudlaşdırır. Əlilliyi olan uşaqların məktəblərə qəbulu müxtəlif formalarda davam etsə də, stereotip əsaslı münasibətlər onların öz təhsillərini davam etdirməsi ehtimalını azaldır. 2019-cu ildə, tamamilə tibbi təsnifata əsaslanaraq əlilliyi qeydiyyata alınmış təxminən 54000 məktəbyaşlı uşaq arasında, 14301 nəfər xüsusi təhsilin milli qanunvericilikdə müəyyən edilmiş müxtəlif formalarında iştirak edib.[18] Təhsil Nazirliyindən verilən məlumata görə, sağlamlıq imkanları məhdud uşaqların nəzərəçarpan hissəsi ümumi təhsil müəssisələrində təhsil alır.

Rəqəmsal fərq kənd yerlərində yaşayan insanların və şəhər yerlərində yaşayan yoxsul qrupların elektron dövlət xidmətlərindən faydalanmasına imkan vermir. 2020-ci ilin yanvarın 1-nə olan məlumata əsasən, orta aylıq gəliri 200 manatdan aşağı olan ev təsərrüfatlarının cəmi 4,8%-i kompüterə malikdir, orta aylıq gəliri 400 manatdan yuxarı olan ev təsərrüfatlarının isə 80,1%-i kompüterə malikdir. Analoji olaraq, Bakıda hər 100 sakinə düşən internet istifadəçilərin sayı 91,7-dir. Lerik bölgəsində isə bu rəqəm 71,1-dir.

İnkişaf fərqlərinə səbəb olan təcridolunmanın təməl səbəblərinin aradan qaldırılması zərurəti ilə bağlı müşahidələr BMT-nin insan hüquqları mexanizmlərinin, o cümədən İnsan Hüquqları Şurasının bir sıra son tövsiyələri ilə uzlaşır. 2018-ci ildə üçüncü Universal Dövri İcmal aparılıb. Ölkə təqdim olunan 259 tövsiyədən 179-nu icra üçün, 66-nı isə sonrakı baxış üçün qəbul edib.[19] Hökumətin dəstəklədiyi bəzi tövsiyələr spesifik olaraq ÖÜT təhlilində "kənarda qalan qruplar" kimi müəyyən olunan qruplara yönəlir. Məsələn:

[18] Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi və UNICEF, 2019. UNİCEF tərəfindən hesablanmışdır.

[19] https://lib.ohchr.org/HRBodies/UPR/Documents/Session30/AZ/MatriceRecommendationsAzerbaijan.docx

**140.105** Qadınların öz sağlamlıq vəziyyətləri və ailə planlaşdırması üçün abortdan istifadə ilə bağlı qərar vermək imkanına malik olmasını təmin etmək;

**140.144** Bütün əlilliyi olan uşaqların inklüziv təhsil almaq imkanını təmin etmək məqsədilə proqram və layihələrin həyata keçirilməsini davam etdirmək;

**141.99** "Qaçqın" anlayışının tərifinin "Qaçqınların statusu haqqında" 1951-ci il Konvensiyasının 1-ci maddəsinə uyğunluğunu təmin etməklə sığınacaq axtaran bütün şəxslərin sığınacağın verilməsi sisteminə daxil ola bilməsinə imkan yaratmaq;[20]

**140.97** Dayanıqlı kənd təsərrüfatının gücləndirilməsi istiqamətində tədbirlərin görülməsi də daxil olmaqla kənd yerlərində yoxsulluğun səviyyəsinin azaldılması üzrə siyasətləri gücləndirməyə davam etmək.

Bu tövsiyələr və DİM-lər arasındakı qarşılıqlı əlaqəni nəzərə alaraq BMTDİƏÇ onların sistemli şəkildə həyata keçirilməsi və hökumət tərəfindən irəliləyiş barədə hesabat verilməsi üçün bir platforma təmin edir. Beləliklə, bütün nəticələrin və göstəricilərin hazırlanması təcrid olunmuş qrupların dayanıqlı inkişaf proqramlaşdırması nəticəsində insan hüquqlarından nə dərəcədə istifadə etdiyini ölçməyə kömək edən ilkin vəziyyət göstəriciləri və hədəflərlə müşayiət olunur. Bu hədəflərə doğru irəliləyişi sürətləndirə biləcək siyasət mexanizmlərinə xüsusi diqqət yetirilir. ÖÜT bir neçə potensial sürətləndirici və təkanverici element təklif edir: 1) xidmətlərin göstərilməsini mərkəzsizləşdirmək; 2) dəlillərə əsaslanan siyasətlərin hazırlanmasını təşviq etmək; 3) dövlət funksiyalarının təkrarlanmasının və özəl sektorun sıxışdırılmasının qarşısını almaq; 4) artım və maliyyə mənbələri üçün neftdən həddən artıq asılılığı azaltmaq; 5) korrupsiya ilə bağlı təsəvvürləri aradan qaldırmaq; 6) hüquqi icranın təmin edilməsi və əməletmə ilə bağlı məhdudiyyətləri müəyyən etmək.

[20] "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" Qanuna əsasən, "Qaçqın" anlayışı istinad edilən 1951-ci il Konvensiyasına tam uyğundur.

## 1.4. Boşluqlar və Çətinliklər

Ölkə üzrə Ümumi Təhlil nəzərəçarpan irəliləyişə baxmayaraq Hökumət tərəfindən seçilmiş 17 DİM və 88 hədəfdən 6-na xüsusi diqqət yetirilməli olduğunu vurğulayıb. Bunlar aşağıdakılardır:

- **Hədəf 3.4:** qeyri-infeksion xəstəliklər nəticəsində vaxtından qabaq ölüm hallarını azaltmaq;
- **Hədəf 5.5:** rəhbər vəzifələrdə qadınların payı;
- **Hədəf 7.2:** ümumi enerji istehsalında bərpa olunan enerjinin payı;[21]
- **Hədəf 8.3:** qeyri-rəsmi məşğulluq;
- **Hədəf 9.5:** elmi tədqiqat xərcləri;
- **Hədəf 11.6:** çirklənmə və tullantıların idarə edilməsi.

Könüllü Milli Hesabatlar, Ölkə üzrə Ümumi Təhlil və Strateji Prioritetləşdirmə Seminarının nəticələri ilə bağlı aparılmış təhlillər 2030-cu il Gündəliyinə tam nail olma istiqamətində irəliləyişə mane olan əsas boşluqları ortaya çıxarır. Sosial, gender və gəlir bərabərsizliklərinin əsasən coğrafi xarakterli olduğunu nəzərə alsaq, boşluqlar həm şaquli (yəni sektoral), həm də üfüqi (yəni inzibati) xarakterlidir.

**1-ci boşluq: Həssas qruplar üçün əlçatan olan gəlir imkanlarının məhdudluğu (zəif insan kapitalı ilə birlikdə götürülməklə).** Əhalinin 40%-nin gəliri yoxsulluq həddindən cüzi yüksəkdir[22], dövlət sektorunda əmək haqları da (əsasən qadınların üstünlük təşkil etdiyi işlər) nisbətən aşağıdır. Sosial müdafiə tədbirləri bu məsələlərdən bəzilərini həll etsə də, fərdləri səlahiyyətləndirən və uzunmüddətli dayanıqlılığı artıran həll yolları tapılmalıdır.

**2-ci boşluq: Birbaşa göstərilən dövlət xidmətlərinin (o cümlədən təhsil[23], səhiyyə və sosial müdafiə sektorunda) ən həssas qruplar üçün kifayət qədər əlçatan olmaması.** Çünki ünvanlı siyasət tədbirləri məlumatların azlığı və dezaqreqasiyanın aparılmaması səbəbindən məhduddur. 2030-cu ilədək gələcəyə baxışa nail olmaq və bu boşluğu aradan qaldırmaq üçün Dövlət Maliyyəsinin İdarəolunması sahəsində islahatlar, xüsusilə Ortamüddətli Xərc Çərçivələrinin tətbiqi həlledici olacaq.

[21] Ölkə üzrə hədəf göstəricisi kimi bərpa olunan enerji mənbələri hesabına qoyuluş gücünün 2030-cu ilədək 17%-dən 30%-ə çatdırılması hədəf kimi qoyulmuşdur.

[22] 2018-ci ildə milli yoxsulluq həddi minimum istehlak səbəti əsasında 175,2 manat olub.

[23] Bu çətinliklərə baxmayaraq, koronavirus pandemiyasının təsirlərini minimuma endirmək məqsədilə müsbət addımlar atılmışdır. Nazirlər Kabinetinin qərarına əsasən sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan 15209 tələbənin (12124 ali təhsil, 2830 orta ixtisas və 255 nəfər peşə təhsili) təhsil haqqı xərcləri ödənilmişdir. Bu tədbirlər 2020-2021-ci illərdə də davam etdirilmiş və 15218 tələbəyə şamil edilmişdir. Bununla yanaşı, 17 mindən çox məcburi köçkün statusuna malik olan, valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun ətrafında baş vermiş münaqişədə həlak olmuş şəxslərin uşaqları, əlilliyi olan tələbələrin təhsil haqqı dövlət büdcəsi hesabına ödənilib. Bu qərar 2020-ci ildə ali təhsil müəssisələrinə qəbul olunan tələbələrin 50 faizindən çoxunun dövlət büdcəsi hesabına təhsil almasına imkan vermişdir.

**3-cü boşluq: Ətraf mühitin çirklənməsi və deqradasiya** insan inkişafı, ekoloji sabitlik və artımı sarsıdır. Neftdən asılılıq bu boşluğa töhfə verir və Azərbaycan müxtəlif beynəlxalq plan və protokollara qoşulsa da, bu sahədə səylərin daha da gücləndirilməsinə ehtiyac var.

**4-cü boşluq: Coğrafi və gender əsaslı bərabərsizliklər** coğrafi və bazar təcridinin qadınlara təsirini kifayət qədər aradan qaldırmayan kənarlaşdırıcı sosial praktika və siyasətlərin nəticəsi olaraq davam edir.[24] Bunlar gəlirin əldə edilməsindən tutmuş, xidmətlərə çıxış imkanınadək müxtəlif aspektlərdə müşahidə olunur.

**5-ci boşluq: Əsas qurumlarda, məsələn, səhiyyə, təhsil və biznesə dəstək xidmətlərində potensial baxımından boşluqlar** qalır. Önəmli dərəcədə yaxşılaşmalara baxmayaraq insan kapitalındakı boşluqlar, şəffaflıq məsələləri və korrupsiya təsəvvürləri ictimai inamı sarsıdır və xidmətlərin kompaktlaşdırılmasının iqtisadi faydalarını məhdudlaşdırır.

Bu boşluqlar qısamüddətli cavab tədbirləri deyil, struktur yönümlü islahatlar tələb etdiyindən, BMTÖİH onların əsasında siyasət səviyyəsində dəstək göstərə biləcəyi bir sıra başlanğıc nöqtələr müəyyən edib. Növbəti bölmədə daha ətraflı təsvir edildiyi kimi, bu cavabın hazırlanmasında BMTÖİH, Hökumət siyasətlərini məlumatlandıran və dəstəkləyən tədbirlərlə yanaşı, spesifik olaraq kənarda qalanların xeyrinə milli potensialları gücləndirməyə kömək edən tədbirlərə diqqət yetirib.

[24] Məsələn, Cini əmsalı 2000-ci ildəki 3,47-dən 2018-ci ildə 17,07-ə yüksəlib.



# **BÖLMƏ 2:** BMT İNKİŞAF SİSTEMİNİN 2030-CU İL GÜNDƏLİYİNƏ DƏSTƏYİ

Bu bölmə BMT inkişaf sisteminin Azərbaycana prioritetləşdirilmiş DİM hədəflərinə və göstəricilərinə nail olmaqla, 2030-cu il Gündəliyinə nailolma istiqamətində irəliləyişin sürətləndirilməsində ən yaxşı hansı formada dəstək göstərə biləcəyini vurğulayır. O, BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (2016-2020) üzrə qiymətləndirmənin aşkar etdiyi faktlara, Ölkə üzrə Ümumi Təhlilin ölkə üzrə diaqnostikasının nəticələrinə və maraqlı tərəflərlə məsləhətləşmələrə əsaslanır. Bu bölmə BMT-nin təşkilatlarının insan hüquqlarına yönələn iqtisadi transformasiyaya dəstək üçün vasitə kimi çıxış edən birgə cavabını əks etdirir və inkişaf siyasətləri və təcrübələrinin hər kəsə faydalı olmasını təmin etmək məqsədilə onları yeni çərçivəyə salmaq üçün seçimlər təqdim edir. Xüsusilə özəl sektor və vətəndaş cəmiyyəti, inkişaf və maliyyə institutları və institusional investorlarla yeni tərəfdaşlıqlar təklif edilir. Bu, heç kəsi kənarda qoymamaqla bağlı birgə öhdəliyi nəzərəçarpan nəticələrə çevirmək üçün konkret tədbirləri müəyyənləşdirməyə kömək edir. Bununla belə, bu bölmədəki prioritetlər Hökumətlə və Azərbaycanın kişi və qadınları ilə birlikdə müəyyən olunmuş ehtiyaclara və reallıqlara uyğunlaşdırılmış cavabları təşkil edir.

## 2.1. Dəyişiklik Nəzəriyyəsi

Ölkə üzrə Ümumi Təhlilin (ÖÜT) nəticələrindən istifadə edərək BMTÖİH irəliləyişə mane olan problemləri aradan qaldıran katalitik müdaxilə tədbirləri kimi bir neçə DİM sürətləndiricisi müəyyən edib. 2021-2025-ci illərə yönəlməklə, aşağıda göstərilən dəyişiklik nəzəriyyəsi bu sürətləndiriciləri hər bir prioritet sahə üzrə tədbir, məhsul, nəticə və təsirlər üzrə müəyyən ediləcək boşluqların səbəbləri və həll yolları arasında önəmli əlaqəyə çevirir.

BMTDİƏÇ-in əsasını təşkil edən dəyişiklik nəzəriyyəsinə görə, Azərbaycanda DİM-lərə yalnız adekvat institusional dəstək və dayanıqlılığın artırılması yolu ilə, kənarda qalan insanların öz hüquqlarını həyata keçirmək üçün səlahiyyətləri artırıldığı halda nail oluna bilər. Kənarlaşdırma və təcridetməyə səbəb olan faktorlar aradan qaldırıldıqda, ölkə DİM-lər istiqamətində planauyğun surətdə irəliləyə və COVD-19 pandemiyasının və digər potensial böhranların, o cümlədən münaqişə ilə əlaqədar böhranların insanlara davamlı təsirini yumşalda biləcəkdir. Bu transformasiya ÖÜT-də və Hökumətlə birgə məsləhətləşmələr nəticəsində müəyyən edilmiş potensialla bağlı boşluqları, xüsusilə qərarların qəbulunda ictimai iştirak üçün imkanların artırılması, dövlət və sosial xidmətlərin göstərilməsində hesabatlılığın artırılması və ayrı-seçkiliyin aradan qaldırılmasına yönələn siyasətlərə olan ehtiyacı qarşılayır. Bu transformasiya siyasət cavablarının və nailolma göstəricilərinin zərurətə uyğun deyil, səlahiyyətlərin artırılması əsasında yenidən formalaşdırıldığı yeni düşüncə tərzi tələb edir. Həm hökumət, həm də onun tərəfdaşı olan BMT-nin təşkilatları öz tədbirlərində əsasən hüquq sahibləri qarşısında məsuliyyət daşıyır və bu tədbirlərin keyfiyyətini və effektivliyini ölçmək üçün insan hüquqları sahəsindəki beynəlxalq norma və prinsiplərdən istifadə edir.

Dəyişiklik nəzəriyyəsi həm də BMTÖİH-nin dəstəyinin Hökumət, özəl sektor və inkişaf maliyyəsi institutlarının xərclərinin çox az bir hissəsini təşkil etməsi prinsipi üzərində qurulmuşdur. Nəticədə, BMT sisteminin öz təbii müqayisəli üstünlüyünü əsas götürməsini və heç kəsi kənarda qoymamaq üçün dəlillərə əsaslanan siyasəti yaxşılaşdırmaq və qərarlar qəbul etmək üçün səy göstərməsini təmin edən optimal yanaşma təklif edilir. Təkrarlana bilən və fərdi layihələrlə məhdudlaşmadan miqyası genişləndirilə biləcək qabaqcıl təcrübələrin müəyyən edilməsi və icrası nəticələrə nail olmaq üçün əsas ilkin şərtlərdən biridir. BMTDİƏÇ beynəlxalq təşkilatlar, çoxtərəfli inkişaf bankları və beynəlxalq ictimaiyyət üçün ölkədə DİM-lərin maliyyələşdirilməsinə doğru sistemli dəyişikliklərə təkan vermək baxımından əlverişli imkan yarandığını təsdiq edir.

Bu səbəbdən, BMTÖİH hökumətin aşağıdakı istiqamətlərdə göstərdiyi səylərə dəstək göstərəcək: a) DİM-lərin milli inkişaf planına və pul siyasətinə inteqrasiya edilməsi; b) dövlət və özəl sektor tərəfindən DİM-lərin icrası üzrə məlumatların toplanması, ölçülməsi və izlənməsi üçün səmərəli yanaşmanın hazırlanması; c) DİM-lərin icrası üzrə strategiyaların hazırlanması üçün dövlət və özəl sektor arasında strateji əməkdaşlığın yaxşılaşdırılması; d) "yaşıl" aktiv və layihələrə məsuliyyətli investisiyalar cəlb etmək, saxlamaq və genişləndirmək üçün maliyyə stimullarının və siyasətlərinin yaradılması; e) inklüziv və dayanıqlı biznesləri stimullaşdırmaq və dəstəkləmək üçün dövlət-özəl sektor tərəfdaşlığı üzrə proqramların idarə edilməsi; f) dövlət maliyyələşdirmə siyasətlərində qeyri-maliyyə risklərinin idarə olunması sistemlərinin (ekoloji, sosial və idarəçilik təcrübələri ilə bağlı) uzlaşdırılması; g) "yaşıl artım"a dəstək üçün zəruri şərtləri təmin edən Kompleks Milli Maliyyələşmə Çərçivəsinin hazırlanması. Bu yanaşma Hökumətin milli inkişaf hədəfləri istiqamətində resursların ayrılmasının optimallaşdırılması, eləcə də onların DİM gündəliyinə uyğunlaşdırılması ilə bağlı ehtiyaclarına vahid cavab təmin etməyə kömək edəcək. Bundan əlavə, BMTÖİH dövlət qurumları və özəl sektor arasında dialoqun və əlaqələndirmənin genişləndirilməsi və beynəlxalq təşkilatlar və investorlarla əlaqələrin inkişaf etdirilməsində strateji rol oynayacaq.

**Struktur yönümlü həll yollarına imkan yaradan dəyişiklik**

BMTDİƏÇ sənədi ayrı-ayrı təşkilatlar üzrə spesifik layihələrdən, təcridolunmanın təməl səbəblərini aradan qaldıran və hökumətin prioritetləri ilə daha çox uyğunlaşan birgə və struktur yönümlü həll yollarına keçir. Bunun üçün, o, BMTÖİH tərəfdaşlarının yeni bir qrupunun birbaşa hüquq sahibləri ilə ünsiyyətdə olduğu, nəticələr və məhsullar səviyyəsində yeni iş üsulu təqdim edir. Bu yeni metod ona görə seçilib ki, Azərbaycanla işləyən bütün BMT qurumlarını cəmiyyətdəki ən həssas qrupları əhatə edən qarşılıqlı faydalı bir iştirak ətrafında birləşdirir və həmçinin BMT sisteminin dayanıqlı inkişaf nəticələrinə verdiyi töhfəni daha yaxşı öyrənməyə kömək edir.

BMT öz səylərini kənarda qalanlar üçün dövlət siyasətinin gücləndirilməsinə yönəltdiyindən, qurumların DİM-lə bağlı vədləri yerinə yetirmək və ölkənin insan hüquqları ilə bağlı öhdəliklərini yerinə yetirmək üçün yaxşı təchiz olunmasını təmin etmək üçün bir sıra addımlar atılır. BMTDİƏÇ çərçivəsində dəlilləri yaxşılaşdırmaq, qabaqcıl təcrübələrdən faydalanmaq, yeni maliyyələşdirmə üsullarından istifadə etmək və təsirlərin monitorinqi və qiymətləndirilməsini gücləndirmək üçün institusional potensiallar daha da gücləndirilir. Nəzəriyyəyə əsasən, ekspert məsləhətlərinə əsaslanan sistem dəyişikliklərinin edilməsi və insanların bütün qərarların diqqət mərkəzinə gətirilməsi daha çox multiplikator effekti yaradır. Beləliklə, kənarda qalanları əhatə etmək üçün dövlət siyasətlərinin gücləndirilməsi və institusional potensialların inkişaf etdirilməsi mövcud sistemlərə müsbət dəyişikliklər gətirəcək və dövlət siyasətinin insanlara təsirini yaxşılaşdıracaq. Məsələn, təhsil, səhiyyə və kənd təsərrüfatına dəstək layihə əsaslı deyil, sistemlərə yönəlir. İnklüziv və gender baxımından bərabər artıma dəstək siyasət, normativ baza və qabaqcıl təcrübələrin inkişafına yönəlir. Bu cür dəstək ayrılan maliyyə vəsaitlərini bir araya toplayan və ölkənin prioritet DİM-ləri üçün istifadə edən və dövlət siyasətləri üzrə məsul şəxslərin prioritet sahələrdə dünya səviyyəli bilik və təcrübələrə çıxış imkanına kömək edən ölkə səviyyəli **"DİM Sürətləndiriciləri üzrə Ümumi Fond"** vasitəsilə təmin edilə bilər. Bundan əlavə, BMT-nin Birgə DİM Fondu Kompleks Milli Maliyyələşdirmə Çərçivəsinin (İNFF) ənənəvi dövlət maliyyə idarəetməsi modelləri ilə məhdudlaşmayaraq özəl xarakterli resursları əhatə edən maliyyə planlaşdırması və idarəetməsinə dair vahid gələcəyə baxışa əsaslanmasını təmin edəcək. Bu, DİM-lərlə uzlaşdırılmış gələcək siyasətləri həyata keçirməyə, eləcə də kompleks və gender aspektlərini əhatə edən maliyyələşdirmə çərçivəsinin təşviqinə kömək edəcək.

**Dayanıqlılığın artırılması və həssaslığın azaldılması**

Sosial və iqtisadi sarsıntılara qarşı həssaslıq fərd və ya qrupun təbii yaxud insan fəaliyyəti nəticəsində baş verən fəlakətin təsirlərini qabaqcadan nəzərə almaq, öhdəsindən gəlmək və dirçəlmək qabiliyyətinin məhdud olduğunu ehtiva edir. Ölkə üzrə Ümumi Təhlil göstərdi ki, əhalinin həssas qrupları və yoxsulluq içində yaşayan insanlar bu fövqəladə hadisələrin öhdəsindən gəlmək üçün zəruri olan bacarıq və mexanizmlərə malik olmadığından böhranların mənfi təsirinə məruz qalmaq ehtimalı daha böyükdür. Buna görə də Əməkdaşlıq Çərçivəsi elə bir tərzdə icra ediləcək ki, insanların və qurumların fəlakətlərə qarşı daha yaxşı hazırlaşmaq, planlaşdırmaq və cavab tədbirləri görmək imkanlarını gücləndirsin. Bütün dəstək tədbirlərində bacarıqlar səviyyəsində, eləcə də həssaslığı azaldan və hazırlığı yaxşılaşdıran xidmətlərin müyəssərliyində və keyfiyyətində dəyişikliklərə nail olunmasına xüsusi diqqət yetirilir. Buraya, məsələn, məşğulluq və sahibkarlıq hədəfləri, yüksək təsirli səhiyyə tədbirləri, qərarların qəbulunda ictimai iştirakı yaxşılaşdıran mexanizmlər və kənd təsərrüfatı və iqlim dəyişikliyi ilə mübarizədə, habelə şəhər ərazilərinin və “ağıllı şəhər”lərin inkişafında adaptiv texnologiyalar və siyasətlər daxildir. İnformasiya və kommunikasiya texnologiyalarının COVID-19 pandemiyası ilə mübarizə və münaqişədən sonrakı bərpa və yenidənqurma prosesində əhəmiyyətini nəzərə alaraq BMTÖİH əhalinin həssas qrupları üçün dövlət və sosial xidmətlərə çıxış imkanını asanlaşdıran və e-idarəçilik sistemlərini gücləndirən yeni rəqəmsal potensialların qurulmasına dəstək göstərəcək. Dayanıqlılıq xüsusiyyətlərinin müxtəlif qrupların vəziyyətində və risklərin öhdəsindən gəlmək qabiliyyətində nə dərəcədə müsbət əks olunduğunu qiymətləndirmək üçün bütün göstəricilərdə məlumatların dezaqreqasiyasından istifadə olunacaq.

**Bərpa səylərinin gücləndirilməsi**

Bu Əməkdaşlıq Çərçivəsi Azərbaycanın münaqişədən zərər çəkmiş ərazilərinin yenidən qurulması və bərpasına, minlərlə məcburi köçkünün təhlükəsiz və könüllü qayıdışı üçün şəraitin yaradılmasına yönələn iddialı bir milli bərpa planının həyata keçirilməsinə başladığı bir dövrdə hazırlanmışdır. Bütün nəticələr münaqişədən zərər çəkmiş əhali qruplarının reinteqrasiyasını və sosial-iqtisadi inkişafını və bununla da uzunmüddətli sosial birliyin və sülhün yaradılması üçün milli səyləri dəstəkləyən formatda hazırlanmışdır. BMTÖİH bərpa fəaliyyətlərinin planlaşdırılması və icrasını dəstəkləmək üçün müvafiq beynəlxalq təcrübələrin və alətlərin müəyyənləşdirilməsi və tətbiqində Azərbaycan Hökuməti və inkişaf tərəfdaşları ilə birgə işləyəcəkdir. Buraya bərpa və sülhyaratma səylərinin və proseslərinin müəyyənləşdirilməsi, prioritetləşdirilməsi və ardıcıllığının təmin edilməsində Hökumətə kömək etmək üçün “Bərpa və sülhyaratma işləri üzrə qiymətləndirmə” metodologiyasının istifadəsi daxildir. Nəhayət, BMTDİƏÇ, BMT-nin “Qadınlar, sülh və təhlükəsizlik” və “Gənclər, sülh və təhlükəsizlik” haqqında qətnamələri daxil olmaqla, münaqişədən sonrakı bərpa sahəsində normativ çərçivələrində Hökumət və vətəndaş cəmiyyəti ilə əməkdaşlıq potensialını gücləndirəcəkdir.

**Dövlət siyasəti və investisiyasını gücləndirmək üçün dəlillərin yaxşılaşdırılması**

Hökumət dövlət siyasəti və investisiyalarının əsaslandığı dəlillər bazasının yaxşılaşdırılması zərurətini qəbul edir. Buna görə də, BMT sistemi müəyyən edilmiş prioritet sahələrdə məlumatların toplanması, təhlili və hesabatvermə üçün səlahiyyətli orqanlarla, elmi tədqiqat institutları ilə və vətəndaş cəmiyyəti təşkilatları ilə işləyəcək. DİM üzrə məlumatların toplanması və monitorinqi üsullarını gücləndirmək üçün 2020-ci ilin əvvəlində BMTÖİH və Dövlət Statistika Komitəsi tərəfindən müştərək İşçi Qrupu yaradıldı. Əlavə əməkdaşlığa bütün nəticə sahələri, məsələn, inklüziv artım, dəyər zəncirləri, iqtisadi subyektlər üçün bərabər imkanlar kimi bütün nəticə sahələrində diaqnostik təhlillər və su və ətraf mühit məsələləri üzrə regional əməkdaşlıqla bağlı qiymətləndirmələr daxil olacaq.

**Mövcud sistemlər daxilində insan kapitalının gücləndirilməsi**

İnkişaf çağırışının mərkəzində insan kapitalının genişləndirilməsinə imkan yaradılması dayanır. BMT bu məhdudiyyəti təkbaşına həll edə bilməz. Buna baxmayaraq birbaşa xidmətlər göstərən strukturlar üçün texniki səriştəni gücləndirmək, bazarın tələblərinə uyğun olaraq ibtidai, orta, ali və peşə təhsili arasında əlaqələri yaxşılaşdırmaq və bilik iqtisadiyyatına təməl yaratmaq üçün Hökumət, inkişaf tərəfdaşları, özəl sektor və vətəndaş cəmiyyəti ilə səylərin birləşdirilməsi vasitəsilə dəyişikliklər baş verəcək.

**İnnovativ təcrübələrin, o cümlədən yeni maliyyələşdirmə üsullarının tətbiqi**

Müəyyən edilmiş çətinliklərdən bir neçəsinin transsərhəd xarakterini nəzərə alaraq, prioritet sahələrin hər birində digər ölkələrin nümunəvi təcrübələrinin təqdim edilməsi, sınaqdan keçirilməsi və genişləndirilməsi vasitəsilə dəyişiklik sürətləndiriləcək. Azərbaycan neft və dövlət sektorunun hökmranlıq etdiyi hibrid iqtisadiyyata malik olduğundan innovasiya tələb olunur. Birbaşa xidmətləri təkmilləşdirmək, özəl kapital cəlb etmək, vəsaitlərin ayrılmasından maliyyələşdirməyə keçmək və bilik iqtisadiyyatına dəstək üçün innovasiya mühüm rol oynayacaq. Əməkdaşlıq Çərçivəsinin icrası müddətində innovativ maliyyələşdirmə modellərinin tətbiqi rəqabətliliyi, səmərəliliyi və hesabatlılığı yaxşılaşdıracaq, eləcə də məhsulların hazırlanması və ixracatını təkmilləşdirəcək. Bundan əlavə, alternativ yanaşmalar cəlb etmək üçün özəl sektor, həssas əhali qrupları və vətəndaş cəmiyyəti ilə iş üçün milli innovativ platforma yaradılacaq. BMTDİƏÇ-nin Əməkdaşlıq Çərçivəsinə əməl etmək üçün resursların cəlb edilməsi strategiyası Hökumətin və BMT sisteminin DİM-lərə dəstək üçün yeni kapital formaları cəlb etmək məqsədilə BMT-nin müqayisəli üstünlüklərindən ən yaxşı hansı formada istifadə edə biləcəyini göstərəcək.

**Qarşılıqlı asılı dəyişikliklərə şərait yaradılması**

Çərçivə BMT-nin tədbirlərinin nəticələrinin bir-biri ilə qarşılıqlı asılı və qarşılıqlı əlaqəli olduğunu təsdiq edir. BMT-nin çoxsahəli planlaşdırma üzrə təcrübəsi inklüziv artım, birbaşa xidmətlər (təhsil, səhiyyə, kənd təsərrüfatı və ədliyyə), ətraf mühit və gender prioritetləri arasındakı əlaqələri gücləndirəcək. Məsələn, təcrid olunmuş icmalar üçün inklüziv artımın sürətləndirilməsi insan kapitalının inkişafından və şəhər-kənd bərabərsizliklərinin aradan qaldırılmasından ayrı şəkildə uğur qazana bilməz. Analoji olaraq ilkin səhiyyə xidmətinin təkmilləşdirilməsi su və sanitariya infrastrukturu və ətraf mühitin çirklənməsi ilə güclü əlaqələrə malikdir. Gender bərabərliyinin təkmilləşdirilməsi inkişaf çətinliklərinin kişi və qadınlara, oğlan və qızlara fərqli təsirlərini qəbul edən “bütün hökumət” və “bütün bazar” yanaşması tələb edəcək. Dəyişiklik nəzəriyyəsinə əsasən, inkişaf boşluqları təksahəli iştirak vasitəsilə deyil, hərtərəfli və çoxaspektli yanaşma ilə doldurula bilər.

**Dövlət siyasəti üzrə dialoqu yaxşılaşdırmaq üçün milli platformaların yaradılması**

Dəyişikliyin baş verməsi üçün özəl sektor və vətəndaş cəmiyyəti xüsusilə coğrafi və gender əsaslı bərabərsizliklərin olduğu ərazilərdə və iqtisadiyyatın şaxələndirmə probleminə malik hissələrində iştirak etməlidir. Lakin özəl sektor və vətəndaş cəmiyyətinin qərarların qəbulu prosesində dayanıqlı iştirakı üçün imkanlar məhdud olaraq qalır. Kənarda qalan qrupların siyasətlərdə daha yaxşı təmsil olunması və qərarların qəbul edilməsi prosesinə cəlb olunması üçün özəl sektor və vətəndaş cəmiyyəti ilə daha intensiv dialoq zəruridir. İşəgötürənlərin və işçilərin təşkilatlarının iqtisadiyyatın və əmək bazarının çətinliklərinin aradan qaldırılmasına yönələn milli səylərdə iştirakı da dövlət siyasətinin əsas komponentlərindən biridir. Buna görə də BMT sistemi bu müxtəlif maraqlı tərəflərlə dialoqa dəstək göstərmək üçün milli platformaların yaradılması məqsədilə Hökumətlə işləyəcək. Özünün tərəfləri bir araya gətirmə səlahiyyətindən və normativ rolundan istifadə edərək BMTÖİH bu dialoq üçün əhəmiyyətli istiqamət təmin edəcək və cəmiyyətdə ən az görünən qrupların siyasət cavablarını istiqamətləndirə bilməsini təmin edəcək. Bu yanaşma “aşağıdan-yuxarı” hesabatlılığa zəmin yaradaraq bərabər səviyyəli xidmətlərin göstərilməsində regional və rayon orqanlarının rolunu ön plana çəkəcək.

## 2.2. Strateji Prioritetlər

Ölkə üzrə Ümumi Təhlil prosesindən və potensial boşluqlarının təhlillərindən ortaya çıxan gələcəyə baxış konkretləşdirilərək BMT-nin inkişaf sisteminin 2021-2025-ci illər üçün diqqətini yönəldəcəyi dörd prioritet sahəyə bölünmüşdür. Bu prioritet sahələr ona görə seçilmişdir ki, onlar 2030-cu il Gündəliyinin icrası ilə bağlı milli səviyyəli çətinlikləri əhatə edir və dəyişiklik nəzəriyyəsinin əsasını təşkil edən, xüsusilə cəmiyyətdə səlahiyyət münasibətlərinin qeyri-bərabər paylanmasını, habelə resurslara çıxış imkanları və onların idarə olunmasını əhatə edən transformativ müdaxilə tədbirlərini əks etdirir. Başqa sözlə, bu prioritetlər DİM-lər üzrə irəliləyişə mane olan geniş spektrli təməl səbəb və boşluqların həllinə kömək edir. Bununla yanaşı, bu prioritetlər BMT sisteminin çoxsaylı sektorlar və maraqlı tərəflərlə əməkdaşlıq etməsi və öz müqayisəli üstünlüklərindən tam istifadə etməsi üçün strateji fürsətlər yaradır. Sonuncusu, prioritetlər Hökumət tərəfindən qəbul edilir, çünki onun qarşıdakı beş il müddətinə öz gələcəyə baxışı ilə uzlaşır.

**1-Cİ PRİORİTET SAHƏ:** HƏSSASLIĞI AZALDAN VƏ DAYANIQLILIĞI TƏMİN EDƏN İNKLÜZİV ARTIM

**2-Cİ PRİORİTET SAHƏ:** DÖVLƏT VƏ SOSİAL XİDMƏTLƏRİN DAHA YAXŞI GÖSTƏRİLMƏSİ ÜÇÜN DAHA GÜCLÜ İNSTİTUTLAR

**3-CÜ PRİORİTET SAHƏ:** ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ İQLİM DƏYİŞİKLİYİ İLƏ MÜBARİZƏ

**4-CÜ PRİORİTET SAHƏ:** QADIN VƏ QIZLARIN SƏLAHİYYƏTLƏRİNİ ARTIRAN VƏ GENDER BƏRABƏRLİYİNƏ ƏSASLANAN CƏMİYYƏT

Bu dörd prioritet sahə üzrə, BMTDİƏÇ-nin ölkənin COVID-19 böhranı və 2020-ci ildə Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun ətrafındakı münaqişənin şiddətlənməsi fonunda, 2030-cu il Gündəliyinin hədəflərinə nail olma baxımından planauyğun surətdə irəliləməsini təmin etməsi nəzərdə tutulur. Beləliklə, hədəflər ya rəsmi olaraq beynəlxalq DİM hədəfləri ilə uzlaşdırılır, ya da milli səviyyədə yerliləşdirilmiş hədəflər kimi ifadə olunur. DİM-lərin hər prioritet sahə üzrə nəticələrlə uzlaşması aşağıda təqdim olunur, tam təfərrüatlar isə 1-ci Əlavədə (Nəticələr Cədvəli) göstərilir.

**1-Cİ PRİORİTET SAHƏ:**

2-ci (aclığa son) və 8-ci (layiqli əmək və iqtisadi artım) DİM-lərə yönəlir. Bu nəticə 1-ci (yoxsulluğa son), 9-cu (sənaye, innovasiya), 4-cü (keyfiyyətli təhsil), 10-cu (bərabərsizliyin azaldılması), 11-ci (dayanıqlı şəhərlər və icmalar) və 16-cı (dinc və inklüziv cəmiyyətlərin təşviqi) DİM-lərə də təsir edir.

**2-Cİ PRİORİTET SAHƏ:**

1-ci (yoxsulluğa son), 3-cü (yaxşı səhiyyə və rifah), 4-cü (keyfiyyətli təhsil), 5-ci (gender bərabərliyi), 12-ci (məsuliyyətli istehlak və istehsal), 16-cı (sülh, ədalət və səmərəli institutlar) və 17-ci (məqsədlər üçün tərəfdaşlıq) DİM-lərə yönəlir. Bu nəticə 9-cu (sənaye, innovasiya və infrastruktur), 10-cu (bərabərsizliyin azaldılması) və 11-ci (dayanıqlı şəhərlər və icmalar) DİM-lərə də təsir edir.

**3-CÜ PRİORİTET SAHƏ:**

6-cı (təmiz su və sanitariya), 7-ci (sərfəli və təmiz enerji), 13-cü (iqlim dəyişikliyi ilə mübarizə) və 15-ci (torpaq ekosistemi) DİM-lərə fokuslanır. Bu nəticə 3-cü (yaxşı səhiyyə və rifah), 10-cu (bərabərsizliyin azaldılması), 11-ci (dayanıqlı şəhərlər və icmalar), 14-cü (dəniz ekosisteminin mühafizəsi) və 17-ci (məqsədlər üçün tərəfdaşlıq) DİM-lərə də təsir edir.

**4-CÜ PRİORİTET SAHƏ:**

3-cü (yaxşı səhiyyə və rifah), 5-ci (gender bərabərliyi) və 8-ci (layiqli əmək və iqtisadi artım) DİM-lərə yönəlir. Bu nəticə 3-cü (yaxşı səhiyyə və rifah), 4-cü (keyfiyyətli təhsil), 10-cu (bərabərsizliyin azaldılması) və 17-ci (məqsədlər üçün tərəfdaşlıq) DİM-lərə təsir edir.

BMTÖİH bu prioritetlərin əhatə olunmasında Hökumət və digər maraqlı tərəflərlə işlədiyi üçün onun yaratdığı əlavə dəyər aşağıdakı kimi imkanlar vasitəsilə nümayiş etdiriləcək:

- **siyasətlərin hazırlanması;**
- **məlumatların toplanması, təhlili və hesabatvermə işinin yaxşılaşdırılması vasitəsilə dəlillərin yaradılması;**
- **qabaqcıl təcrübələrin tətbiqi;**
- **maraqlı tərəflərin bir araya gətirilməsi;**
- **uğurlu fəaliyyətlərin sınaqdan keçirilməsi, təkrarlanması və genişləndirilməsi;**
- **sürətli nailiyyətlərin müəyyən edilməsi və təbliği;**
- **inkişaf nəticələri üçün normativ ilkin vəziyyətin təmin edilməsi;**
- **birgə monitorinq və təsirlərin qiymətləndirilməsi.**

Eyni zamanda BMTÖİH-nin bu prioritetlərə strateji töhfəsi üç yolla özünü büruzə verəcək. Birincisi, BMTÖİH COVID-19 pandemiyasından və münaqişədən sonrakı bərpa mərhələsində hər bir prioritet sahə çərçivəsində milli səylərin DİM-lərə nail olunmasına yönəlməsini təmin etməyə köməklik göstərəcək. Bu məqsədlə, BMTÖİH növbəti milli inkişaf strategiyasının (2030-cu ilədək gələcəyə baxış) hərtərəfli, iddialı, lakin əldə edilə bilən olması və DİM-lərin icrasındakı əsas maneələri əhatə etməsini təmin etmək üçün Azərbaycan Hökuməti ilə yaxından işləyəcək. DİM-lər üçün Azərbaycanın 2030-cu ilədək gələcəyə baxışının müəyyən edilməsində BMTÖİH-nin siyasət məsləhətlərindən tutmuş maliyyə modellərinə qədər məsələləri əhatə edən ilkin təklifi Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədrinə təqdim olunmuşdur. Hökumətlə əməkdaşlıq vacibdir, çünki bu strateji baxış gündəlikləri bir-biri ilə uzlaşmasa, səylərin təkrarlanması və resursların israf edilməsi riski yaranır. BMTÖİH uzunmüddətli bərpa ehtiyaclarını qiymətləndirmək üçün erkən cavab mərhələlərində Hökumətdəki və inkişaf ictimaiyyətindəki milli tərəfdaşlarla səmərəli işlədiyindən, əlverişli mövqeyə sahibdir. BMTÖİH-nin rəhbərliyi altında və Hökumət və inkişaf tərəfdaşları ilə məsləhətləşmə şəraitində COVID-19 pandemiyasının sosial-iqtisadi təsirinin qiymətləndirilməsi pandemiyanın əhalinin həssas qruplarına uzunmüddətli təsirini müəyyən etməklə, əvvəlki qiymətləndirmə sənədlərinin (BMTATÇ qiymətləndirməsi və Ölkə üzrə Ümumi Təhlil) nəticələrini tamamlayacaq. Analoji olaraq 2020-ci ilin noyabr ayında hökumətlə birlikdə humanitar ehtiyaclarla bağlı aparılmış qiymətləndirmənin nəticəsi uzunmüddətli cavab tədbirlərinin təməlini qoyacaq. Bu qiymətləndirmələrə əsaslanaraq BMTÖİH Azərbaycanın COVID-19 pandemiyası və münaqişənin səbəb olduğu çətinlik fonunda, 2030-cu il Gündəliyinə nail olma baxımından planauyğun surətdə irəliləməsinə dəstək göstərməyə davam edəcək.

İkincisi, bu prioritetlər üzrə tədbirlərin icrasında, BMTÖİH-nin iştirak modelləri nəticələrin aydınlığını və hesabatlılığı təşviq etməklə, onların keçmişdə olduğu kimi tək-tək qurumların deyil, bütövlükdə BMT inkişaf sisteminin dəstəyi ilə birbaşa əlaqələndirilməsini təmin edəcək. Bu həmçinin Azərbaycana ölkədə birbaşa fiziki iştirakı olmayan BMT təşkilatları vasitəsilə də DİM-lər üzrə geniş bilik bazasından yararlanmaq imkanı verəcək. BMT-nin Avropa İqtisadi Komissiyası, BMT-nin Sənayenin İnkişafı Təşkilatı, BMT-nin Fəlakət Risklərinin Azaldılması Ofisi, BMT-nin Məskunlaşma Proqramı və digərləri kimi bir neçə təşkilat artıq bu prioritet sahələr üçün texniki resurslarını səfərbər etməkdə maraqlı olduqlarını bildirib.

Sonuncusu, BMTÖİH hökumətdəki və inkişaf ictimaiyyətindəki tərəfdaşlarına bu prioritetləri ən optimal şəkildə icra etməyə kömək etmək üçün innovativ alət və metodologiyalarla dəstək göstərəcək. BMT-nin Qlobal Sazişi, DİM-lər üzrə Vətəndaş Cəmiyyəti Forumu kimi platformaları və habelə beynəlxalq və milli könüllülüyə cəlbetmə mexanizmləri hər prioritet sahə üzrə tədbirləri (planlaşdırmadan tutmuş ölçmə və hesabatverməyə qədər) müşayiət edən yeni ideyalar, əlaqələr yaxud icraçı tərəfdaşlar cəlb etməyə köməklik göstərəcək. Bu, əvvəlki çərçivələrlə müqayisədə tərəfdaşlıqların əhəmiyyətli dərəcədə genişləndirilməsinə imkan verəcək və hər prioritet sahə üzrə tədbirlərin daha sistemli təhlili və qiymətləndirilməsi üçün imkan yaradacaq.

## 2.3. Planlaşdırılan İnkişaf Nəticələri

Azərbaycan üzrə BMTDİƏÇ-nin Dəyişiklik Nəzəriyyəsinin icmalı aşağıda təqdim olunur:

| Prioritet sahələr | | Məhsullar | Nəticələr | Hədəf DİM-lər |
|---|---|---|---|---|
| 1-Cİ PRİORİTET SAHƏ | Həssaslığı azaldan və dayanıqlığı təmin edən inklüsiv artım | **1.1.1** Kənarda qalanların faydalanması üçün MKOM-lər və sosial müəssisələr, o cümlədən qadınların məxsus bizneslər yaradılır və dayanıqlığı təmin edilir<br>**1.1.2** Əsas sektorlarda gücləndirilmiş insan kapitalı və səriştəli işçi qüvvəsi mövcuddur<br>**1.1.3** Layiqli əmək, inklüzivlik və əməyin gələcəyinə dair beynəlxalq standartlar siyasətlərdə və praktikada aktual-laşdırılır<br>**1.1.4** Kənd yerlərində yaşayan əhali öz gəlir mənbələrini şaxələndirə və yaşayış üçün vasitələrini dayanaqlı şəkildə yaxşılaşdıra bilir | **1.1** Kənarda qalan şəxslər əmək bazarının gələcək yönümlü transformasiyasını və layiqli əməyə çıxış imkanını əhatə edən şaxələndirilmiş və innovativ iqtisadiyyatda iştirak edir və ondan yararlanır | **2-ci DİM** (Acliğa son)<br>**8-ci DİM** (Layiqli əmək və iqtisadi artım) |
| 2-Cİ PRİORİTET SAHƏ | Dövlət və sosial xidmətlərin daha yaxşı göstər-ilməsi üçün daha insti-tutlar | **2.1.1** Milli təhsil sistemi keyfiyyətli təhsil və təlimə inklüsiv çıxışı təmin etmək üçün gücləndirilir<br>**2.1.2** Milli ilkin tibbi xidmət və qidalanma sistemləri universal əhatəolunma və keyfiyyətli inklüsiv yüksək təsirli tədbirləri təmin etmək üçün gücləndirilir<br>**2.1.3** Dövlət və sosial müdafiə xidmətləri təmin edən müəssisələrin keyfiyyətli, səmərəli və innovativ yollarla ən həssas əhali qruplarını hədəfə almaq üçün potensialı gücləndirilib<br>**2.1.4** İnsan hüquqlarını təşviq və müdafiə etmək, ədliyyə xidmətlərinə və iştirak mexanizmlərinə çıxış imkanını artırmaq və sosial birliyi saxlamaq üçün milli siyasət və mexanizmlər gücləndirilir<br>**2.1.5** Rəqəmsal fərqi aradan qaldırmaq məqsədilə idarəçilik mexanizmlərinin effektiv şəkildə hazırlanması və icra edilməsi, dövlət xidmətlərinin göstərilməsi, gənclərin iştirak və müasirləşdirilməsi istiqamətində institusional potensiallar gücləndirilir<br>**2.2.1** DİM-lər və kənarda qalan şəxslər üzrə monitorinq və hesabatverməni yaxşılaşdırmaq üçün instusional gücləndirilir<br>**2.2.2** Dəlillərə əsaslanan siyasətlər və qərarlar hazılamaq üçün milli potensiallar gücləndirilir | **2.1** Kənarda qalan şəxslər Azərbaycanın beynəlxalq öhdəliklərinə uyğun olaraq, sosial müdafiə və keyfiyyətli dövlət və sosial xidmətlər üçün gücləndirilmiş milli potensial və idarəçilik sturukturlarından faydalanır<br>**2.2** Heç kəsi kənarda qoymayan qərarların qəbulu və siyasətlərin hazırlanmasında istifadə üçün keyfiyyətli, dezaqreqasiya olunmuş və vaxtında təqdim olunan məlumatlar mövcuddur və istifadə edilir | **1-ci DİM** (Yoxsulluğa son)<br>**3-cü DİM** (Yaxşı sağlamlıq və rifah)<br>**4-cü DİM** (Keyfiyyətli təhsil)<br>**5-ci DİM** (Gender bərabərliyi)<br>**12-ci DİM** (Sülh, ədalət və güclü institutlar)<br>**17-ci DİM** (Məqsədlər üçün tərəfdaşlıqlar) |
| 3-CÜ PRİORİTET SAHƏ | Ətraf mühitin mühafizəsi və iqlim dəyişilliyi mübarizə | **3.1.1** İqlim dəyişikliyi ilə bağlı planlaşdırma, izləmə və hesa-batvermə, habelə iqlim maliyyələşməsi və texnologiyalarına çıxış üçün institusional potensillar gücləndirilir<br>**3.1.2** Həssas icmaların dayanaqlılığını atırmaq üçün tor-paqdan istifadə, turizm dəyər zəncirinə inteqrasiya və su idarəçiliyə üzrə adaptiv siyasətlər yaradılır<br>**3.1.3** Enerji siyasətləri və həlləri emissiyaları azaldır və enerji-yə qənaət edir<br>**3.1.4** Ətraf mühitə qarşı təhlükələri və şəhər və kənd yer-lərində çirklənməni azaltmaq üçün qəbul edilmiş dəlilərə əsaslanan siyasətlər, mexanizmlər və təcrübələr qəbul edilir | **3.1** İnsanlar, o cümlədən kənarda qalanlar təbii sərvətlərin dayanıqlı şəkildə idarə olunmasına, yaşayış üçün vasitələrinin qorunması və dayanıqlığın artırılmasına təmin edən iqlim stegiyaları və ətraf mühitin mühafizəsi üzrə siyasətdən faydalanır | **6-cı DİM** (Təmiz su və sanitariya)<br>**7-ci DİM** (Sərfəli və təmiz enerji)<br>**13-cü DİM** (İqlim dəy-işikliyi ilə mübarizə)<br>**15-ci DİM** (Torpaq ekosistemi) |
| 4-CÜ PRİORİTET SAHƏ | Qadın və qızların səlahyyətləri-ni artıran və gender bərabərliyinə əsaslanan cəmiyyət | **4.1.1** Gendər bərabərliyi ilə bağlı xərc bölgüsünə malik fəali-yyət planları hazırlanır və icra olunur<br>**4.1.2** İctimai diskursda qadın və qızlarla bağlı stereotiplər azaldılır<br>**4.1.3** Qadın və qızlar bərabər hüquq və imkanlardan yarar-lanmaq üçün bilik və bacarıqlara malikdir | **4.1** Müvafiq müdafiə tədbirlərindən kənarda qalanlar da daxil olmaqla, qadın və qızlar onların ayrı-seçkilik və zorakılıqdan qorunmasını təmin edən və həyatın bütün sahələrində iştirakı üçün səlahiyyətlərini artıran təkmilləşdirilmiş milli mexanizmlərdən faydalanır | **3-cü DİM** (Yaxşı sağlamlıq və rifah)<br>**5-ci DİM** (Gender bərabərliyi)<br>**8-ci DİM** (Layiqli əmək və iqtisadi artım) |

**ÇOXSAHƏLI MƏSƏLƏLƏR:** Münaqişələrə həssaslıq və inklüzivlik \| Gender bərabərliyi \| İnsan hüquqları \| Ətraf mühit/Təbii resursların idarəolunması \| İqlim dəyişikliyinə qarşı dayanıqlıq

## 2.4. Əməkdaşlıq Çərçivəsinin Nəticələri və Tərəfdaşlıqlar

BMTDİƏÇ-nin dörd strateji prioriteti beş Nəticə sahəs i üzrə Hökumət və BMT sistemi tərəfindən birgə icra edilir. Hər Nəticə sahəsi üzrə dəyişiklik nəzəriyyəsi aşağıda təqdim olunur və hər prioritet üzrə tədbirlərin transformativ təsirini və BMT sisteminin Hökumət, özəl sektor, beynəlxalq inkişaf tərəfdaşları və digər tərəfdaşlarla əməkdaşlıq şəraitində yaratdığı dəyəri əks etdirir.

Nəticələr elə planlaşdırılmışdır ki, xarici tərəfdaşlıqların təşviqindən əlavə, BMT ilə milli tərəfdaşlar arasında daha güclü əlaqəyə imkan yaratmaqla, icra üçün tələb olunan vaxt və xərcləri azaldır. Nəticə, eləcə də məhsul səviyyələrində dəyişikliklər BMT-nin keçmişdəkindən fərqli olaraq səlahiyyətli orqanlarla layihələr və ya tədbirlər üzrə müqavilələr hazırlamaq zərurətini minimuma endirir. Nəticələr, həmçinin rezident əlaqələndirici tərəfindən həyata keçirilən strateji nəzarətlə BMT-nin müxtəlif qurumlarının öz sahələri üzrə texniki rəhbərlik və səriştəsinin birgə istifadəsinə imkan yaradır. Məsələn, BMTİP, UNİCEF və UNFPA-nın Ölkə Proqramı Sənədləri BMTDİƏÇ-in nəticələrinə əsaslanır.



**1-ci Prioritet Sahə:** Həssaslığı azaldan və dayanıqlılığı təmin edən inklüziv artım

## NƏTİCƏ 1.1

Kənarda qalan insanlar əmək bazarının gələcək yönümlü transformasiyasını və layiqli əməyə çıxış imkanını əhatə edən şaxələndirilmiş və innovativ iqtisadiyyatda iştirak edir və ondan yararlanır.

**Dəyişiklik nəzəriyyəsi**

Ölkə üzrə Ümumi Təhlilin göstərdiyi kimi, gənc kişi və qadınlar, köçkün və ya geri qayıtmaqda olan şəxslər, qeyri-rəsmi işçilər, kiçik fermerlər və məsafədən iş modelinə keçə bilməyən şəxslər (işlərinin xarakteri və ya texnoloji bacarıqlara malik olmaması səbəbindən) digərləri ilə müqayisədə gəlir mənbələrinin itirilməsinə qarşı daha həssas olacaq. İqtisadi islahat sadəcə məhsuldarlığı gücləndirmək üçün deyil, başlıca olaraq bu qruplar və əhalinin digər zəif təbəqələri üçün faydalı nəticələr gətirən inklüziv artım əldə etmək üçün tələb olunur. Bərabər çıxış imkanları və paylanma ilə bağlı uzlaşan milli siyasətlərin yaradılması bu Nəticənin reallaşdırılması üçün vacib şərtdir, çünki bu, həm iqtisadiyyatı daha innovativ edir, həm də ictimai müqaviləni gücləndirir. [25]

İqtisadiyyat üzrə bu islahat yönümlü gələcəyə baxışa nail olmaq məqsədilə, BMT bazar transformasiyasının biznes əsaslı innovasiyaya, habelə gücləndirilmiş insan kapitalına söykənməsini təmin etmək üçün milli maraqlı tərəflərlə işləyəcək. İnnovasiya üçün əlverişli mühit olduqda və insanlar onların iqtisadi iştirakını artırmağa imkan verən resurslara çıxış imkanı və savadlılığa malik olduqda, həssaslıq azaldılır və iqtisadiyyat məşğulluğu qoruyub saxlamaq və yaşayış üçün vasitələrini müdafiə etmək üçün güclənir. COVID-19 və münaqişədən sonrakı iqtisadi bərpa istiqaməti kənarda qalan qrupların iqtisadi iştirakını bərpa edən və genişləndirən yeni MKOM-lərin təşkilini təşviq etmək üçün istifadə ediləcək. BMTÖİH yeni əmək bazarı siyasətlərinə və fərdi potensiallara dəstək göstərmək üçün özünün ekspertlər və qabaqcıl təcrübələr şəbəkəsindən də istifadə edəcək. O, gənc kişi və qadınların xüsusilə gələcək işəgötürənlərin ehtiyacları ilə uzlaşan bacarıqlar əldə edə bilməsini və qeyri-rəsmi sektorda, o cümlədən kənd yerlərində və münaqişənin təsirinə məruz qalmış yerlərdə qeyri-rəsmi işçilərin öz yaşayış vasitələrini itirmə riskini azaldan yeni gəlir imkanlarına çıxış qazanmasını təmin edəcək. Əmək bazarı institutlarının, o cümlədən dövlət məşğulluq orqanlarının potensialı da ən həssas qruplara, işsizlərə, eləcə də işəgötürənlərə daha inklüziv və əlçatan xidmətlər təqdim etmək üçün innovativ alətlərlə gücləndiriləcək. Milli əmək statistikası və işləmək hüququna dair beynəlxalq standartlar, o cümlədən "İqtisadi, sosial və mədəni hüquqları haqqında" Beynəlxalq Pakt, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya və BƏT-in Konvensiyalarında nəzərdə tutulan standartlar üçün gücləndirilmiş bir sistem iqtisadi düşüncəni istiqamətləndirəcək, çünki onlar iqtisadi şaxələnmənin və innovasiyanın müxtəlif qruplar üçün nə dərəcədə faydalı nəticələr gətirdiyini ölçməyə kömək edəcək. Həm şəhərlərdə, həm də kəndlərdə yaşayış vasitələrinə bərabər çıxış imkanı yaratmaq üçün BMTÖİH şəhər planlaşdırılmasını artıran və balanslı ərazi inkişafını təmin edən müdaxiləri dəstəkləyəcəkdir. BMT-nin fəaliyyətləri şəhərsalmanın ətraf mühit aspektini və iqlimə uyğunlaşmanı inkişaf prosesinə inteqrasiya etməklə yanaşı, yerli iqtisadi artımı yaxşılaşdırmaq üçün kompleks şəhərsalma prosesinə şərait yaradacaqdır.

İqtisadi artımın dayanıqlı, şaxələnmiş olmasını və özəl sektor tərəfindən idarə olunmasını təmin edən tədbirlərə əlavə diqqət yetiriləcək. BMTÖİH bilik əsaslı iqtisadiyyata keçid üçün əlverişli biznes mühiti yaradan institutları gücləndirmək məqsədilə milli maraqlı tərəflərlə işləyəcək. Bu, maliyyəyə çıxış imkanına mane olan amilləri aradan qaldıran, normativ yükü azaldan və innovativ təcrübələri təşviq edən siyasətlərin hazırlanması vasitəsilə ediləcək. Sərfəli kredit və KOM-ların dəyər zəncirlərinə və bazarlara inteqrasiyası iqtisadi şaxələnmə üzrə irəliləyiş əldə etmək üçün həlledici əhəmiyyət daşıyır. Dəyər zəncirlərində daha güclü iştirak KOM-lara daha yüksək məhsuldarlıq, qabaqcıl

[25] https://www.oecd.org/mcm-2018/documents/C-MIN-2018-5-EN.pdf

və bazara daha geniş çıxış imkanı əldə etmək imkanı verəcək. Digər tərəfdən, KOM-ların dəyər zəncirlərində iştirakı daha böyük idarəetmə və maliyyə resursları, beynəlxalq standartlara cavab vermək və əqli mülkiyyəti müdafiə etmək qabiliyyəti tələb edir.[26] Bu çətinlikləri həll etmək məqsədilə, BMT dəyər zəncirlərindən daha böyük faydalar əldə etməyə kömək etmək məqsədilə dövlət və özəl sektorlar arasında səmərəli tərəfdaşlıqlara nail olmaq üçün Hökumət və KOM-larla işləyəcək.

Daha şaxələndirilmiş və özəl sektorun rəhbərlik etdiyi iqtisadi artım səylərinə Azərbaycanın müqayisəli üstünlüklərinin olduğu sektorlarda məqsədli tədbirlər vasitəsilə dəstək göstəriləcək və bu, onun innovasiya ekosistemlərini inkişaf etdirməsinə və Dördüncü Sənaye İnqilabını qəbul etməsinə imkan verəcək. BMTÖİH bu keçid üçün əlverişli mühit yaratmaq və elmi tədqiqat məqsədləri üçün əhəmiyyətli miqdarda maliyyə resurslarının ayrılmasını təşviq etmək üçün milli maraqlı tərəflərlə işləyəcək. “Yaşıl” artıma innovasiyanı daxil etmək və iqtisadiyyatla ətraf mühit arasında müsbət sinergiyalar təmin etmək və istifadə etmək üçün yeni siyasət tədbirləri prioritetləşdiriləcək.

Bu Nəticə əsasən 8-ci DİM-ə yönəlir və məşğulluq, gəlir, təlim və əmək standartları ilə bağlı 8.5.1, 8.6.1 və 8.8.2 nömrəli göstəricilərdən istifadə edir. 2.4.1 nömrəli DİM göstəricisi kiçik ərzaq istehsalçılarına və fermerlərə fayda gətirəcək məhsuldar və dayanıqlı əkinçiliyə yönəlir. Bu Nəticə yoxsulluq (1-ci DİM), sənaye, innovasiya və infrastruktur (9-cu DİM), təhsil (4-cü DİM), cəmiyyət daxilində bərabərsizliklərin azaldılması (10-cu DİM), mədəni və təbii irsin qorunması vasitəsilə dayanıqlı şəhərlər və icmaların qurulması (11-ci DİM) və məlumatlara əlçatanlığın yaxşılaşması vasitəsilə dinc və inklüziv cəmiyyətlərin təşviqinə (16-cı DİM) təsir edir.

### Tərəfdaşlıqlar

Bu Nəticəni reallaşdırmaq üçün, BMTÖİH əsas tərəfdaş Hökumət qurumları ilə işləyərək onların siyasətlərinin və məlumat toplama praktikasının məşğulluqla bağlı DİM və insan hüquqları göstəriciləri ilə uzlaşmasını təmin etməyə səy göstərəcək. Bu tərəfdaşlıq həm də Hökumət qurumları üçün DİM məlumatlarını daha yaxşı ümumiləşdirmək və müxtəlif dövlət qurumlarını cəlb edən siyasətlərə daxil etmək üçün fürsət yaradacaq. Bu, BMTATÇ qiymətləndirməsinin əsas tövsiyələrindən biridir. Tərəfdaşlara İqtisadiyyat Nazirliyi, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Energetika Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) aparatı, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Maliyyə Nazirliyi, Xarici İşlər Nazirliyi, Mədəniyyət Nazirliyi, Gənclər və İdman Nazirliyi, Dövlət Statistika Komitəsi, ANAMA, Azərbaycan Respublikası Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və Diasporla İş üzrə Dövlət Komitəsi və nəticələr cədvəlində göstərilən digər tərəfdaşlar daxildir.

Bu transformasiyaya dəstək göstərəcək inkişaf tərəfdaşlarına şaxələndirilmiş və inklüziv artım üzrə standartların təşviqində, eləcə də Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlük baxımından Asiya İnkişaf Bankı daxildir. Tərəfdaşlıq ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyini də əhatə edəcək və onların MKOM-lərin maliyyələşdirilməsi, rəqabət qabiliyyəti və işçi qüvvəsinin inkişafına texniki yardım göstərməsinə çalışacaq. Bu Nəticələrdə istifadə edilə biləcək nümunəvi təcrübələri və innovativ məşğulluq siyasətlərini müəyyən etmək üçün Dünya Bankından da dəstək almağa səy göstəriləcək. Bundan əlavə, BMTÖİH iqtisadi gündəliyə təsir etmək və hədəf qrupların mövqelərini və gözləntilərini əks etdirmək üçün yeni iştirakçılara imkan yaradan qeyri-hökumət müzakirə forumları təşkil edəcək. Bu, siyasət, biznes və vətəndaş cəmiyyəti liderlərini (xüsusilə gənclərin icmaları arasında) bir araya gətirən milli dövlət-özəl və vətəndaş cəmiyyəti dialoqu platformaları, eləcə də könüllülük təşəbbüsləri formasında özünü göstərəcək.

[26] https://unctad.org/en/Docs/diaeed20095_en.pdf




**2-ci Prioritet Sahə:** Dövlət və sosial xidmətlərin daha yaxşı göstərilməsi üçün daha güclü institutlar

### NƏTİCƏ 2.1

Kənarda qalan insanlar Azərbaycanın beynəlxalq öhdəliklərinə uyğun olaraq sosial müdafiə və keyfiyyətli dövlət və sosial xidmətlər üçün gücləndirilmiş milli potensial və idarəçilik strukturlarından faydalanır*

(*insan hüquqları standartları və BƏT-in standartları daxil olmaqla)

**Dəyişiklik nəzəriyyəsi**

Ölkə üzrə Ümumi təhlil göstərdi ki, dövlət və sosial xidmətlərin keyfiyyət və əlçatanlığında bu və ya digər səbəblərdən baş vermiş dəyişikliklər heç də əhalinin bütün qrupları tərəfindən eyni şəkildə qəbul edilmir. Məsələn, COVID-19 pandemiyası və 2020-ci ildə hərbi əməliyyatların şiddətlənməsi nəticəsində məktəblərin bağlanması və distant təhsilə keçid bir tərəfdən sağlamlıq imkanları məhdud uşaqlar üçün təhsili daha da əlçatan etsə də, digər tərəfdən aztəminatlı ailələrdən olan, distant təhsil üçün vacib texniki vasitələrin əldə edilməsində çətinliklərlə üzləşən uşaqlar üçün müəyyən məhdudiyyətlər yaratdı. Bu da təhsildə struktur əsaslı bərabərsizliklərin kəskinləşməsi ilə nəticələnir. Yoluxma qorxusundan təcrid olunması xahiş edilən yaşlılar dövlət xəstəxanalarında vacib tibbi xidmətə çıxışı itirmə riski ilə üzləşir. Karantin dövründə qadın və qızlar üçün məişət zorakılığı halları barədə şikayət vermək və ya dövlət və qeyri-dövlət müdafiə xidmətlərindən sistemli şəkildə dəstək almaq çətinləşə bilər. Münaqişədən zərər çəkmiş bölgələr də daxil olmaqla, məhkəmə prosesinin elektronlaşdırılmadığı yerlərdə yaşayan insanlar üçün ədliyyə xidmətlərinə çıxışın məhdudlaşması mümkündür. Kənd yerlərində, xüsusilə keçmiş işğal olunmuş ərazilərin yaxınlığında məcburi köçkünlük vəziyyətində yaşamağa davam edən əhali təhlükəsizlik, keyfiyyətli təhsil və səhiyyə xidmətlərinə çıxış imkanı ilə bağlı əlavə çətinliklərlə üzləşir və onların gəlir əldə etmək imkanları azalır.

Dəyişiklik nəzəriyyəsinə əsasən, bu bərabərsizliklər və çıxış imkanı ilə əlaqədar məhdudiyyətlər COVID-19 və münaqişədən sonrakı illərlə bağlı bərpa mərhələsi çərçivəsində sistemli şəkildə aradan qaldırılmasa, Azərbaycan dövlət xidmətlərinin keyfiyyətini və əlçatanlığını DİM-lərə nailolma baxımından məqsədəuyğun şəkildə artıra bilməz. İdarəçilik strukturları dövlət xidmətləri ilə bağlı sarsıntılara daha operativ cavab verə bildikdə və həssas qruplar üçün müdafiə xidmətləri fasiləsiz təqdim olunduqda cəmiyyət fövqəladə vəziyyətlərə qarşı daha davamlı olur və keyfiyyətli xidmətlərdən hamı yararlanır. Buna görə də dəstək tədbirləri əhalinin həssas qruplarının sosial müdafiədən faydalanmasına və bu xidmətlərə çıxış imkanı vermək üçün daha güclü idarəçilik strukturlarının və birbaşa xidmətlərin daha yaxşı təmin edilməsinə yönələcək. Elektron idarəçiliyi gücləndirmək, dövlət və sosial xidmətlərin onlayn şəkildə əlçatan olmasını təmin etmək üçün insanların İKT infrastrukturu barədə biliklərinin və bu infrastruktura çıxış imkanının genişləndirilməsinə xüsusi diqqət yetiriləcək. Eyni zamanda BMTÖİH icma səviyyəsində dayanıqlılıq və sosial birlik üçün potensialı gücləndirən təşəbbüslərlə rəsmi idarəçilik strukturundakı dəyişikliklərə töhfə verməyə çalışacaq, bu zaman insan hüquqları və ədliyyə çərçivələri barədə məlumatlılığa xüsusi diqqət yetiriləcək. Bu, sülhün qorunub saxlanması və gələcək münaqişələrin qarşısını almaq üçün göstərilən səylərə təhlükə yaradan sosial narazılığın təməl səbəblərini aradan qaldırmağa kömək edəcək.

Buna görə də bu Nəticə BMTÖİH-nin sektorlar üzrə təcrübəsini nəzərə alaraq dəyişikliklər üçün əlverişli mövqedə olduğu bir neçə dəstək istiqamətinə yönəlir: təhsil, səhiyyə, sosial müdafiə, elektron idarəçilik və ədliyyə sistemi. Bu dövlət xidmətlərinə universal çıxış imkanının artıq qanunla təmin olunduğunu nəzərə alaraq BMTÖİH təkmilləşdirilmiş xidmət modelləri və könüllülük mexanizmləri müəyyənləşdirməklə və həssas qrupları hədəf almaq üçün dövlət qulluqçuları üçün standart əməliyyat prosedurları və texniki bacarıqlar müəyyən etməklə dəyişiklikləri dəstəkləyəcək. Əldə olunan irəliləyişi daha yaxşı izləmək üçün BMTÖİH bu cavab üçün ilkin vəziyyət və əldə olunan nailiyyətlərin İSMHBP, UHK, ƏŞHK və QQAK çərçivəsində əlçatanlıq, keyfiyyət və adekvatlığa dair beynəlxalq insan hüquqları standartlarına əsaslanmasını təmin edəcək.

**Təhsil** sahəsində, dəstəyin diqqət mərkəzini təhsil və peşə təliminə inklüziv çıxış imkanı, müəllim və təlimçilərin hər kəs üçün keyfiyyətli kurrikulumları yerinə yetirə bilməsinin təminatı təşkil edəcək. Bu baş verərsə, Azərbaycan məktəbəqədər təhsildə universal ümumi iştirak hədəfini keçəcək və insan kapitalını, rifahı maksimallaşdıran bərabərhüquqlu, bacarıqlara əsaslanan təhsil sisteminə nail olacaq. Səhiyyə sahəsində, BMTÖİH xidmətlərin təmin edilməsinin keyfiyyətini izləyən və xəstəyönümlü yanaşmanı, o cümlədən yaşlılar üçün ev ziyarətlərini və qadınlar üçün reproduktiv sağlamlıq üzrə dəstəyi təşviq edən milli strategiyaları gücləndirəcək. Əgər buna nail olunarsa, hamı üçün keyfiyyətli təhsilin müyəssərliyi artırılacaq, Hökumətin artıq icbari sığorta sistemi tətbiq etdiyi ilkin və profilaktik tibbi xidmətə çıxış imkanı genişləndiriləcək. BMTÖİH regionlarda dövlət tibb mərkəzləri üçün daha çox insan resursları və peşəkar səriştə, daha çox avadanlıqların təmin edilməsi və daha səmərəli göndəriş sistemi üçün əlavə dəstək təqdim edəcək. İctimai məkan şəbəkələrinə investisiyalar yolu ilə sosial birliyi təmin etmək, innovativ icma yanaşmaları ilə cəmiyyəti və düşüncə tərzlərini dəyişdirmək sağlamlıq və rifahın yaxşılaşdırılmasına təkan verəcəkdir. Reproduktiv sağlamlıqla bağlı 3.8.2, 3.4.1, 3.7.1, 4.3.1 və 5.6.1 nömrəli DİM göstəriciləri bu Nəticə komponenti üçün seçilib.

Təcrid olunmuş qrupların birbaşa xidmətlərə çıxış imkanı və ya bu imkanı itirdikdə bərpa etməyə çalışarkən üzləşdikləri əngəlləri nəzərə alaraq 2.1-ci Nəticə məhkəmə sisteminin gücləndirilməsinə əlavə diqqət yetirir. Bu sahədə dəstək dövlət və sosial xidmətləri təmin edən qurumların, qrupların, o cümlədən əlilliyi olan şəxslərin ehtiyaclarını qarşılamaq üçün səriştələrinin artırılmasına, sosial işçi qüvvəsinin inkişafına yönələcək. Dəstək həmçinin kənarda qalan icmalar, o cümlədən sığınacaq axtaran şəxslər üçün ədliyyə xidmətlərinə və hüquqi yardıma çıxış imkanı üzrə siyasətləri təşviq edəcək. Dəstək geri qayıdan və münaqişələrdən zərər çəkmiş digər qrupların narazılıqlarını aradan qaldırmaq və vətəndaş cəmiyyəti təşkilatlarının milli və yerli səviyyələrdə qərar qəbul edən orqanlarla faydalı şəkildə əməkdaşlıq edə bilməsi üçün yeni imkanlar yaradacaq. Bu dəstək tədbirləri tamamlanarsa, transformasiya olunmuş qurumlar üçün zəmin yaradılacaq, hesabatlılıq və şəffaflığın artması DİM-lərə nailolmanı sürətləndirəcək. Bu nəticə üzrə göstəricilərə 1.3.1 və 1.a.2 (sosial müdafiənin əhatə dairəsi) nömrəli DİM göstəriciləri və ictimai təsəvvürlər/ məmnuniyyət və potensialın gücləndirilməsi ilə bağlı 16.6.2 və 16.7.2 nömrəli göstəricilər və dayanıqlı dövlət satınalmaları siyasətləri ilə bağlı 12.7.1 nömrəli göstərici daxildir. Bu Nəticə innovasiyanın təşviqinə (9-cu DİM), cəmiyyət daxilində bərabərsizliyin azaldılmasına (10-cu DİM) və dayanıqlı şəhər və icmaların qurulmasına (11-ci DİM) təsir edir.

**Tərəfdaşlıqlar**

Bu Nəticəyə nail olmaq üçün BMTÖİH sosial və dövlət xidmətlərini təmin edən əsas qurumlarla işləyəcək. Bunlar aşağıdakılardır: Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, DOST Agentliyi, TƏBİB, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Statistika Komitəsi, Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikası Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) aparatı. İnkişaf tərəfdaşları, o cümlədən USAİD və Dünya Bankı bu Nəticəyə idarəetmə və institusional islahatlar sahəsində təcrübə ilə dəstək göstərməyə dəvət olunacaqlar. Tərəfdaşlıq genişləndirilərək peşə təhsili və profilaktik tibbi xidmət sahəsində mümkün dövlət-özəl sektor tərəfdaşlığı imkanlarını araşdırmaq üçün özəl sektorda marağı olan tərəfləri əhatə edəcək. Nəhayət, qeyri-hökumət təşkilatları qərarların qəbul edilməsində ictimaiyyətin iştirakı, inkişaf üçün könüllülük, həmçinin münaqişədən zərər çəkən icmalara dəstək mövzusunda dialoq gündəliyinin qurulmasında rəhbərliyə, həssas qruplara əlavə sosial xidmətlər göstərməyə dəvət ediləcək.

## NƏTİCƏ 2.2

Heç kəsi kənarda qoymayan qərarların qəbulu və siyasətlərin hazırlanmasında istifadə üçün keyfiyyətli və vaxtında təqdim olunan məlumatlar mövcuddur və istifadə edilir.

(*yenilənən, dəqiq, beynəlxalq səviyyədə qəbul edilmiş metodologiyaya uyğun toplanmış və təhlil edilmiş)

### Dəyişiklik nəzəriyyəsi

Nəticə 2.2 üçün dəyişiklik nəzəriyyəsi statistikanın cəmiyyətin informasiya sisteminin ayrılmaz elementini təşkil etməsinin, bununla Hökumətə iqtisadi, demoqrafik, sosial və ekoloji vəziyyət haqqında məlumatlarla xidmət göstərməsinin başa düşülməsinə əsaslanır. BMTDİƏÇ-də əsas diqqətin əhalinin həssas qruplarının rifahına və hüquqlarına yönəldilməsi Azərbaycanın onları tapmaq və ortaya çıxarmaq qabiliyyətinin təkmilləşdirilməsi üçün xüsusi səy tələb edir. Bütün prioritet sahələr yaş qrupu, cins və mənşədən əlavə, əlillik, etnik mənsubiyyət, məşğulluq, gəlir və miqrasiya statusu və digər əlamətlər üzrə dezaqreqasiya olunmuş daha geniş məlumatların yaradılması prosesi tələb edir. Bu prosesə dəstəyin göstərilməsi kənarda qalanlar üçün dövlət siyasətinin gücləndirilməsi vasitəsi kimi, BMT üçün xüsusi əhəmiyyətli bir sahə kimi müəyyən edilir. Bu, həm də inkişaf məlumatlarının daha çox beynəlxalq insan hüquqları standartlarına əsaslanması üçün insan hüquqları mexanizmlərinin tövsiyələrinə cavab verir. Hökumətin ən həssas və təcrid olunmuş qruplara diqqəti artırması üçün dezaqreqasiya məlumatlarının mənbələrinin və idarə edilməsinin təkmilləşdirilməsi həlledici əhəmiyyət daşıyır. Bu, dövlət rəsmilərinin nəticə əsaslı planlaşdırma üzrə hazırlığı, ev təsərrüfatı tədqiqatlarında dezaqreqasiyanın təşviqi, milli statistika planının təşkilinə dəstək, təhlil və dəlillərə əsaslanan planlaşdırmanın təkmilləşdirilməsi, demoqrafik proqnozların gücləndirilməsi və hökumət məlumatlarının proaktiv şəkildə açıqlanmasını təşviq etmək (16.10.2 nömrəli DİM göstəricisi) kimi müxtəlif dəstək tədbirlərindən istifadə etməklə həyata keçirilir. Buna görə də, bu, 2030-cu il Gündəliyinə nail olma istiqamətində bütün prioritet sahələrdə irəliləyişin əldə olunmasına dəstək göstərəcək çoxsahəli nəticədir. Əsas DİM göstəricilərindən biri 17.18.1 nömrəli göstəricidir: müvafiq əlamətlərə görə tam dezaqreqasiya olunmuş, milli səviyyədə işlənib-hazırlanan dayanıqlı inkişaf göstəricilərinin xüsusi çəkisi. Məlumatların hazırlanması, idarə olunması və təhlili yalnız o zaman siyasətlərin tərtibinə töhfə verir ki, rəsmi qərarvermə proseslərinə düzgün inteqrasiya edilsin. Buna görə də, bu nəticə üçün müəyyən edilmiş ikinci göstərici 17.18.3 nömrəli göstəricidir: tam maliyyələşdirilən və həyata keçirilən milli statistika planının mövcudluğu, maliyyə mənbələri üzrə bölgüdə.

### Tərəfdaşlıqlar

BMTÖİH məlumatların toplaması və idarə olunması sistemlərinin, o cümlədən Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli Məlumatlandırma Portalının gücləndirilməsində Dövlət Statistika Komitəsi ilə hərtərəfli əməkdaşlıq nəzərdə tutur. Bu tərəfdaşlıq iştirak prinsipinə əsaslanaraq dövlət qurumlarını aidiyyətli əhali qruplarını onların vəziyyətinə dair məlumatların toplanmasına cəlb etməyə həvəsləndirəcək. Bu həmçinin məlumatların istifadəsində hesabatlılığı təşviq edərək onların milli siyasətlərdə nəzərə alınmasını və yenidən hədəf olaraq əhali qruplarına çatdırılmasını təmin edəcək. Bu məqsədlə BMTÖİH Səhiyyə Nazirliyi, Azərbaycan Respublikası Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, DOST Agentliyi, Ədliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Təhsil Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi kimi digər dövlət qurumları ilə işləyəcək. Yerli icmalar səviyyəsində, Hökumətin siyahıyaalmalarına və tədqiqatlarına kömək edən məlumatların toplanması üçün vətəndaş cəmiyyəti və elmi müəssisələrlə əlavə tərəfdaşlıqlar qurulacaq.



**3-cü Prioritet Sahə:** Ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizə

## NƏTİCƏ 3.1

İnsanlar, o cümlədən kənarda qalanlar təbii sərvətlərin dayanıqlı şəkildə idarə olunmasını, yaşayış üçün vasitələrinin qorunmasını və dayanıqlılığın artırılmasını təmin edən iqlim strategiyaları və ətraf mühitin mühafizəsi üzrə siyasətlərdən faydalanır

**Dəyişiklik nəzəriyyəsi**

Ölkə üzrə Ümumi Təhlil vasitəsilə müəyyən edilmişdir ki, ətraf mühitin deqradasiyası əhalinin bəzi qruplarının inkişaf prosesindən kənarda qalmasına səbəb olub. Məsələn, münaqişənin təsirinə məruz qalan ərazilər də daxil olmaqla özünü təmin etmək məqsədilə əkinçiliklə məşğul olan şəxslər sənayenin çirklənməsi nəticəsində torpağın məhsuldarlığının azalması və torpağın deqradasiyası ilə üzləşir. Onlar həmçinin maliyyə riskini qarşılamağa və yaşayış üçün vasitələrini qoruyub saxlamağa imkan verən bacarıq və imkanlara malik deyil. Hökumət, xüsusilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu çətinliklərdən xəbərdardır, beynəlxalq müqavilələr və milli strategiyaların təsdiqi daxil olmaqla bu çətinlikləri birbaşa həll etmək üçün dövlət proqramları və qanunlar hazırlayıb. Lakin hazırkı kontekstdə COVID-19 pandemiyasından və münaqişədən sonra "yaşıl" üsullarla inkişaf stimullaşdırılsa da, ölkənin iqtisadiyyatın bərpasında ətraf mühit üçün təhlükəsiz bir modelin yaradılmasını təmin etmək qabiliyyəti baxımından boşluq mövcuddur.

Dəyişiklik nəzəriyyəsi təsdiq edir ki, insanların ətraf mühitin deqradasiyası və iqlim dəyişikliyinin mənfi təsirlərindən qorunması üçün iqlim planları, sazişləri və protokolları, o cümlədən Azərbaycanın Paris İqlim Sazişi çərçivəsində öhdəlikləri səmərəli şəkildə icra olunmalıdır. Yaşıl iqtisadiyyata keçid bu Nəticənin əsas göstəricisi olan 13.2.1 nömrəli DİM göstəricisi ("kompleks iqlim strategiyasının fəaliyyətə daxil edilməsi") əsasında iqlimin modelləşdirilməsi planlarının və iqlim dəyişikliyi üzrə hesabatvermə mexanizmlərinin hazırlanmasını şərtləndirir. Bu, kənarda qalanlara xüsusi diqqət yetirməklə iqlimlə bağlı həll texnologiyalarını qiymətləndirən milli planların hazırlanması, enerji istehlakının azaldılması, texnologiyalarına və torpaqdan istifadə üzrə adaptiv strategiyalara keçid, həssaslıqla bağlı qiymətləndirmələrin və digər dəlillərin ətraf mühit siyasətlərinə inteqrasiyası kimi bir sıra təsirli tədbirlərə çevrilir.

BMT əsaslı iqtisadi və ekoloji faydalar yaratmaq üçün transformativ potensiala malik dövri iqtisadiyyata keçidə dəstək göstərəcək. Dəstək tədbirləri dövri iqtisadiyyatın əsas sütunlarına, o cümlədən malların istifadə müddətinin qorunub saxlanması və artırılması, təkrar xammal kimi tullantıların dövriyyəsindən istifadə, layihələndirmə prosesi müddətində sistemlərin perspektivinin nəzərə alınması və resurslardan istifadənin izlənilməsi və optimallaşdırılmasına yönələcək. Beləliklə, bu Nəticə sahəsi iqtisadi artımın tükənən resurslarla əlaqəsinin qırılmasının təminatına kömək edəcək. Tullantıların qarşısının alınması, ekolayihələndirmə və təkrar istifadə ölkəyə həm əhəmiyyətli dərəcədə qənaətlər etməyə, həm də illik istixana qazı emissiyalarını azaltmağa, ətraf mühitə təzyiqi azaltmağa və xammal tədarükünün təhlükəsizliyini yaxşılaşdırmağa kömək edəcək. Yaşıl artıma keçid həm də Azərbaycan şirkətlərinin rəqabət qabiliyyətini artıracaq, innovasiyanı stimullaşdıracaq və iş yerlərinin yaradılmasına təkan verəcək.

İqlim dəyişikliyinin təsirlərinin yumşaldılması və uyğunlaşma baxımından, milli yaşıl iqlim fondunun, çaysahili su idarəetməsi üzrə hüquqi sazişin və tullantıların, çirkab sularının idarə edilməsi üzrə milli planın yaradılması üçün BMT-nin məsləhət dəstəyi, eləcə də beş Çoxtərəfli Ətraf Mühit Müqaviləsi çərçivəsində texniki yardım zəruri olacaq.[27]

[27] "Böyük məsafələrdə havanın transsərhəd çirkləndirilməsi haqqında" Konvensiya,
"Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Konvensiya,
"Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında" Konvensiya,
"Sənaye qəzalarının transsərhəd təsiri haqqında" Konvensiya,
"Ətraf mühitlə bağlı məsələlərdə məlumatın əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştirakı və ədalət məhkəməsinin açıq keçirilməsi" haqqında Konvensiya

Ölkə UN-Habitat-ın Şəhərlər və İqlim Dəyişikliyi Təşəbbüsü (CCCI) və qlobal Şəhər Davamlılıq Təşəbbüsünə qoşulacaq. Bu şəhərsalma siyasəti üzrə müzakirələrə iqlim dəyişikliklərinə uyğunlaşma mövzusunu daxil etməyə kömək edəcək mənzil/binaların bərpası, qəsəbələrin abadlaşdırılması (o cümlədən, şəhər irsini daha geniş ərazilərə yaymaqla) və əsas şəhər xidmətlərinin yaxşılaşdırılması sahəsində enerji səmərəliliyinin artırılması üçün yerli iqlim tədbirləri təbliğ ediləcək və həyata keçiriləcək. Eyni zamanda təbiət əsaslı həll yolları təbliğ ediləcək. Yaşıl və ictimai sahələrin yaradılması və Qlobal coğrafi parklar və Biosfer qoruqları kimi UNESCO əhəmiyyətli yeni ərazilərin üzvlüyünə baxılması mövcud ətraf mühitin keyfiyyətini, havanın keyfiyyətini, yeraltı suyun keyfiyyətini artırmaq, yerli dayanıqlığı artırmaq və dayanıqlı həyat tərzini təşviq etmək, nəticədə sağlamlığı və rifahı yaxşılaşdırmaq üçün innovativ həll yolları təklif edəcəkdir.

Bu məqsədlər üzrə irəliləyişi ölçmək üçün göstərici kimi 6.4.1, 7.3.1 və 15.3.1 nömrəli DİM göstəriciləri qəbul edilib. Milli adaptasiya planının yaradılması və erkən xəbərdarlıq sistemlərinin gücləndirilməsi risklərin azaldılmasını və idarə olunmasını (13.1.2, 13.1.3 və 13.2.1 nömrəli DİM göstəriciləri vasitəsilə ölçülür) yaxşılaşdırmaq üçün vacib sayılacaq. 2015-2030-cu illər üçün Fəlakət Riskinin Azaldılması üzrə Senday Çərçivəsinə uyğun olaraq fəlakət risklərinin azaldılması üzrə milli strategiyaların qəbulu və icrası da vacib olacaq. Bu Nəticə 10-cu (cəmiyyət daxilində bərabərsizliyin azaldılması), 3-cü (yaxşı səhiyyə və rifah), 11-ci (dayanıqlı şəhərlər və icmalar), 17-ci (məqsədlər üçün tərəfdaşlıq) və 14-cü (dəniz ekosisteminin mühafizəsi) DİM-lərə təsir edir.

**Tərəfdaşlıqlar**

Ətraf mühitin mühafizəsi və iqlim sahəsində regional əməkdaşlığı yaxşılaşdırmaq üçün yeni regional tərəfdaşlıqlar qurulmalıdır. Bundan əlavə, dəyişiklik nəzəriyyəsinə əsasən, Hökumət, filantropik mənbələr, inkişaf maliyyəsi təşkilatları və institusional investorlar arasında yeni tərəfdaşlıqlara çağıran yeni ətraf mühitin mühafizəsinin maliyyələşdirilməsi modelləri (məsələn, ətraf mühitin mühafizəsinin maliyyələşdirilməsi üzrə milli fond, ekosistem xidmətləri üçün ödəniş və s.) tələb olunur.

Hökumət daxilində, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəhbərliyi altında “vahid hökumət yanaşması”, o cümlədən Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Maliyyə Nazirliyi, Xarici İşlər Nazirliyi və Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi və digər qurumlar, o cümlədən Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası ilə əməkdaşlıq çərçivəsində sektorlar üzrə yol xəritələri arasında sinergiyalar zəruridir.

Digər maraqlı tərəflər, o cümlədən özəl sektor və vətəndaş cəmiyyəti təşkilatları iqlim dəyişikliyi ilə mübarizə sahəsində korporativ məsuliyyət sahəsinə cəlb olunacaq. BMT-nin Avropa üzrə İqtisadi Komissiyası (UNECE) da regional səviyyədə qabaqcıl təcrübələrin mübadiləsi vasitəsilə, əməkdaşlıq məqsədlərinə dəstək göstərəcək.



**4-cü Prioritet Sahə:** Qadın və qızların səlahiyyətlərini artıran və gender bərabərliyinə əsaslanan cəmiyyət

## NƏTİCƏ 4.1

Müvafiq müdafiə tədbirlərindən kənarda qalanlar da daxil olmaqla, qadın və qızlar onların ayrı-seçkilik və zorakılıqdan qorunmasını təmin edən və həyatın bütün sahələrində iştirakı üçün səlahiyyətlərini artıran təkmilləşdirilmiş milli mexanizmlərdən faydalanır

## Dəyişiklik nəzəriyyəsi

Ölkə üzrə Ümumi Təhlil qadınların ictimai və şəxsi həyatda tam iştirakına imkan verməyən spesifik mövhumatları müəyyən etmək və aradan qaldırmaq zərurəti ilə əlaqədar, gender bərabərsizliyini dayanıqlı inkişaf problemi kimi xüsusi vurğulayır. Beləliklə, təhlil tövsiyə edir ki, gender bərabərsizliyi sadəcə BMTDİƏÇ-nin inkişaf çağırışlarına cavabına inteqrasiya edilməməli (məsələn, göstəricilərin seçimində), həm də xüsusi nəticə və dəyişikliyi ehtiva edən gələcəyə baxış vasitəsilə ona qarşı mübarizə aparılmalıdır.

Burada qəbul edilən əsas dəyişiklik nəzəriyyəsi ondan ibarətdir ki, dayanıqlı inkişaf nəticələrinin hamıya faydalı olması üçün ayrı-seçkiliyə və gender rolları ilə bağlı stereotiplərə qarşı çıxan düşünülmüş siyasət tələb olunur. Siyasət qadınların işçi qüvvəsində iştirakının yaxşılaşdırılmasına, cəmiyyətdə onların roluna dair yanlış təsəvvürlərlə mübarizəyə, zorakılığın bütün formalarının və qadınlara qarşı zərərli ənənəvi təcrübələrin aradan qaldırılmasına və Hökumətdə yüksək vəzifəli rəhbərliyin potensialının gücləndirilməsinə istiqamətləndirilməlidir. Bu sahədə gələcəyə baxışa nail olmaq üçün təklif olunan tədbirlərə gender bərabərliyi, qanunvericiliyə dəyişikliklər və təhsil kurrikulumlarında və peşəkar həyatda qadınlara qarşı stiqmaya yol açan təsvirləri aradan qaldırmaq üçün təşviqat təşəbbüslərinə dair xərc bölgüsünə malik tədbirlər planlarının kombinasiyası daxildir. Bundan əlavə, qadın və qızların, xüsusilə təcrid olunmuş və münaqişənin təsirinə məruz qalmış icmalarda yaşayanların onları iqtisadi və siyasi sahələrdə rəhbər vəzifələrə can atmaq üçün səlahiyyətləndirən yeni bacarıqlar əldə etməsini təmin etmək üçün səylər göstəriləcək. Qadın və qızların səsləri, heç kimi kənarda qoymamaq prinsipini özündə daşıyaraq dövlət siyasətinin inklüzivliyini artırmaq və gender aspektlərini nəzərə alan siyasət dəyişiklikləri yaratmaq üçün istifadə ediləcəkdir.

Əldə olunan irəliləyişin monitorinqi üçün seçilmiş göstəricilər qadınların cəmiyyətdə (5.3.1 və 5.2.1 nömrəli DİM göstəriciləri və doğulan uşaqların cinsə görə nisbəti), siyasi və özəl sektorlarda (5.1.1, 5.5.2, 5.5.1, 5.a.1, 5.a.2 və 8.5.1 nömrəli DİM göstəriciləri) rolunu dəyişən üçtərəfli yanaşmanı, gender bərabərliyi və qadınların gücləndirilməsi üçün dövlət investisiyalarını izləmək və həyata keçirmək üçün sistemlərin mövcudluğunu (5.c.1 nömrəli DİM göstəricisi) və cinsi və reproduktiv səhiyyə xidmətlərinə çıxış imkanlarını (3.7.1 və 3.7.2 nömrəli DİM göstəriciləri) əks etdirir. Bundan əlavə, məlumatların dezaqreqasiyasının yaxşılaşdırılması istiqamətində səlahiyyətli orqanlarla əməkdaşlıq dəlil bazasını yaxşılaşdıracaq və bununla da səmərəliliyi artıracaq. BMT sistemi gender aspektlərini nəzərə alan siyasət qiymətləndirmələrinə, o cümlədən cins üzrə dezaqreqasiya olunmuş dövlət xərclərinin təhlillərinə və dövlət xidmətlərinin benefisiarlar tərəfindən qiymətləndirilməsinə dəstək göstərəcək. Bu nəticə 3-cü (yaxşı səhiyyə və rifah), 4-cü (təhsil), 10-cu (cəmiyyət daxilində bərabərsizliyin azaldılması) və 17-ci (məqsədlər üçün tərəfdaşlıq) DİM-lərə təsir edir.

## Tərəfdaşlıqlar

BMT sistemi gender bərabərliyi və qadınların səlahiyyətlərinin artırılması ilə bağlı öhdəliklərin icrası və monitorinqi üçün inkişaf tərəfdaşları ilə daha səmərəli və dayanıqlı tərəfdaşlıqlara dəstək göstərəcək, eyni zamanda bu nəticəyə nail olunması ilə bağlı nümunəvi təcrübələri sənədləşdirəcək. Bu nəticənin uğuru üçün Hökumət, akademik dairələr, özəl sektor və vətəndaş cəmiyyəti təşkilatları ilə tərəfdaşlıqlar çox vacibdir. Hökuməti təmsil edən əsas tərəfdaşlara Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Statistika Komitəsi, İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi və Ədliyyə Nazirliyi daxildir. Beynəlxalq tərəfdaşlara və əlaqələrə Asiya İnkişaf Bankı, USAİD və Dünya Bankı, eləcə də özəl sektor və vətəndaş cəmiyyəti ilə güclü əlaqələr daxildir. Məsələn, qadın biznes və idman liderləri marka səfirləri kimi təbliğ ediləcək.

## 2.5. Əməkdaşlıq Çərçivəsinin Nəticələri arasında Sinergiyalar

Dəyişiklik nəzəriyyəsi məqsədli şəkildə, nəticə strukturu boyunca qarşılıqlı asılı dəyişikliklərə şərait yaradaraq BMT sisteminin təmin etməsi gözlənilən çoxsahəli planlaşdırmanı və məsələlərin aktuallaşdırılmasını əks etdirmək məqsədi daşıyır. Nəticələr arasında sinergiyalar bir tədbirin digəri üzərindəki katalitik təsirlərini artırır.

Çərçivə müxtəlif BMT qurumlarının öz mandatından asılı olmayaraq bütün nəticələr üzərində işləməsinə imkan verən bir neçə institusional və siyasi sinergiyalar nəzərdə tutur. İnstitusional səviyyədə nəticələr və onların müvafiq məhsulları çoxtərəfli yanaşmanı əks etdirən şəkildə tərtib olunaraq fəaliyyət göstəricilərini əksər BMTÖİH üzvlərinin hər nəticəyə cəlb olunmasını tələb edən səviyyədə dezaqreqasiya edir. Nəticələr də ardıcıl şəkildə formalaşdırılıb və bütün prioritet sahələrdə insanların vəziyyətində dəyişikliklər qazanılmasına yönəldilib. Bu, BMT qurumlarını və onların tərəfdaşlarını eyni zamanda bir neçə nəticəyə töhfə verən tək tədbirlər işləyib-hazırlamağa həvəsləndirəcək. Birgə proqramlar və tərəfdaşlıqlar bu qurumlara öz müqayisəli üstünlüklərindən istifadə edərək onları hər bir nəticəyə uyğunlaşdırmaq və birgə fəaliyyəti şərtləndirmək imkanı verəcək. Siyasət səviyyəsində, təklif olunan **DİM Sürətləndiriciləri üzrə Ümumi Fond** sadəcə siyasətlərin uzlaşmasını yaxşılaşdırmayacaq, həm də bütün nəticə sahələrinə töhfə verəcək. Birgə tərəfdaşlıqlar, tematik əməkdaşlıq və ayrı-ayrı təşkilatlar üzrə spesifik iş arasında adekvat inteqrasiya səviyyəsi BMTDİƏÇ-nin icrası üzrə İllik Fəaliyyət İcmalı vasitəsilə təmin ediləcək. Bu, Azərbaycandakı BMT sisteminin ümumi səmərəliliyinin və onun 2030-cu il Gündəliyinə təsirinin artırılması üçün vacib olacaq. BMTDİƏÇ həm də digər planlaşdırma çərçivələrini, məsələn, BMT-nin müxtəlif insan hüquqları mexanizmləri, o cümlədən müqavilə orqanları və İnsan Hüquqları Şurası tərəfindən aparılan ölkə icmallarını tamamlayır və onlarla əlaqəlidir.

Ölkədaxili sinergiyalardan əlavə, BMTDİƏÇ çaysahili dövlətlər arasında transsərhəd sulardan istifadə üzrə regional əməkdaşlıq, Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) Proqramı, Avropa-Qafqaz Asiya Nəqliyyat Dəhlizi (TRASEKA) kimi regional əməkdaşlıq çərçivələrinin, eləcə də BMT ilə Azərbaycan Respublikasının üzv olduğu regional təşkilatların mümkün birgə layihələrinin icrasına kömək edəcək. Onların hamısı bir gün genişlənərək Çinin Kəmər və Yol təşəbbüsünə (BRİ) qoşula bilər.

## 2.6. Dayanıqlılıq

Dayanıqlı müsbət dəyişiklikləri təmin etmək üçün, bu Əməkdaşlıq Çərçivəsində müəyyən edilmiş inkişaf istiqamətləri daha effektli (təsirli) və səmərəli (xərc-keyfiyyət tarazlığı) institusional imkanların yaradılmasına keçidi vurğulayır. Bundan əlavə, çərçivə yeni maraqlı tərəflərin Azərbaycan Respublikasının dayanıqlı inkişaf trayektoriyasında iştirakı üçün yeni imkan açır. Bu nəticələr davamlı investisiyanı və risklərin daha geniş bölüşülməsinin və idarə olunmasının təminatına etməyə kömək edəcək. BMTDİƏÇ, həmçinin, onun dayanıqlılığını təmin edəcək struktur yönümlü həllərdən istifadə edir. Çünki onlar əsas dövlət siyasətlərinə, o cümlədən milli büdcənin tərtibi və icrası prosesinə tam inteqrasiya edilib.

Əməkdaşlıq Çərçivəsində rəhbər tutulan icra yanaşması BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsinin (2016-2020) yanaşmasından fərqlənir. O, ayrı-ayrı proqramların icrasından çəkindirir və daha çox, təkrarlana və miqyası genişləndirilə biləcək nümunəvi təcrübələrin qəbulunu hədəfləyir. O həmçinin sürətli həllər əvəzinə davamlı həll yollarının əldə olunmasına yönələrək bu həll yollarına nail olmağa kömək edən DİM sürətləndiricilərinə nəzər salır. 2030-cu ilədək gələcəyə baxışa nəzər salaraq o həm siyasətçilər, həm də hüquq sahibləri səviyyəsində davamlı potensiallar yaradacaq ki, bu da Azərbaycan Respublikasının DİM-lərə nailolma istiqamətində planauyğun surətdə irəliləməsinə kömək edəcək.

## 2.7. BMT-nin Ölkə üzrə İdarə Heyətinin Fəaliyyətinin Təşkili

2030-cu il Gündəliyinin yekdilliklə qəbulu sadəcə dövlət və qeyri-dövlət maraqlı tərəflər üçün vahid çərçivə təmin etmir, həm də BMT sisteminin təkcə qərarların qəbuluna məsul orqanların deyil, bütün hüquq sahiblərinin adından fəaliyyət göstərməklə normativ rolunu möhkəmləndirir. BMT sistemi DİM məqsədlərinə hər kəsin mənafeyi üçün nail olmanın dəstəklənməsində Hökumətin təbii tərəf müqabilidir. BMT-nin irimiqyaslı planlaşdırma, qərarlara kömək və çoxsahəli mövzuların proqramlara inteqrasiyası üçün statistik məlumatların toplanılmasında təcrübəsi tərəfdaş hökumət qurumları üçün çox faydalı olacaqdır. BMTÖİH-nin digər əsas xüsusiyyəti onun tərəfləri bir araya gətirmək səlahiyyəti, standartları təyinetmə təcrübəsi, eləcə də siyasətlər üçün məsləhət və təşviqatda texniki üstünlükləridir. Həm ölkədə, həm də onun xaricində yerləşən qurumlar milli planlaşdırmanı formalaşdırmaq və Azərbaycanda dayanıqlı inkişaf gündəliyinə strateji istiqamət vermək üçün katalitik rol oynayacaq.

Özəl kapitalın cəlb olunmasının artan əhəmiyyətini nəzərə alaraq BMTÖİH özəl sektorun bacarığından, səriştəsindən və imkanlarından istifadə edərək boşluqların və çətinliklərin aradan qaldırılması üçün yeni tərəfdaşlıq tədbirlərini stimullaşdırır. Dünyada kompleks milli maliyyələşdirmə çərçivələrinin qəbuluna keçid BMTÖİH-ni Hökumətə DİM-lərlə uzlaşan dövlət və özəl investisiyalar cəlb edəcək strategiyaların planlaşdırılmasında və icrasında dəstək göstərmək üçün əlverişli mövqeyə gətirir. Bu kontekstdə BMTÖİH sadəcə tərəfdaşlar arasında maliyyə vasitəçiliyinə dəstək göstərməyəcək, həm də daha effektiv xidmət modelləri üzrə institusional potensialları və standart əməliyyat prosedurlarını gücləndirəcək. BMTÖİH həmçinin ölkə səviyyəli uzlaşmanı yaxşılaşdırmaq üçün vahid alət və vasitələr tətbiq edəcək, eyni zamanda təklif olunan DİM Sürətləndiriciləri üzrə Ümumi Fond ilə bağlı tədbirlər üçün çoxsaylı maliyyələşdirmə mənbələrindən istifadə edəcək.

Nəhayət, BMTÖİH Rezident Əlaqələndiricinin Ofisi vasitəsilə, beynəlxalq inkişaf tərəfdaşlarını, vətəndaş cəmiyyəti və akademik dairələrdəki maraqlı tərəfləri mütəmadi olaraq bir araya gətirməyə davam edəcək ki, bu da Azərbaycan Respublikasının 2030-cu il Gündəliyinə nail olma səylərində beynəlxalq texniki dəstəkdən yararlanması üçün yeni tendensiya və imkanları qiymətləndirməkdə kömək edəcək.



# **BÖLMƏ 3:** ƏMƏKDAŞLIQ ÇƏRÇİVƏSİNİN İCRA PLANI

## 3.1. İcra Strategiyası və Strateji Tərəfdaşlıqlar

Baş Assambleyanın 72/279 saylı qətnaməsində vurğulanan BMT islahatları rezident əlaqələndiricini BMTDİƏÇ-nin birgə icrası yolu ilə, BMTÖİH-nin fəaliyyətinin səmərəliliyinin artmasını təmin etməyə səlahiyyətləndirir. Səmərəlilik BMTDİƏÇ-nin əsas maraqlı tərəflərlə əlaqələndirmə və tərəfdaşlıq şəraitində icrasında rezident əlaqələndirici və BMTÖİH-nin hesabatlılığının artırılmasına daha böyük diqqət ayrılmasını tələb edir. Vəsaitlərin ayrılmasından maliyyələşdirməyə keçidi nəzərə alaraq yeni iş üslubunun bir hissəsi bütün icra tərəfdaşları, o cümlədən Hökumət, qanunvericilik və məhkəmə hakimiyyətləri, komitə və komissiyalar, özəl sektor, vətəndaş cəmiyyəti təşkilatları, akademik dairələr, inkişaf tərəfdaşları və regional orqanlarla daha güclü və məsuliyyətli münasibətlərin formalaşdırılmasına diqqətin yönəldilməsindən ibarətdir. BMT təşkilatlarının tədbir və nəticələrinin BMTDİƏÇ-nin tədbir və nəticələri ilə uzlaşmasını təmin etmək üçün BMT-nin bütün ölkə proqramları və layihələri yalnız nəticələr cədvəlindəki nəticələrə əsaslanacaq və əməkdaşlıq çərçivəsi BMTDİƏÇ-nə uyğun olaraq hazırlanmış müştərək iş planları vasitəsilə fəaliyyətə daxil ediləcək.

BMTATÇ (2016-2020) üzrə qiymətləndirmənin gəldiyi nəticələrə, tərəfdaş hökumət qurumlarının məsləhətlərinə uyğun olaraq və səmərəliliyi artırmaq məqsədilə, BMTDİƏÇ üçün aşağıdakı geniş prinsiplər qəbul edilir:

- dəlil bazasını yaxşılaşdıraraq və təcridetməyə təkan verən amilləri daha yaxşı anlayaraq insan hüquqlarına və heç kəsin kənarda qalmamasına strateji diqqəti saxlamaq;
- BMT təşkilatlarının öz müqayisəli üstünlüklərinin olduğu sahələrə köklənməsi və nəticə və məhsul səviyyələrində kompleks planlaşdırma yanaşmasına malik olmaq;
- Hökumətə miqyası uyğunlaşdırıla bilən və təsirli proqram və investisiyalara büdcə ayırmaqda dəstək göstərmək, özəl sektor, investor ictimaiyyəti və vətəndaş cəmiyyəti ilə əlaqəni və əməkdaşlığı səmərəliləşdirmək;
- müqayisəli üstünlüklərə əsaslanaraq BMTDİƏÇ dövrü müddətində fasiləsiz proses kimi, siyasətlərin hazırlanması, icrası və nəticələrin izlənməsi sahəsində potensialları gücləndirmək üçün səy göstərmək;
- milli DİM hədəfləri və göstəricilərinin təsirlərin ölçülməsi və təsdiqlənməsi üçün istifadə edilən əsas monitorinq çərçivəsinə çevrilməsini təmin etmək.

## 3.2. İdarəçilik

COVID-19 ilə mübarizə də daxil olmaqla, təcrübə göstərdi ki, koordinasiya mexanizmləri həm strateji, həm də əməliyyat səviyyəsində Hökumət və BMT-nin maraqlı tərəflərini tam cəlb etdikdə ən yüksək təsirə malikdir. Buna görə də BMTDİƏÇ, müntəzəm monitorinq və qiymətləndirmədən əlavə, bütün fəaliyyət və nəticələrin planauyğun surətdə reallaşdırılmasını təmin etmək üçün Hökumət və BMT-nin Ölkə üzrə İdarə Heyətinin siyasi liderliyi və mövcud texniki təcrübəsindən faydalanacaq. İqtisadiyyat Nazirliyinin əlaqələndirici rolu müxtəlif Hökumət qurumlarındakı mütəxəssisləri və onların BMT-dəki həmkarlarını bir araya gətirməyə kömək etmək baxımından vacibdir.

İcraya nəzarət üçün əsas vasitə Hökumət və BMT-nin Birgə İstiqamətləndirici Komitəsi (BİK) olacaq və onun nəzdində zəruri Nəticə Qrupları yaradılacaq. Monitorinq, Qiymətləndirmə və Öyrənmə Qrupu, Əməliyyatları İdarəetmə Heyəti (ƏİH) və Kommunikasiya Qrupu da BMTDİƏÇ-in icrasında əsas strukturlar kimi çıxış edəcək. Nəticə Qruplarından əlavə, BMTÖİH özünün proqram və əməliyyat funksiyalarının BMTDİƏÇ-in icrasına töhfə verməsini təmin etmək üçün tematik və əməliyyat qrupları yaradacaq.

BİK-ə BMTÖİH-ni təmsil edən BMT-nin rezident əlaqələndiricisi və Azərbaycan Hökumətini təmsil edən iqtisadiyyat naziri həmsədrlik edəcək. BİK-in vəzifələrini və üzvlərini əks etdirən Texniki Tapşırıq hazırlanacaq. BMTATÇ üzrə qiymətləndirmənin tövsiyələrinə uyğun olaraq Əməkdaşlıq Çərçivəsinin icrasında hesabatlılığı və şəffaflığı təmin etmək üçün həssas qrupların təmsilçilərinin də BİK-ə üzvlüyü lazımi qaydada nəzərdən keçiriləcək.

Nazir müavinləri və BMT-nin təşkilatlarının rəhbərləri səviyyəsində yüksək vəzifəli hökumət rəsmiləri BMTDİƏÇ-nin Nəticə Qruplarına həmsədrlik edəcəklər. Hökumət və BMTÖİH tərəfindən hər Nəticə sahəsinə rəhbərlik edən milli qurumların və BMT təşkilatlarının nümayəndələri müəyyən ediləcək. Nəticə Qrupları gedişatı, çətinlikləri, fürsətləri və öyrənilmiş dərsləri, habelə öz texniki tapşırıqlarında müəyyən edilmiş müştərək iş planlarının icrasını necə uyğunlaşdırmağı müzakirə etmək üçün görüşlər keçirəcək.

Hazırda davam edən maliyyə və səhiyyə böhranını nəzərə alaraq BİK həmsədrləri zərurət olduqda BMTDİƏÇ-ə düzəlişlər edərək onun öz aktuallığını və bərpa planlarına uyğunluğunu saxlamasını təmin edəcəklər. Bundan əlavə, BİK öz fəaliyyətinin xüsusilə 2030-cu il Gündəliyinə nailolma istiqamətində irəliləyişi ölçən milli inkişaf proseslərinə və mexanizmlərinə uyğun olmasını təmin edəcək. Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası ilə yaxın əlaqələndirmə təmin ediləcək.

## 3.3. Müştərək İş Planları

BMTDİƏÇ müştərək iş planlarının (MİP) hazırlanması vasitəsilə həyata keçiriləcək. MİP-lər planlaşdırılan proqram əsaslı köməkçi məhsulları və dəyişiklik nəzəriyyəsinə uyğun olaraq BMT inkişaf sisteminə daxil olan hər bir qurumun Əməkdaşlıq Çərçivəsinin məhsullarına töhfə verdiyi resursları təqdim edəcək. Onlar ya bir qurum üçün səciyyəvi, ya da iki və daha artıq BMTÖİH üzvü üçün ümumi ola bilər.

Müştərək iş planları boşluqların və təkrarlanmaların, sinergiya və birgə proqramlar üçün potensialların müəyyən edilməsi və səmərəliliyinin təmin edilməsi üçün Nəticə Qrupları daxilində və arasında müzakirə ediləcək. Müştərək iş planları BMTÖİH və Birgə İstiqamətləndirici Komitə tərəfindən təsdiq ediləcək. Təsdiq olunmuş müştərək iş planları İllik Fəaliyyət İcmalı üçün əsas təşkil edəcək və bu icmal birbaşa BMT-nin ölkə üzrə nəticələrə dair Hökumətə İllik hesabatının hazırlanmasında istifadə ediləcək. Bütün müştərək iş planları UNİNFO sistemində onlayn şəkildə hazırlanacaq.

BMTDİƏÇ, MİP-lər qurulduqdan sonra və həyata keçirildiyi müddətdə əməliyyat problemlərinin ortaya çıxa biləcəyini nəzərə alır. Bunlara icrada gecikmələr, çətin inzibati proseslər və ya bəzi fəaliyyətlərin potensial olaraq yanlış təfsir edilməsi daxil ola bilər. Bu çətinlikləri qabaqcadan görməyə və həll etməyə kömək etmək üçün Hüquqi Əlavə (əlavə №) təşkilatların mandatlarındakı fərqlərə baxmayaraq bütün fəaliyyətlərin Birləşmiş Millətlər Təşkilatının ortaq məhsulu kimi təqdim olunmasının vacibliyini vurğulayır. Bu, sənədləşmə işlərinin və fərqli koordinasiya mexanizmlərinə ehtiyacın azaldılmasına kömək edəcək.

## 3.4. Digər

İnnovativ maliyyələşdirmə tədbirlərinin tətbiqi zərurətini nəzərə alaraq **DİM Sürətləndiriciləri üzrə Ümumi Fondun** yaradılması nəzərdən keçiriləcək. Fond BMT-nin tədbirlərinə donor qrantları kimi daha ənənəvi maliyyələşdirmə formaları ilə yanaşı, risklərin azaldılmasına kömək edən kapital ehtiyatından istifadəyə imkan verəcək. Belə bir fond Hökumət və beynəlxalq inkişaf tərəfdaşlarının bir-birinə yaxın ayırmalarına əsaslana bilər. Digər mexanizmlər, məsələn, dövlət-özəl sektor tərəfdaşlığı platforması və təsirlərin BMTDİƏÇ çərçivəsində göstərilən tədbirlərlə tam əlaqələndirilməsinə imkan verən təsir qiymətləndirmələri və panel sorğularının tətbiqi nəzərdən keçiriləcək.

BMTDİƏÇ-in icrasında, həmçinin proqram tədbirlərinin gənclərə həssas yanaşmasını təmin etmək üçün BMT-nin Gənclərdən ibarət Məşvərət Şurası ilə məsləhətləşmə və dəstək rəhbər tutulacaq.



# **BÖLMƏ 4:** MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ PLANI

## 4.1. Monitorinq Planı

BMTDİƏÇ-nin monitorinqi BMTÖİH-nin əsas funksiyalarından biri olmaqla, İqtisadiyyat Nazirliyi, Dövlət Statistika Komitəsi, birbaşa xidmətlər təmin edən nazirlik və tərəfdaşlarla yaxından əməkdaşlıq şəraitində icra ediləcək. Əldə olunan irəliləyişi izləmək üçün UNİNFO sistemindən istifadə olunacaq. BMTÖİH xərc bölgüsünə malik çoxillik monitorinq və qiymətləndirmə (M&Q) planı hazırlayacaq və təsdiq üçün Birgə İstiqamətləndirici Komitəyə təqdim edəcək. Monitorinq planı BMTDİƏÇ-nin Nəticələr Cədvəli üçün tələb olunan məlumatları əks etdirən tədbirləri planlaşdırmaq üçün BMTÖİH-nin istinad sənədi kimi çıxış edəcək.

BMTÖİH və Hökumət qəbul edir ki, məlumatların azlığı bir çox sahələr üçün aydın ilkin vəziyyət göstəricilərinin təyin edilməsinə təsir göstərir. Bu, Ölkə üzrə Ümumi Təhlilin gəldiyi nəticələrdə də qeyd olunmuşdur. Buna görə də, BMTÖİH milli məlumat sistemlərini gücləndirmək üçün bir neçə təşəbbüsə başlayıb. Onlar aydın ilkin vəziyyətlərin təyin olunmasına və BMTDİƏÇ-nin nəticələri istiqamətində irəliləyişi ölçməyə kömək edəcək, eyni zamanda Könüllü Milli Hesabatlar və DİM-lər üzrə Milli Məlumatlandırma Portalı üçün əsaslı və etibarlı məlumatlar təmin edəcək. Bununla əlaqədar BMTÖİH və Dövlət Statistika Komitəsi 2020-ci ilin mart ayında DİM-lər üzrə monitorinq və hesabatverməni gücləndirmək üçün birgə işçi qrup yaratdı. İşçi qrup DİM-lərin monitorinqi üzrə mövcud mexanizmlərin müfəssəl qiymətləndirməsini apardı və müəyyən edilmiş potensialla bağlı boşluqları aradan qaldırmaq üçün iş planı hazırladı. İş planı əhalinin həssas qruplarının vəziyyətinə dair çatışmayan statistik məlumat və göstəricilərin təmin edilməsi yolları və innovativ məlumat toplama yanaşmaları hazırlamaq potensialını əhatə edib. Əməkdaşlıq BMTDİƏÇ və "2018–2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq qabaqcıl təcrübələrin, tendensiyaların və öyrənilmiş dərslərin mübadiləsi formasında davam edəcək.

Bundan əlavə, 2021-ci ildə milli Çoxgöstəricili Klaster Sorğusu (MİCS), habelə COVID-19-un sosial-iqtisadi təsirlərinin qiymətləndirilməsi həyata keçiriləcək və bu, BMTDİƏÇ-in nəticələrinin və müvafiq DİM hədəfləri və göstəricilərinin monitorinqi üçün əsas məlumat vahidlərini təmin edəcək.

"Vahid BMT sistemi" çərçivəsində cavab tədbirlərinə şərait yaratmaq üçün BMT-nin Monitorinq və Qiymətləndirmə Qrupu (BMT-MQQ) və DİM-lər üzrə İşçi Qrup BMT-nin təşkilatlarına mümkün hallarda müştərək monitorinq sistemlərinin qəbulunu təmin etmək üçün texniki dəstək göstərəcək. BMT-nin Monitorinq və Qiymətləndirmə Qrupu DİM göstəricilərinə nailolma istiqamətində əldə olunmuş irəliləyişi birlikdə izləyəcək və ölçəcək. O, İqtisadiyyat Nazirliyi və Dövlət Statistika Komitəsi ilə yaxın əlaqədə olacaq və Rezident Əlaqələndiricinin Ofisi ona katiblik dəstəyi göstərəcək.

### 4.1.1. Risklər və Fürsətlər

2020-ci ilin makroiqtisadi, hərbi və səhiyyə böhranı bizə xatırladır ki, resurslar digər məqsədlərə yönəldildiyi təqdirdə, milli inkişaf hədəflərinə nailolma asanlıqla yubana bilər. Qlobal neft qiymətlərinin kəskin aşağı düşməsi, eləcə də Ermənistanla gərginlik dövlət xərclərinə ciddi təhlükə yaradıb. COVID-19 pandemiyası bu artımı daha da azalda və digər prioritetlərə xələl gətirmək hesabına, uzunmüddətli səhiyyə xərclərini çoxalda bilər. Bu kontekstdə xarici sarsıntılara qarşı makroiqtisadi dəyişkənlik cəmiyyətin sosial-iqtisadi vəziyyətinə ciddi xələl gətirmiş, qeyri-rəsmi iqtisadiyyata, cəmiyyətin dayanıqlılığına və sosial birliyə qeyri-mütənasib mənfi təsir göstərmişdir.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun ətrafında baş vermiş münaqişənin uzunmüddətli təsirləri inkişaf proqramı üçün mühüm çətinlik yaratmağa davam edəcək. Keçmiş işğal olunmuş bölgələrin yenidən qurulması və bərpası ilə bağlı bu çətinliklərin hamısını Əməkdaşlıq Çərçivəsindən istifadə edərək həll etmək imkanı məhduddur. Bununla belə, BMTÖİH zərurətə uyğun olaraq özünün texniki, maliyyə və proqram təcrübəsindən istifadə edərək qayıdan şəxslərə dəstəklə bağlı milli səyləri dəstəkləməyə davam edəcək. Bundan əlavə, bu çərçivə sənədi münaqişənin ağır nəticələrini azaltmağa, eləcə də geri qayıdan əhalinin və onlara dəstək göstərən milli və yerli qurumların dayanıqlılığını artırmağa yönəlməklə milli potensialı gücləndirmək üçün istifadə olunacaq.

BMTDİƏÇ-in əsas ehtimalı ondan ibarətdir ki, Azərbaycan Hökuməti bu çətinliklərə baxmayaraq 88 DİM hədəfinə çatmağı prioritetləşdirməyə davam edəcək. Bu isə sosial sahələrin və ətraf mühitin və iqlimin mühafizəsinin maliyyələşdirilməsində fasiləsizliyi ehtiva edir. Bu kontekstdə 2021-2025-ci illər üçün əsas risk ondan ibarətdir ki, maliyyə sarsıntıları və beynəlxalq yardımın sosial-iqtisadi və sağlamlığa təsirlərə yönəldilməsi müəyyən Nəticələr üzrə irəliləyişə mənfi təsir göstərə bilər. Bir neçə donordan həddən artıq asılılıq və bölüşülən resurslar bazasının məhdudlaşması resursların cəlb olunması problemini daha da artıracağına dair nəzərdə tutulmayan risk də var.

Eyni zamanda bərpa istiqaməti irəliləməyən islahatları sürətləndirmək və xidmət təminatı çərçivəsini müasirləşdirmək üçün önəmli fürsət yaradır. Bu, bərpanı DİM əsaslı düşüncə tərzi ilə həyata keçirmək üçün güclü siyasi iradə, habelə insan hüquqlarını diqqət mərkəzində saxlayan, demokratik mühiti qoruyan və Hökumətin cavab tədbirlərinə vətəndaş cəmiyyətini faydalı şəkildə cəlb edən risklərin azaldılması strategiyasını ehtiva edir. Siyasət və icra səviyyəsində, bu, təhsil və səhiyyə sistemlərinin gücləndirilməsi üçün inklüziv siyasətlərin qəbulu istiqamətində önəmli səylərin göstərilməsini tələb edəcək. Bu həmçinin bərpa mərhələsindən istifadə edərək kənd və şəhər yerlərində xidmətlərin göstərilməsi arasındakı fərqi azaltmaq, milli məşğulluq və sosial müdafiə çərçivəsini yenidən planlaşdırmaq, eləcə də qadınların kişilərlə eyni imkanlardan yararlanmasına imkan verməyən qeyri-tarazlıqları aradan qaldırmaq üçün düşünülmüş qərarların verilməsini şərtləndirəcək. Azərbaycanın zəngin multikulturalizm ənənəsinə əsaslanaraq çərçivə sənədi azlıqların hüquqlarını qorumaq, tolerantlığı və sosial birliyi təbliğ etmək üçün əlavə səylərin göstərilməsini də stimullaşdırmağa köməklik göstərəcək.

Bütün bunlar insan kapitalına investisiyaların sürətli şəkildə artırılması zərurətinə dəlalət edir. Əksəriyyəti regional təcrübələrdən qaynaqlanan ətraf mühitlə bağlı çətinliklər, eləcə də, neft sənayesi və sənayeləşmənin mənfi təsirləri də irəliləyişi sarsıda, kövrəkliyi və fəlakət risklərini artıra bilər.

## 4.1.2. Əməkdaşlıq Çərçivəsinə Baxış və Hesabatvermə

Hər bir Nəticə Qrupu Hökumət və BMT-nin İstiqamətləndirici Komitəsinin illik sonuncu iclasından əvvəl nailiyyətləri, çətinlikləri, imkanları və öyrənilmiş dərsləri müzakirə etmək üçün öz maraqlı tərəfləri ilə İllik Fəaliyyət İcmalı aparacaq. Müzakirənin əsasını UNİNFO hesabatları təşkil edəcək. Bu icmal və dəyişən ölkə konteksti əsasında, BMT-nin ölkəyə dəstəyinin uyğunluğunun və effektivliyinin davamlılığının təminatı üçün Nəticə Qrupları BMTÖİH-nə Əməkdaşlıq Çərçivəsi, yaxud Müştərək İş Planı üçün düzəlişlər təklif edəcək.

BİK ildə bir dəfə milli büdcə prosesinə və maliyyə ilinə uyğun olaraq strateji istiqamət və icra nəzarəti təmin etmək üçün və BMT-nin İllik Nəticələr Hesabatının layihəsində göstərilən nəticələri müzakirə etmək üçün Hökumət və BMT-nin Birgə İstiqamətləndirici Komitəsinin İllik Fəaliyyət İcmalı üzrə iclasında bir araya gələcək. COVID-19 ilə bağlı fövqəladə vəziyyət uzanarsa, yaxud 2021-2025-ci illər ərzində yeni fövqəladə hallar baş verərsə, BMTDİƏÇ-nin icrasına təsir göstərə biləcək təsirləri azaltmaq üçün BİK tərəfindən əlavə tədqiqat və siyasət məsləhəti işi sifariş edilə bilər.

Bütün icmalların nəticələri Könüllü Milli Hesabatlarda və digər müvafiq hesabatvermə və icmal fəaliyyətlərində, o cümlədən insan hüquqları mexanizmləri tərəfindən istifadə üçün təqdim olunacaq.

BMT-nin 2030-cu il Gündəliyinə dəstək verən inkişaf nəticələrini (tədbirləri deyil) tam əks etdirən yüksək keyfiyyətli BMT-nin Ölkə Nəticələri Hesabatı hazırlanacaq və təsdiq üçün Hökumət və BMT-nin Birgə İstiqamətləndirici Komitəsinə təqdim ediləcək.

## 4.2. Qiymətləndirmə Planı

2024-cü ildə BMTDİƏÇ üzrə müstəqil qiymətləndirmə aparılacaq. Qiymətləndirmə planını BMT-MQQ tərtib edəcək və təsdiq üçün BİK-ə göndəriləcək. Qiymətləndirmə planlaşdırılan BMTDİƏÇ nəticələrinin vəziyyətini, milli inkişaf proseslərinə, xüsusilə heç kəsin kənarda qalmamasının təmin edilməsinə nə dərəcədə töhfə verildiyini qiymətləndirəcək. Müstəqil qiymətləndirmə BMT-nin Qiymətləndirmə Qrupunun norma və standartlarına əsaslanacaq. Bu Qrup həm də BMTDİƏÇ üzrə qiymətləndirmənin cavab verməli olduğu keyfiyyət meyarları və qiymətləndirmə mütəxəssislərinin müstəqilliyi ilə bağlı qaydaları müəyyən edəcək. Qiymətləndirmə əvvəlki proqramlaşdırma dövründə BMTATÇ (2016-2020) ilə bağlı öyrənilmiş nəticələrdən faydalanacaq. BMTÖİH-nin ölkə proqramı üzrə qiymətləndirmələri BMTDİƏÇ qiymətləndirməsi ilə eyni dövrə salınacaq. Bu həmin prosesə töhfə vermək imkanı qazandıracaq. Rezident əlaqələndirici və BMT-MQQ qiymətləndirmələrin ardıcıllığının və proqramlaşdırma dövründə öyrənilmiş dərslərin aydın sənədləşdirilməsini təmin edəcək. Hökumətlə işləyərək müstəqil nəzarət qrupunun dəstəyi ilə əsas sektorlar üzrə təsirlərin qiymətləndirilməsini aparmaq da mümkün ola bilər. Bütün qiymətləndirmələr BİK-lə razılaşdırılmış qrafikə uyğun icra ediləcək və onlar milli səlahiyyətli orqanların töhfə və rəylərini almaq üçün cəlb olunacaq.



# ƏLAVƏ 1: NƏTİCƏLƏR CƏDVƏLİ

## Nəticələr Cədvəli

**TƏSİR: Azərbaycanın dayanıqlı inkişaf trayektoriyasından kənarda qalan şəxslər adekvat institusional dəstək və dayanıqlılığın artırılması vasitəsilə, öz hüquqlarını həyata keçirməsi üçün səlahiyyətləndirilir**

## 1-ci PRİORİTET SAHƏ: HƏSSASLIĞI AZALDAN VƏ DAYANIQLILIĞI TƏMİN EDƏN İNKLÜZİV ARTIM

**Aparıcı BMT qurumları:** BMTİP, BƏT və FAO

**Milli inkişaf prioritetləri:** iqtisadi şaxələndirmə; Özəl sektorun inkişafı; Regionlar arasında coğrafi əsaslı bərabərsizliklərin yumşaldılması; Kənd təsərrüfatı xidmətləri və informasiya-məsləhət xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi; İnsan kapitalı və bacarıqların inkişafının sürətləndirilməsi; Dövlət səmərəliliyini artırmaq üçün Dövlət Maliyyəsinin İdarəolunması üzrə islahatlar;

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi
Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi
Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi
Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi

Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı
Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı
Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə 2019-2023-cü illər üçün Dövlət Proqramı
Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı
Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin, şərabçılığın, baramaçılığın və ipəkçiliyin, çəltikçiliyin (2018-2025), çayçılığın (2018-2027), pambıqçılığın (2017-2022), tütünçülüyün (2017-2021) inkişafına dair Dövlət Proqramı

2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası
2015–2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası

**Regional çərçivələr:** Şərq Tərəfdaşlığı (EaP) CAREC TRACECA SPECA

**DİM-lər və DİM hədəfləri:**
2-ci DİM (Aclığa son): 2.4
8-ci DİM (Layiqli əmək və iqtisadi artım): 8.5; 8.6; 8.8

| NƏTİCƏLƏR | TƏKLİF OLUNAN İCRA GÖSTƏRİCİLƏRİ | İLKİN VƏZİYYƏT (İL) | HƏDƏF (ƏMƏKDAŞLIQ ÇƏRÇİVƏSİNİN MÜDDƏTİ) | MƏNBƏ/ YOXLAMA VASİTƏSİ | EHTİMALLAR |
|---|---|---|---|---|---|
| **Nəticə 1.1**<br><br>**Kənarda qalan şəxslər əmək bazarının gələcək yönümlü transformasiyasını və layiqli əməyə çıxış imkanını əhatə edən şaxələndirilmiş və innovativ iqtisadiyyatda iştirak edir və ondan yararlanır**<br><br>**BMT-nin təşkilatları: FAO, BƏT, BMqT, BMTİP, UNECE, UN-Habitat, BMTQAK, UNICEF, UNIDO, UNV, BMTGBQSQ, UNESCO, UNESCAP (+DB, USAİD)** | ÜDM-də MKOM-lərin xüsusi çəkisi, faizlə | 14,9% (2019) | 35% | Mənbə:<br>Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji yol xəritəsi;<br><br>(Hami təşkilat - UNİDO) | **Ehtimallar:**<br>Milli inklüziv artım siyasətlərini qəbul və icra etmək üçün siyasi iradə<br>Özəl sektorun güclü iştirakı, əməkdaşlığı və marağı<br>Hökumət BMT-nin təşəbbüsü ilə yaradılan Dövlət Siyasəti üzrə Dialoq platformasını təsdiq edir<br>Tərəfdaşlar BMT sisteminə dəstək göstərmək istəyir və bunu öhdəsinə götürür<br>Siyasətlərin davamlılığı BMT sisteminin dəstək göstərdiyi dövrlə məhdudlaşmır |

| NƏTİCƏLƏR | TƏKLİF OLUNAN İCRA GÖSTƏRİCİLƏRİ | İLKİN VƏZİYYƏT (İL) | HƏDƏF (ƏMƏKDAŞLIQ ÇƏRÇİVƏSİNİN MÜDDƏTİ) | MƏNBƏ/ YOXLAMA VASİTƏSİ | EHTİMALLAR |
|---|---|---|---|---|---|
| **UPR tövsiyələri 140.30; 140.98; 141.87**<br><br>**Müqavilə orqanlarının yekun rəyləri:**<br>**• CESCR E/C.12/AZE/CO/3, bəndlər 9, 10, 11**<br>**• CCPR/C/AZE/CO/4, bənd 15 C**<br>**• CEDAW/C/AZE/CO/5, bəndlər: 30, 31**<br>**• CRPD/C/AZE/CO/1, bəndlər 42, 43**<br>**• CMW/C/AZE/CO/2, bənd 8**<br><br>**Tərəfdaşlar:**<br><br>İqtisadiyyat Nazirliyi, DİMƏŞ, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Maliyyə Nazirliyi, Xarici İşlər Nazirliyi, Mədəniyyət Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və Diaspora İş üzrə Dövlət Komitəsi, BMT-nin Gənclər üzrə Məşvərət Şurası, Özəl sektor (müəyyənləşdirilməli), QHT-lər (müəyyənləşdirilməli), İnnovasiya Laboratoriyaları, gənclər təşkilatları | DİM 8.6.1 İşləməyən, təhsil almayan və ya peşə təlimi keçməyən gənclərin (15-24 yaşda olan) xüsusi çəkisi<br><br>*(prioritetləşdirilməyib, portalda məlumat mövcud deyil)<br><br>Əlavə dezaqreqasiya: Əmək qabiliyyətli yaşda olan əhali; cins üzrə bölgüdə və qaçqınlar kimi spesifik qrupların vəziyyətini əks etdirməklə | Əmək bazarında və ya təhsildə iştirak etməyən gənclərin (15-24 yaşlı) xüsusi çəkisi -23% (2017) | Əmək bazarında və ya təhsildə iştirak etməyən gənclərin (15-24 yaşlı) xüsusi çəkisi -19% | Mənbə: "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2019-2030-cu illər); 2025-ci il üçün uyğunlaşdırılmışdır<br><br>(Hami təşkilat - BƏT) | - COVID-19 pandemiyasından sonrakı dövrdə rəqəmsal iqtisadiyyata və məsafədən iş rejimlərinə keçid sürətlənir<br>- Hədəf qrupların, xüsusilə həssas qrupların iştirakı üçün imkanlar artıb<br>- Müxtəlif maliyyələşdirmə seçimləri öyrənilir və tətbiq olunur<br>- İcraçı tərəfdaşlar heç kəsi kənarda qoymamaq prinsipinə əməl edir<br>- Regionlarda iş stimullaşdırılır<br>- Prioritetlərin dəyişməsi proqramlara vaxtında inteqrasiya edilir |
| | DİM. 8.8.2 Beynəlxalq Əmək Təşkilatının (BƏT) sənədli mənbələri və milli qanunvericiliyə əsaslanan əmək hüquqlarına milli səviyyədə riayət olunmasının vəziyyəti (birləşmək azadlığı və kollektiv sövdələşmə), cins və miqrasiya statusu üzrə bölgüdə<br><br>*(prioritetləşdirilməyib, portalda məlumat mövcud deyil) | Müəyyənləşdirilməlidir | Müəyyənləşdirilməlidir | (Hami təşkilat - BƏT) | |
| | DİM 8.5.1 İşçilərin orta saathesabı əmək haqqı, cins, yaş, peşə növü və əlillik əlaməti üzrə bölgüdə<br><br>*(prioritetləşdirilib, portalda məlumat mövcuddur, lakin dezaqreqasiya edilməyib) | 3,5 manat (2018) | 5 AZN | İlkin vəziyyət üçün mənbə: DİM-lər üzrə Milli Məlumatlandırma Portalı<br>Hədəf üçün mənbə: Milli Məşğulluq Strategiyası; 2025-ci il üçün uyğunlaşdırılmışdır.<br><br>(Hami təşkilat - BƏT) | |

| MƏHSUL | GÖSTƏRİCİ | İLKİN VƏZİYYƏT (İL) | HƏDƏF (ƏMƏKDAŞLIQ ÇƏRÇİVƏSİNİN MÜDDƏTİ) | MƏNBƏ/ YOXLAMA VASİTƏSİ | EHTİMALLAR |
|---|---|---|---|---|---|
| **Məhsul 1.1.1:**<br><br>**Kənarda qalanların faydalanması üçün MKOM-lər və sosial müəssisələr, o cümlədən qadınlara məxsus bizneslər yaradılır və dayanıqlılığı təmin edilir**<br><br>**(BMTGBQSQ, BMTİP, UNIDO, BƏT, FAO, UNECE, UN-Habitat, BMqT)** | 1.1.1.1 Aztəminatlı icmalarda fəaliyyət göstərən MKOM-lərin və sosial müəssisələrin sayı | 0 (2020) [28] | 500 (qadınlara məxsus olan - 125) | Təşkilat hesabatları<br>Aparıcı təşkilat: BMTİP | |
| | 1.1.1.2 MKOM-lər yaratmaq üçün zəruri bilik və resurslara malik olan şəxslərin sayı (cins üzrə bölgüdə) | 285 qadın (2020) | 425 qadın | Təşkilat hesabatları<br>Aparıcı təşkilat: BMTİP | |
| | 1.1.1.3 MKOM-ləri, o cümlədən maliyyə resurslarına, bazarlara, texnologiyalara çıxış imkanını və sahibkarlıq bacarıqlarını dəstəkləyən proqramlar üçün ayrılan dövlət vəsaitlərində artım<br><br>*Bu vəsaitlərdə gender aspektlərinin nə dərəcədə nəzərə alındığını ölçmək üçün də göstərici daxil edilə bilər (qadınlara yönələn proqramlar üçün faiz bölgüsü göstərilməklə) | | | | |
| **Məhsul 1.1.2:**<br><br>**Əsas sektorlarda gücləndirilmiş insan kapitalı və səriştəli işçi qüvvəsi mövcuddur**<br><br>**(UNICEF, BMTİP, UNIDO, FAO, UNV, UNESCO)** | 1.1.2.1 Əmək bazarının ehtiyacları ilə uzlaşan bilik və bacarıqları təmin edən təhsil müəssisələrinin sayı (bu təhsil müəssisələrini bitirdikdən sonra işəgötürülmənin xüsusi çəkisini (faizlə) ölçən bir alt-göstərici ilə izlənilməlidir) | 0 (2019) | 100 | Təşkilat hesabatları<br>Aparıcı təşkilat: UNİCEF | |
| | 1.1.2.2 Rəsmi əmək bazarında iş əldə etmək üçün uyğunlaşdırılmış dəstəklə təmin edilən şəxslərin sayı (gənclər, qadınlar, əlilliyi olan şəxslər, qaçqınlar üzrə bölgüdə) | 0 (2020) | 700 (210 qadın) | Təşkilat hesabatları<br>Aparıcı təşkilat: BMTİP | |
| | 1.1.2.3 Yeni bacarıqlar formalaşdıran, bacarıqlarını təkmilləşdirən və yeniləyən yenidənhazırlıq proqramlarında iştirak edən işçilərin sayı (cins üzrə bölgüdə) | 0 (2020) | 290 (162 qadın) | Təşkilat hesabatları<br>Aparıcı təşkilat: BMTİP | |
| | 1.1.2.4 Uğurlu özünüreallaşdırma üçün lazımi bacarıqlara sahib (xüsusilə də həssas qruplardan olan) gənclərin sayı, cins üzrə bölgüdə | 0 (2020) | 1000 (50%-i qadın) | Təşkilat hesabatları<br>Aparıcı təşkilat: UNESCO | |

[28] Məhsullarla bağlı göstəricilər üçün məlumatlar M&Q planında yenilənəcəkdir.

| MƏHSUL | GÖSTƏRİCİ | İLKİN VƏZİYYƏT (İL) | HƏDƏF (ƏMƏKDAŞLIQ ÇƏRÇİVƏSİNİN MÜDDƏTİ) | MƏNBƏ/ YOXLAMA VASİTƏSİ | EHTİMALLAR |
|---|---|---|---|---|---|
| **Məhsul 1.1.3:**<br><br>**Layiqli əmək, inklüzivlik və əməyin gələcəyinə dair beynəlxalq standartlar* siyasətlərdə və praktikada aktuallaşdırılır**<br><br>**(*əlverişli mühitin mövcudluğu və ona çıxış imkanına dair BƏT, BMTQAK və digər qlobal standartlar)**<br><br>**(BMTQAK, BMTİP, UNIDO, BƏT)** | 1.1.3.1 Əhalinin həssas qrupları üçün işləmək hüququnu dəstəkləyən beynəlxalq standartlara uyğunlaşdırılmış siyasət və tədbirlərin sayı (cins, qaçqınlar, əlilliyi olan şəxslər üzrə bölgüdə) | Qaçqınlar üzrə 1 (2019) | Qaçqınlar üzrə 1-dən yuxarı | Təşkilat hesabatları | |
| | 1.1.3.2 MKOM-ləri təşviq etmək üçün uyğunlaşdırılmış və ya yaradılmış normativ-hüquqi və inzibati prosedurların sayı | | | | |
| **Məhsul 1.1.4:**<br><br>**Kənd yerlərində yaşayan əhali öz gəlir mənbələrini şaxələndirə və yaşayış üçün vasitələrini dayanıqlı şəkildə yaxşılaşdıra bilir.**<br><br>**(BMTİP, BƏT, FAO, UN-Habitat, UNV)**<br><br>**UPR tövsiyələri 140.94; 140.97** | 1.1.4.1 Bir neçə gəlir mənbələri olan fermerlərin xüsusi çəkisi (cins üzrə bölgüdə) | | | | |
| | 1.1.4.2 DİM 2.4.1 Məhsuldar və dayanıqlı kənd təsərrüfatında istifadə edilən kənd təsərrüfatı torpaqlarının xüsusi çəkisi<br><br>* (prioritetləşdirilib, portalda məlumat mövcud deyil) | 0 (2020) | >100,000 ha | Aparıcı təşkilat: BMTİP<br><br>(Hami təşkilat: FAO) | |
| | 1.1.4.3 Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində fəaliyyət göstərən KOM-ların xüsusi çəkisi (region və cins üzrə bölgüdə) | | | | |

## 2-ci PRİORİTET SAHƏ: Dövlət və sosial xidmətlərin daha yaxşı göstərilməsi üçün daha güclü institutlar

**Aparıcı BMT qurumları:** UNICEF, UNFPA, ÜST, BMTİP

**Milli inkişaf prioritetləri:**
erkən uşaqlıq dövrü təhsili və ibtidai təhsilin, texniki və peşə təhsilinin gücləndirilməsi; İlkin səhiyyə xidmətinin təmin edilməsi və profilaktik xidmətin gücləndirilməsi; Ədliyyə sisteminin gücləndirilməsi; Əsas xidmətlərin müasirləşdirilməsi və rəqəmsallaşdırılması; Regionlar arasında coğrafi əsaslı bərabərsizliklərin yumşaldılması;
Gender əsaslı zorakılıq və ayrı-seçkiliklə mübarizə; DİM-lərin əsas sektorlar üzrə büdcə ayrılmış fəaliyyət göstəriciləri ilə inteqrasiyası;
Milli statistikanın inkişafı vasitəsilə dəlillərə əsaslanan idarəçiliyin gücləndirilməsi.

Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi
Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı
Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə 2019-2023-cü illər üçün Dövlət Proqramı
Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə 2018–2024-cü illər üçün Dövlət Proqramı
Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı
Azərbaycan ədliyyəsinin inkişafına dair 2019–2023-cü illər üçün Dövlət Proqramı
Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı
Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı

2015–2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası
Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya
Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası
Açıq hökumətin təşviqinə dair Milli Fəaliyyət Planı, 2020-2022

**Regional çərçivələr:** Şərq Tərəfdaşlığı (EaP) Beynəlxalq Müqayisə Proqramı CIS Səmərəli İdarəçilik üçün Tərəfdaşlıq

**DİM-lər və DİM hədəfləri:**
1-ci DİM (Yoxsulluğa son): 1.3; 1.a
3-cü DİM (Yaxşı sağlamlıq və rifah): 3.4; 3.7; 3.8
4-cü DİM (Keyfiyyətli təhsil): 4.3
5-ci DİM (Gender bərabərliyi): 5.6;
12-ci DİM (Məsuliyyətli istehlak və istehsal): 12.7
16-cı DİM (Sülh, ədalət və güclü institutlar): 16.6; 16.7; 16.10
17-ci DİM (Məqsədlər üçün tərəfdaşlıqlar):17.18

| NƏTİCƏLƏR | TƏKLİF OLUNAN İCRA GÖSTƏRİCİLƏRİ | İLKİN VƏZİYYƏT (İL) | HƏDƏF (ƏMƏKDAŞLIQ ÇƏRÇİVƏSİNİN MÜDDƏTİ) | MƏNBƏ/ YOXLAMA VASİTƏSİ | EHTİMALLAR |
|---|---|---|---|---|---|
| **Nəticə 2.1**<br><br>**Kənarda qalan şəxslər Azərbaycanın beynəlxalq öhdəliklərinə uyğun olaraq, sosial müdafiə və keyfiyyətli dövlət və sosial xidmətlər üçün gücləndirilmiş milli potensial və idarəçilik strukturlarından faydalanır**<br><br>**(*insan hüquqları standartları və BƏT-in standartları daxil olmaqla)**<br><br>**BMT-nin təşkilatları:**<br><br>**BMTİP, UNİCEF, UNFPA, BMTQAK, BMT İHAK, ÜST, BƏT, FAO, UN-Habitat, UNODC, UNOPS, UNV, ÜST və BMqT, UNESCO, UNESCAP**<br><br>**UPR tövsiyələri 140.79; 140.80; 140.82; 140.89; 140.90; 140.93** | Məktəbəqədər təhsildə ümumi qeydiyyat əmsalı (3-5 yaş), cins üzrə bölgüdə<br><br>Alt-göstərici:<br>5 yaşlı uşaqların məktəbəhazırlıqla əhatəolunma səviyyəsi | Cəmi: 39,71%, Oğlanlar: 39,90%, Qızlar: 39,49% (2018)<br><br>Cəmi: 80%<br>Oğlanlar: 54%<br>Qızlar 46% (2019) | 50%<br><br>90% | UNICEF<br><br>Təhsil Nazirliyi | **Ehtimallar:**<br>- Dövlət xidmətlərinin islahatı və təkmilləşdirilməsi üçün siyasi iradə mövcuddur<br>- Korrupsiya ilə mübarizə səyləri gücləndirilir<br>- COVID-19 pandemiyasının doğurduğu iqtisadi tənəzzül uğurla azaldılır<br>- Təbii fəlakət və antropogen böhranlara, o cümlədən regional dinamika və Ermənistanla Azərbaycan arasında Azərbaycanın<br>- Dağlıq Qarabağ regionu və onun ətrafında olan ərazilərindəki münaqişənin nəticələrinə dözümlülük<br>- Özəl sektor və vətəndaş cəmiyyəti dövlət siyasətlərinə daha yaxından cəlb edilir<br>- Məktəb əsaslı idarəetmə sistemi hökumət tərəfindən təsdiq edilir və sınaqdan keçirilir |
| | DİM 4.3.1 Son 12 ay ərzində gənclərin və böyüklərin formal və qeyri-formal təhsildə və peşə hazırlığında iştirak səviyyəsi, cins üzrə bölgüdə<br><br>Əldə olan məlumat: müxtəlif təhsil müəssisələri üzrə tələbələrin sayı<br><br>* (prioritetləşdirilib, məlumatların toplanması planlaşdırılır) | müəyyənləşdirilməlidir<br><br>- Formal ümumi təhsil: 1510248<br>- Orta-ixtisas təhsili: 55922<br>- Peşə təhsili: 22088<br>- Ali təhsil: 183085<br>- İnformal: müəyyənləşdiriləcək<br><br>Cəmi: 1771343 (2019) | müəyyənləşdirilməlidir | Təhsil Nazirliyi<br><br>(Hami təşkilat - UNESCO-nun Statistika İnstitutu) | |
| | Tibbi xidmətin əhatəliyinin orta səviyyəsi | 70.9 (2018) | 75.5 | Mənbə<br><br>(Hami təşkilat - ÜST) | |

| NƏTİCƏLƏR | TƏKLİF OLUNAN İCRA GÖSTƏRİCİLƏRİ | İLKİN VƏZİYYƏT (İL) | HƏDƏF (ƏMƏKDAŞLIQ ÇƏRÇİVƏSİNİN MÜDDƏTİ) | MƏNBƏ/ YOXLAMA VASİTƏSİ | EHTİMALLAR |
|---|---|---|---|---|---|
| **Müqavilə orqanlarının yekun rəyləri:**<br><br>• **CESCR E/C.12/AZE/CO/3, bəndlər 11, 13, 14**<br>• **CEDAW/C/AZE/CO/5, bənd 39 (c)**<br>• **CRPD/C/AZE/CO/1, bəndlər 33, 35**<br>• **CRC/C/AZE/CO/3-4, bəndlər 17, 18, 20, 39, 53**<br>• **CMW/C/AZE/CO/2, bəndlər 19, 26, 27, 43**<br><br>**Tərəfdaşlar:**<br>Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, DİMƏŞ, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Ombudsman Aparatı, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, DOST Agentliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Maliyyə Nazirliyi, Xarici İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Azərbaycan Vəkillər Kollegiyası, BMT-nin Gənclər üzrə Məşvərət Şurası, Özəl sektor (dəqiqləşdirilməli), vətəndaş cəmiyyəti təşkilatları (dəqiqləşdirilməli) | DİM 3.8.2 Ev təsərrüfatının xərcləri və ya gəlirlərinin ümumi həcmində ev təsərrüfatının səhiyyə xərclərinin payı böyük olan əhalinin xüsusi çəkisi<br><br>* (prioritetləşdirilib, məlumatların toplanması planlaşdırılır) | müəyyənləşdirilməlidir | müəyyənləşdirilməlidir | (Hami təşkilat-ÜST) | Tərəfdaşlar BMT sisteminə dəstək göstərmək istəyir və bunu öhdəsinə götürür<br>Siyasətlərin davamlılığı BMT sisteminin dəstək göstərdiyi dövrlə məhdudlaşmır<br>Hədəf qrupların, xüsusilə həssas qrupların iştirakı üçün imkanlar artıb<br>Müxtəlif maliyyələşdirmə seçimləri öyrənilir və tətbiq olunur<br>İcraçı tərəfdaşlar heç kəsi kənarda qoymamaq prinsipinə əməl edir<br>Regionlarda iş stimullaşdırılır<br>Prioritetlərin dəyişməsi vaxtında inteqrasiya edilir |
| | DİM 3.4.1 Ürək-damar xəstəliyi, xərçəng, diabet və ya tənəffüs yollarının xroniki xəstəliyindən ölüm səviyyəsi<br><br>* (prioritetləşdirilib, portalda məlumat mövcuddur) | 466,3 (hər 100000 nəfərə) (2018) | 350 (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının azalma hədəfi) | DİM-lər üzrə Milli Məlumatlandırma Portalı<br><br>(Hami təşkilat - ÜST) | |
| | DİM 3.7.1 Ailə planlaşdırılması üzrə öz ehtiyaclarını müasir üsullarla təmin edən reproduktiv yaşda (15-49 yaşda) olan qadınların xüsusi çəkisi<br><br>* (prioritetləşdirilməyib, portalda məlumat mövcud deyil) | 13-14% (müasir metodlarla) (2006, 2011)<br><br>45-47% (kontraseptiv istifadəsi) (DSK) | 25-27%<br>60-65% | İlkin vəziyyət üçün mənbə: Demoqrafiya və Sağlamlıq Sorğusu (2006 (Macro International), ISIM (2011)) ; DSK;<br><br>Hədəf: UNFPA<br><br>(Hami təşkilat - İqtisadi və Sosial Məsələlər Departamentinin Əhali Bölməsi) | |
| | DİM 5.6.1 Seksual münasibətlər, kontraseptivlərdən istifadə və reproduktiv sağlamlığın qorunmasına dair qərarları özləri tərəfindən düşünülmüş qəbul edən 15-49 yaşda olan qadınların xüsusi çəkisi<br><br>* (prioritetləşdirilib, məlumatların toplanması planlaşdırılır) | İlkin vəziyyət məlumatı 2021-ci il MİCS sorğusu vasitəsilə toplanacaq | müəyyənləşdirilməlidir | (Hami təşkilat - UNFPA) | |
| | Reproduktiv yaşda olan qadınlar arasında anemiyanın yayılma səviyyəsi | 38,5% (2013) | müəyyənləşdirilməlidir | UNICEF Azərbaycan Qidalanma Sorğusu (2013) | |
| | DİM 1.3.1 Sosial müdafiə səviyyələri (sistemləri) ilə əhatə olunan əhalinin xüsusi çəkisi, cins üzrə bölgüdə, uşaqlar, işsizlər, ahıllar, əlillər, hamilə qadınlar, yeni doğulanlar, istehsalat xəsarəti alanlar, yoxsul və aztəminatlıları ayırmaqla<br><br>* (prioritetləşdirilib, portalda məlumat mövcuddur) | 5,56 (işsizlərin ümumi sayında işsizlik müavinəti alan işsizlərin xüsusi çəkisi) 2018 | 10 (dəqiqləşdirilməlidir) | DİM-lər üzrə Milli Məlumatlandırma Portalı<br><br>(Hami təşkilat - BƏT) | |

| NƏTİCƏLƏR | TƏKLİF OLUNAN İCRA GÖSTƏRİCİLƏRİ | İLKİN VƏZİYYƏT (İL) | HƏDƏF (ƏMƏKDAŞLIQ ÇƏRÇİVƏSİNİN MÜDDƏTİ) | MƏNBƏ/ YOXLAMA VASİTƏSİ | EHTİMALLAR |
|---|---|---|---|---|---|
| | DİM 1.a.2 Ümumi dövlət xərclərində əsas xidmətlərə (təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat) çəkilən xərclərin xüsusi çəkisi<br><br>* (prioritetləşdirilib, portalda məlumat mövcuddur) | 21,23% (2018) | 30% | DİM-lər üzrə Milli Məlumatlandırma Portalı<br><br>(Hami təşkilat - UNESCO-nun Statistika İnstitutu) | |
| | DİM 16.7.2 Qərarların qəbul edilməsi prosesinin inklüziv və məsuliyyətli olduğunu hesab edən əhalinin xüsusi çəkisi, cins, yaş, əlillik əlaməti və əhali qrupları üzrə bölgüdə<br><br>* (Prioritetləşdirilməyib, portalda məlumat mövcud deyil) | müəyyənləşdirilməlidir | müəyyənləşdirilməlidir | (Hami təşkilat - BMTİP) | |
| | DİM 16.6.2 Dövlət xidmətlərindən istifadə üzrə son təcrübəsindən razı qalmış əhalinin xüsusi çəkisi<br><br>Əlavə dezaqreqasiya: cins, yaş, əlillik əlaməti üzrə bölgüdə<br><br>* (Prioritetləşdirilməyib, portalda məlumat mövcud deyil) | 99,4% (xidmət istifadəçilərinin 50 faizi arasında sorğu: 36,7% - qadın, 63,3% - kişi, 10,3% - gənclər (18-25 yaş)<br><br>Elektron xidmətlərdə respondentlərin 55%-i elektron xidmətlərdən istifadə edib və məmnuniyyət səviyyəsi 5 baldan 4,23-dür. | 99,8% və məmnuniyyət səviyyəsi 5 baldan 4,7 | ASAN<br>(Hami təşkilat - BMTİP) | |
| | DİM 16.10.2 Azərbaycan vətəndaşlarının informasiyaya çıxışı ilə bağlı konstitusion, qanunverici və/və ya siyasi zəmanətləri qəbul edir və tətbiq edir<br><br>* (Prioritetləşdirilməyib, portalda məlumat mövcuddur) | 1 | 1 | (Hami təşkilat - UNESCO)<br><br>UNESCO-ya könüllü hesabat (informasiyaya çıxışı)<br><br>UNESCO-nun DİM 16.10.2 üzrə hesabatı<br><br>DİM-lər üzrə Milli Məlumatlandırma Portalı | |

| MƏHSUL | GÖSTƏRİCİ | İLKİN VƏZİYYƏT (İL) | HƏDƏF (ƏMƏKDAŞLIQ ÇƏRÇİVƏSİNİN MÜDDƏTİ) | MƏNBƏ/ YOXLAMA VASİTƏSİ | EHTİMALLAR |
|---|---|---|---|---|---|
| **Məhsul 2.1.1:**<br><br>**Milli təhsil sistemi keyfiyyətli təhsil və təlimə inklüziv çıxışı təmin etmək üçün gücləndirilir.**<br><br>**(BMT İHAK, UNICEF, UNFPA, BMTQAK, BMTİP, UNODC, BƏT, UNESCO)**<br><br>**UPR tövsiyələri 140.40; 140.45; 140.106; 140.107; 140.138; 140.144; 140.152; 141.91; 141.93; 141.100**<br><br>**Müqavilə orqanlarının yekun rəyləri:**<br><br>**• CESCR E/C.12/AZE/CO/3, bəndlər 17, 23**<br>**• CEDAW/C/AZE/CO/5, bəndlər 13 B, C, 29**<br>**• CRPD/C/AZE/CO/1, bəndlər 33, 35, 40, 41**<br>**• CRC/C/AZE/CO/3-4, bəndlər 37, 56 E, 57 F, 64, 65**<br>**• CMW/C/AZE/CO/2, bəndlər 32, 33** | 2.1.1.1 İnklüziv təhsil və təlimin təşkil olunduğu təhsil müəssisələrinin sayı | 4 (2019) | 200 | Təşkilat hesabatları<br>Aparıcı təşkilat: UNİCEF | |
| | 2.1.1.2 Ölkədə oxuma savadlılığı üzrə yaxşılaşma nümayiş olunur | 472 (2016) | 500 | Milli qiymətləndirmə hesabatları, Beynəlxalq Oxuma Savadlılığı Tədqiqatında İnkişaf hesabatları<br>Aparıcı təşkilat: UNİCEF | |
| | 2.1.1.3 Müəllimlərin milli peşəkar inkişafı sisteminin miqyası və keyfiyyəti - bal (1-4) | 3 (2019) | 4 | TN-nin hesabatları<br>Aparıcı təşkilat: UNİCEF | |
| | 2.1.1.4 Məşğulluq, layiqli iş yerləri və sahibkarlıq üçün müvafiq bacarıqları (texniki və peşə bacarıqları daxil olmaqla) əldə etmək istəyən şəxslər üçün keyfiyyətli təhsil təqdim etmək üçün müasirləşdirilmiş peşə təhsili və təlimi mərkəzlərinin sayı [29] | 0 | 5 | Aparıcı təşkilat: BMTİP | |
| | 2.1.1.5 Gənc qadın və kişilərə peşəkar bacarıqlara yiyələnmək üçün inklüziv onlayn təlim təqdim edən təşəbbüslərin sayı | | | | |

[29] Ölkədə peşə təhsili və təlimi mərkəzlərinin ümumi sayı: 2019/2020 təhsil ili üçün – 97. 94 - Təhsil Nazirliyinin tabeliyində; 2 – digər qurumların tabeliyində; 1 – özəl

| MƏHSUL | GÖSTƏRİCİ | İLKİN VƏZİYYƏT (İL) | HƏDƏF (ƏMƏKDAŞLIQ ÇƏRÇİVƏSİNİN MÜDDƏTİ) | MƏNBƏ/ YOXLAMA VASİTƏSİ | EHTİMALLAR |
|---|---|---|---|---|---|
| **Məhsul 2.1.2:**<br><br>**Milli ilkin tibbi xidmət və qidalanma sistemləri universal əhatəolunma və keyfiyyətli, inklüziv və yüksək təsirli tədbirləri təmin etmək üçün gücləndirilir**<br><br>**(UNICEF, UNFPA, BMTQAK, BMTİP, UNODC, UNOPS, ÜST)**<br><br>**UPR tövsiyələri 140.89; 140.99; 140.100; 140.101; 140.102; 140.103; 140.104; 140.105; 140.131**<br><br>**Müqavilə orqanlarının yekun rəyləri:**<br>**• CESCR E/C.12/AZE/CO/3, bəndlər 9, 16**<br>**• CRC/C/AZE/CO/3-4, bəndlər 58, 59, 60, 61 B, 63**<br>**• CEDAW/C/AZE/CO/5, bəndlər 32, 33**<br>**• CRPD/C/AZE/CO/1, bəndlər 17, 18, 19**<br>**• CMW/C/AZE/CO/2, bənd 37** | 2.1.2.1 "Qeyri infeksion xəstəliklərlə mübarizəyə dair" Milli Strategiya (və ya xərc bölgüsünə malik Fəaliyyət Planı - o cümlədən bəstəboyluq və anemiyaya yönələn qidalanma üzrə fəaliyyət planı) hazırlanır və icra edilir | | | | |
| | 2.1.2.2 İlkin səhiyyə sistemi çərçivəsində ailə həkimləri və ev ziyarətlərinin sayında artım | | | | |
| | 2.1.2.3 Səhiyyə xidmətinin təmin edilməsi üçün monitorinq və keyfiyyət təminatı xidmətlərinin mövcudluğu | | | | |
| | 2.1.2.4 İlkin səhiyyə sisteminə reproduktiv sağlamlıq üzrə konsultasiya və xidmətlər daxil edilib | Xeyr | Bəli | Təşkilat hesabatları | |
| | 2.1.2.5 İnfeksiyaların qarşısının alınması və nəzarət üzrə milli strategiya və ya fəaliyyət planı hazırlanır və icra edilir. | | | | |
| | 2.1.2.6 Azərbaycanda ilkin səhiyyə xidməti üçün milli model hazırlanır və milli pilot layihələr əsasında sınaqdan keçirilir | | | | |
| | 2.1.2.7 Milli səhiyyə satınalması sistemini gücləndirmək və vərəm və İİV/QİÇS xəstələrinin müalicəsini yaxşılaşdırmaq üçün satın alınan əsas dərmanların sayı və növləri, eləcə də COVID-19 alovlanmasına cavab olaraq FMV-lərin satın alınması | 0 | Vərəm xəstələri üçün 22 növdə dərman; İİV-lə yaşayan insanlar üçün 25 növdə dərman | Təşkilat hesabatları Aparıcı təşkilat: BMTİP | |
| | 2.1.2.8 DİM 12.7.1 Dayanıqlı dövlət satınalmaları siyasətlərinin və tədbirlər planının həyata keçirilməsi səviyyəsi<br><br>* (prioritetləşdirilməyib, portalda məlumat mövcud deyil) | Müəyyənləşdirilməlidir | 75 % | Hami təşkilat-BMT-nin Ətraf Mühit Proqramı<br><br>Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | |

| MƏHSUL | GÖSTƏRİCİ | İLKİN VƏZİYYƏT (İL) | HƏDƏF (ƏMƏKDAŞLIQ ÇƏRÇİVƏSİNİN MÜDDƏTİ) | MƏNBƏ/ YOXLAMA VASİTƏSİ | EHTİMALLAR |
|---|---|---|---|---|---|
| **Məhsul 2.1.3:**<br>**Dövlət və sosial müdafiə xidmətləri təmin edən müəssisələrin keyfiyyətli, səmərəli və innovativ yollarla ən həssas əhali qruplarını hədəfə almaq üçün potensialı gücləndirilib**<br><br>**(UNFPA, UNICEF, BMTİP, UNODC, BƏT, FAO, UN-Habitat)**<br><br>**UPR tövsiyələri 140.18; 140.29**<br><br>**Müqavilə orqanlarının yekun rəyləri:**<br>**• CESCR E/C.12/AZE/CO/3, bənd 5**<br>**• CEDAW/C/AZE/CO/5, bəndlər 23 C, D; 37**<br>**• CRPD/C/AZE/CO/1, bəndlər 9, 21, 33**<br>**• CRC/C/AZE/CO/3-4, bəndlər 12, 52, 53, 54, 55**<br>**• CMW/C/AZE/CO/2, bəndlər 41, 42** | 2.1.3.1 Əhalinin həssas qruplarının ehtiyaclarını qarşılamaq üçün yetərli səriştəyə malik olan dövlət və sosial xidmətlər təmin edən müəssisələrin sayı | | | | |
| | 2.1.3.2 Milli sosial xidmət strategiyası və sistemi yaradılıb və icra edilir. | | | | |
| | 2.1.3.3 “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyada əksini tapan sosial model, funksional qabiliyyətin tərifi və digər prinsiplər əlilliyi olan şəxslərə dəstək üçün milli siyasət və strategiyalara tətbiq edilir | | | | |
| | 2.1.3.4 Əhalinin hər 100 000 nəfərinə düşən sosial işçilərin sayı | Əhalinin hər min nəfərinə 1 (2019) | Əhalinin hər min nəfərinə 3 | Təşkilat hesabatları<br>Aparıcı təşkilat: UNİCEF | |
| **Məhsul 2.1.4:**<br><br>**İnsan hüquqlarını təşviq və müdafiə etmək, ədliyyə xidmətlərinə və iştirak mexanizmlərinə çıxış imkanını artırmaq və sosial birliyi saxlamaq üçün milli siyasət və mexanizmlər gücləndirilir**<br><br>**(BMT İHAK, UNICEF, BMTQAK, BMTİP, UNODC, BƏT, UN-Habitat, ÜST)** | 2.1.4.1 Pozulduğu iddia olunan insan hüquqlarını və əmək hüquqlarını bərpa etmək məqsədilə ədliyyə xidmətlərinə çıxış imkanı əldə etmiş şəxslərin sayı (cins üzrə bölgüdə və məsələn, sığınacaq sisteminə çıxış imkanını, uşaqlar üzrə ədliyyə xidmətlərinə çıxış imkanını əhatə etməklə) | BMT İHAK tərəfindən təmin edilən pulsuz hüquqi yardım xidmətlərinə çıxışı olan şəxslərin sayı – 980<br><br>Vəkillər Kollegiyası tərəfindən təmin edilən pulsuz hüquqi yardım xidmətlərinə çıxışı olan şəxslərin sayı – 553 | BMT İHAK tərəfindən təmin edilən pulsuz hüquqi yardım xidmətlərinə çıxışı olan şəxslərin sayı – 3980<br><br>Vəkillər Kollegiyası tərəfindən təmin edilən pulsuz hüquqi yardım xidmətlərinə çıxışı olan şəxslərin sayı – 6900 | Təşkilat hesabatları<br>Aparıcı təşkilat: BMT İHAK | |

| MƏHSUL | GÖSTƏRİCİ | İLKİN VƏZİYYƏT (İL) | HƏDƏF (ƏMƏKDAŞLIQ ÇƏRÇİVƏSİNİN MÜDDƏTİ) | MƏNBƏ/ YOXLAMA VASİTƏSİ | EHTİMALLAR |
|---|---|---|---|---|---|
| **UPR tövsiyələri 140.1; 140.2; 140.4; 140.5; 140.6; 140.13; 140.17; 140.23; 140.24; 140.26; 140.36; 140.39; 140.42; 140.43; 140.44; 140.69; 140.70; 140.72; 140.73; 140.88; 141.25; 141.50;**<br><br>**Müqavilə orqanlarının yekun rəyləri; Müşahidələr**<br>**• CESCR E/C.12/AZE/CO/3, bəndlər 5, 20, 22, 27**<br>**• CCPR/C/AZE/CO/4, bəndlər 5, 9, 11, 12, 25, 27, 29, 31, 33, 37, 39, 41**<br>**• CEDAW/C/AZE/CO/5, bəndlər 7, 9, 11, 16, 23**<br>**• CRPD/C/AZE/CO/1, bəndlər 9, 13, 26, 27, 29, 31, 37, 39, 45**<br>**• CRC/C/AZE/CO/3-4, bəndlər 8, 10, 12, 14, 16, 33, 39, 46, 48, 49, 55, 57, 67, 70, 72, 76, 77**<br>**• CMW/C/AZE/CO/2, bəndlər 9, 13, 17, 20, 21, 22, 23, 27, 28, 29, 35, 39, 45**<br>**• CAT/C/AZE/CO/4, bəndlər 9, 11, 13, 15, 17, 21, 23, 25, 27, 33, 35, 37, 39, 41**<br>**• CERD/C/AZE/CO/7-9, bəndlər 6, 8, 12, 20, 22, 26, 28** | 2.1.4.2 Pulsuz hüquqi yardım göstərən, adambaşına düşən vəkillərin və səmərəli dövlət təsisatlarının (mexanizmlərin) sayı (xüsusilə ölkənin regionlarında) | Əhalinin hər 100 000 nəfərinə düşən vəkillərin sayı: 63 (şəhər)/5(kənd)<br><br>Vəkillər Kollegiyası tərəfindən yerində göstərilən pulsuz hüquqi xidmətlər: 2 (şəhər) /6 (kənd) | Əhalinin hər 100 000 nəfərinə düşən vəkillərin sayı: 72 (şəhər)/15(kənd)<br><br>Vəkillər Kollegiyası tərəfindən yerində göstərilən pulsuz hüquqi xidmətlər: 12 (şəhər) /20 (kənd) | Təşkilat hesabatları<br>Aparıcı təşkilat: BMT İHAK | |
